RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 259 (8852) ÇƏRŞƏNBƏ AXŞAMI, 30 noyabr 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# İqtisadi Əməkdaşlıq Təşkilatından İlham Əliyevə tam dəstək




## Prezident İlham Əliyev Türkmənistana səfər edib



Noyabrın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İqtisadi Əməkdaşlıq Təşkilatının XV Zirvə Toplantısında iştirak etmək üçün Türkmənistana səfər edib.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın və Türkmənistanın dövlət bayraqlarının dalğalandığı Aşqabad Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Türkmənistan Nazirlər Kabineti sədrinin müavini Sapardurdu Toyliyev qarşıladı.

Ardı 2-ci səh.

## Azərbaycan Prezidenti İqtisadi Əməkdaşlıq Təşkilatının XV Zirvə Toplantısında iştirak edib



Noyabrın 28-də Türkmənistanın paytaxtı Aşqabad şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) XV Zirvə Toplantısı keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev toplantıda iştirak edib.

Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov Azərbaycan Prezidenti İlham Əliyevi qarşıladı.

Dövlət başçıları xatirə şəkli çəkdirdilər.

Sonra Prezident Qurbanqulu Berdiməhəmmədov İqtisadi Əməkdaşlıq Təşkilatının XV Zirvə Toplantısında iştirak etmək üçün Türkmənistana gələn digər qonaqları qarşıladı.

Dövlət və hökumət başçıları birgə foto çəkdirdilər.

Prezident Qurbanqulu Berdiməhəmmədov Zirvə toplantısını açaraq tədbir iştirakçılarını salamladı. Türkmənistan Prezidenti İqtisadi Əməkdaşlıq Təşkilatının XV Zirvə Toplantısına evsahibliyi etməkdən məmnun olduğunu dedi.

Ardı 2-ci səh.

## Beynəlxalq qurumun üzv dövlətləri Azərbaycan Prezidentinin Zəfərini böyük nailiyyət kimi qiymətləndirdilər, Qarabağ və Şərqi Zəngəzurun quruculuq işlərində birgə iştirakı bəyan etdilər

Soçi görüşünə Müzəffər Komandan kimi yollanıb, danışıqlar prosesində mövqeyini təkzibolunmaz arqumentlərlə əsaslandıran, xalqının maraqlarını qətiyyətlə müdafiə edib istəyinə nail olan İlham Əliyev iki gün sonra İqtisadi Əməkdaşlıq Təşkilatının Aşqabadda keçirilən XV Zirvə Görüşünə məğrur lider kimi qatıldı.

“Birlikdə gələcəyə” devizi altında keçirilən Zirvə görüşündə, eləcə də dost ölkələrin rəhbərləri ilə keçirilən təkbətək görüşlərdə dövlət başçımızın ünvanına səsləndirilən fikirlər bir daha təsdiq etdi ki, yeni əsrin yeni lideri İlham Əliyev 18 ildə Azərbaycanı həm siyasi-iqtisadi, həm hərbi cəhətdən qüdrətli, həm də dünyada sözükeçən dövlətə çevirib.

### 29 illik fəal əməkdaşlıq

İqtisadi Əməkdaşlıq Təşkilatı hökumətlərarası təşkilat kimi, 1985-ci ildə Türkiyə, İran və Pakistan arasında iqtisadi, texniki və mədəni əməkdaşlığı möhkəmləndirmək məqsədilə yaradılıb.

İƏT 1964-1979-cu illərdə fəaliyyət göstərmiş Regional Əməkdaşlıq və İnkişaf Təşkilatının davamçısı hesab olunur. Hazırda İƏT-in 10 üzvü var: Azərbaycan, Türkiyə, Pakistan, Əfqanıstan, İran, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Türkmənistan və Tacikistan.

Ardı 4-cü səh.

## Azərbaycan Türkmənistan qazını İran üzərindən alacaq

Bu barədə imzalanan saziş üçtərəfli əməkdaşlıq üçün möhkəm zəmin yaradır



Bax: səh. 7

## Toplantı iştirakçılarının şərəfinə rəsmi nahar verilib

Noyabrın 28-də Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun adından İqtisadi Əməkdaşlıq Təşkilatının XV Zirvə Toplantısında iştirak edən dövlət, hökumət və nümayəndə heyətləri başçılarının şərəfinə rəsmi nahar verilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev naharda iştirak edib.

## Səfər başa çatdı



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkmənistana səfəri noyabrın 28-də başa çatıb.

## Azərbaycan Pakistanın tutduğu qəti və prinsipial mövqeyi yüksək qiymətləndirir



Noyabrın 28-də Aşqabadda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Pakistan İslam Respublikasının Prezidenti Arif Alvi ilə görüşü olub.

Bax: səh. 3

## İqtisadi-ticari münasibətlər genişləndirilir

Noyabrın 28-də Aşqabadda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon ilə görüşü olub.



Bax: səh. 3

## Azərbaycan İranla əlaqələrə çox böyük önəm verir



AZƏRTAC xəbər verir ki, noyabrın 28-də Aşqabadda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisi ilə görüşü olub.

Bax: səh. 3

## Azərbaycan-Türkiyə münasibətləri strateji müttəfiqlik xarakteri daşıyır

Noyabrın 28-də Aşqabadda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşü olub.



Bax: səh. 3

# İƏT-ə üzv dövlətlərlə münasibətlərimiz dostluğa və qarşılıqlı hörmətə əsaslanır

## Prezident İlham Əliyev Türkmənistana səfər edib









*Əvvəli 1-ci səh.*

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov ilə görüşü olub.

Azərbaycan Prezidentini salamlayan **Prezident Qurbanqulu BERDİMƏHƏMMƏDOV** dedi:

- Hörmətli İlham Heydər oğlu, qardaş Türkmənistanda Sizi salamlamağa və təşəkkürümüzü bildirməyə şadıq ki, bizə hörmət edib dəvətimizi qəbul etmisiniz. İqtisadi Əməkdaşlıq Təşkilatının XV Sammitində birgə iştirak edəcəyik. Bəri başdan əlamətdar, yaxşı tarixləri qeyd etmək istəyirəm. Əvvələn, noyabrın 28-i bizim təşkilatın günüdür. İkincisi, demək istərdim ki, bizim sədrliyimiz dövründə bu təşkilatın nüfuzunu artıran qətnamə qəbul edilib. Buna görə düşünürəm ki, xüsusən pandemiya dövründə əsasən iqtisadi məsələlərimizi bir daha müzakirə etmək üçün yaxşı imkanımız olacaq. Mən kooperasiya, inteqrasiya məsələlərini nəzərdə tuturam.

Sonra, səmimi desəm, bu gün mənim üçün çox heyrətləndirici bir xəbər aldım. Adətən, biz nadir hallarda heyrətlənirik, lakin bu xəbər təəccüblü oldu. Bu gün mənə Xarici İşlər Nazirləri Şurasının qətnaməsini təqdim etdilər. Bu sənəd Aşqabadda konsensus yolu ilə qəbul edilib. Bilirsinizmi, orada yaxşı bəndlər, cümlələr var ki, Azərbaycan, həqiqətən, inandırıcı qələbə qazanıb. Ola bilsin, mən bir qədər qeyri-dəqiq şəkildə təkrar edirəm və ya fikrimi düzgün ifadə etmirəm, lakin mənə budur ki, Azərbaycan ölkənin suverenliyinin və ərazi bütövlüyünün bərpasında, həqiqətən, müzəffər olub. Mən, sadəcə, demək istəyirəm ki, bu qətnamənin konsensus yolu ilə qəbul edilməsi bizim münasibətlərimizdə parlaq səhifədir. Bu münasibətlə Sizi ürəkdən təbrik edirəm.

Bizim gündəlikdə bir neçə məsələ var. Birinci - növbəti sammitin gündəliyinin təsdiq edilməsi, ikincisi - baş katibin seçilməsi, üçüncüsü - növbəti sammiti kim keçirəcək və Aşqabad Sammitinin yekun kommünikesinin qəbul edilməsi. Mən Sizi Qələbə münasibətilə, bu tarixi hadisə münasibətilə əvvəlcədən təbrik edirəm. Həmişəki kimi, Aşqabada xoş gəlmisiniz.

**Prezident İlham ƏLİYEV** dedi:

- Sağ olun, hörmətli Qurbanqulu Məlikquluyeviç. İlk növbədə, bir daha qardaş Türkmənistana səfərə dəvətə görə təşəkkürümü bildirmək istəyirəm. Bu sammitdə bizim iştirak etməyimiz təşkilatımızın prinsiplərinə sadiq olduğumuzu təsdiq edir.

Bakıdan buraya uçanda gözəl panoram, əkilmiş tarlalar, abad məhəllələr, qəsəbələr gördüm. Əlbəttə, Aşqabad burada olanları ilk dəqiqələrdən öz gözəlliyi və möhtəşəmliyi ilə heyran edir. Bildiyiniz kimi, mən dəfələrlə Sizin ölkənizdə olmuşam və Sizin rəhbərliyinizlə həm ölkənizin sosial-iqtisadi inkişafı, həm də abadlıq, şəhər infrastrukturunun yaradılması işində qazanılmış nailiyyətlərə heyran olduğumu həmişə bildirmişəm. Yadımdadır, ötən görüşümüzdə Sizin idman şəhərciyinizlə, bəlkə də idman şəhəri ilə tanış oldum. O vaxt Siz Asiadanı uğurla keçirdiniz. Bu, onu göstərir ki, dövlət öz gücünə, ənənələrinə, türkmən xalqının istedadına əsaslanaraq inamla irəliləyir. Bu, bizi ürəkdən sevindirir.

Əlbəttə, Sizə, İqtisadi Əməkdaşlıq Təşkilatında sədrlik edən ölkə kimi bu qətnamənin qəbul edilməsində fəal rol oynadığınıza görə təşəkkürümü bildirmək istərdim. Biz bunu çox yüksək qiymətləndiririk. Həmin qətnamədə qeyd edilib ki, üzv ölkələr Azərbaycanı ərazi bütövlüyünün bərpa edilməsi münasibətilə təbrik edirlər. Bilirsiniz, bu, Azərbaycan xalqı üçün tarixi hadisədir və əlbəttə, bütün Azərbaycan xalqı bu qətnamədə sədr ölkənin və bütün digər üzvlərin qardaşcasına münasibətini görəcək. Ona görə də bu, həqiqətən, çox mühüm hadisədir. Çox sevindirici haldır ki, bu tədbir azərbaycanlılar üçün qardaş Türkmənistan torpağında keçirilir. Əlbəttə, bu gün biz ikitərəfli gündəlik barədə də söhbət edəcəyik, burada da yaxşı nəticələrimiz var və bundan sonra da qardaşlar kimi çiyin-çiyinə irəliləyəcəyik. Bir daha sağ olun.

**Prezident Qurbanqulu BERDİMƏHƏMMƏDOV:** Bilirsiniz, mən bir məqamı da vurğulamaq istəyirəm. Hər halda Aşqabadda bu qətnamənin qəbul edilməsi parlaq tarixi hadisədir. Hər halda biz yeganə neytral ölkəyik, qətnamə neytral ölkədə qəbul edilib. Biz qardaş ölkələrik, qonşularıq, lakin daha vacibi odur ki, qətnamə beynəlxalq səviyyədə qəbul edilib. Bu siyasi hadisəni inkişaf etdirmək lazımdır. Necə deyərlər, dəmiri isti-isti döyərlər. Sağ olun.

* * *

Görüşdən sonra Azərbaycan Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi keçirilib.

Azərbaycanın və Türkmənistanın dövlət himnləri səsləndirildi.

Dövlət başçıları fəxri qarovul dəstəsinin qarşısından keçdilər.



## Azərbaycan Prezidenti İqtisadi Əməkdaşlıq Təşkilatının XV Zirvə Toplantısında iştirak edib

*Əvvəli 1-ci səh.*

Təşkilatın üzv ölkələr arasında siyasi, iqtisadi və digər sahələrdə əlaqələrin möhkəmlənməsinə töhfə verəcəyini vurğuladı.

Türkiyə Prezidenti **Rəcəb Tayyib ƏRDOĞAN** çıxış edərək Zirvə toplantısına sədrliyin Türkiyədən Türkmənistana keçdiyini bildirdi, İƏT-ə üzv ölkələrin koronavirusla mübarizədə səylərinin birləşdirilməsinin vacibliyini vurğuladı, bu sahədə ölkəsində görülən işlərdən danışdı.

Prezident Rəcəb Tayyib Ərdoğan "Birlikdə gələcəyə" devizi ilə keçirilən Zirvə toplantısının ortaq hədəfləri müəyyənləşdirmək, ticarət həcmini artırmaq, iqtisadi əlaqələri fəallaşdırmaq üçün yaxşı fürsət olduğunu vurğuladı. Türkiyə Prezidenti dedi:

- Türkiyənin irəli sürdüyü Xəzərdən keçən "Şərq-Qərb" orta dəhliz təşəbbüsü və Bakı-Tbilisi-Qars dəmir yolu xətti bu kontekstdəki səylərimizin ən əyani təzahürüdür. Ölkəmizlə bölgəmiz arasında birbaşa avtomobil yolu bağlantısını quracaq Zəngəzur dəhlizinin də önəmi böyükdür.

Rəcəb Tayyib Ərdoğan çıxışında Azərbaycanın Vətən müharibəsindəki Qələbəsinin əhəmiyyətindən danışdı, bu Qələbənin bölgədə normallaşdırma səylərini gücləndirəcəyini vurğulayaraq dedi:

- Qardaşımızın Azərbaycanın işğal altındakı torpaqlarını azad etməsi bölgədə davamlı sülhün və sabitliyin təmin olunmasının da qapılarını açıb. Azərbaycanın bölgədə rifahın artması üçün ardıcıl həyata keçirdiyi layihələr təqdirəlayiqdir. Bu addımlar bölgədə normallaşdırma cəhdlərini dəstəkləyəcəkdir. Türkiyə olaraq bu prosesdə Azərbaycanın yanında olmaqda davam edəcəyik. Təşkilat olaraq da Azərbaycan ilə tam həmrəylik içərisində olmağımız böyük önəm daşıyır.

Sonra dövlətimizin başçısı Zirvə toplantısında çıxış etdi.

## Prezident İlham Əliyevin çıxışı

- Cənab sədr, əziz qardaşım Qurbanqulu Məlikquliyeviç.

Hörmətli dövlət və hökumət başçıları.

Cənab Baş katib.

Qardaşım, Türkmənistan Prezidenti Qurbanqulu Məlikquliyeviç Berdiməhəmmədova göstərilən qonaqpərvərliyə görə təşəkkürümü bildirmək və Türkmənistanı İqtisadi Əməkdaşlıq Təşkilatında (İƏT) uğurlu sədrlik münasibətilə təbrik etmək istərdim.

Fürsətdən istifadə edərək qardaş Özbəkistanı İƏT-də sədrliyi öz üzərinə götürməsi münasibətilə təbrik edir və təşkilata rəhbərlik işində uğurlar arzu edirəm.

Azərbaycan İƏT-in fəal üzvüdür. İƏT-ə üzv dövlətlərlə münasibətlərimiz dostluq və qarşılıqlı hörmətə əsaslanır. Biz həmçinin beynəlxalq platformalarda, o cümlədən İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində İƏT-ə üzv dövlətlərlə səmərəli əməkdaşlıq edirik.

İqtisadi Əməkdaşlıq Təşkilatının mart ayında keçirilmiş XIV Zirvə Toplantısında İƏT-in Tədqiqat Mərkəzinin Nizamnaməsi imzalanmışdır. Mən Azərbaycanın mərhum Prezidenti Heydər Əliyevin təşəbbüsünün üzv dövlətlər tərəfindən dəstəklənməsinə görə təşəkkürümü bildirirəm. Azərbaycan ölkəmizdə yerləşəcək mərkəzin səmərəli fəaliyyətinin təmin edilməsi üçün səylərini əsirgəməyəcək. Mən digər üzv dövlətləri bu mühüm təşəbbüsə qoşulmağa dəvət edirəm.

Son 18 il ərzində Azərbaycan iqtisadiyyatı sürətlə inkişaf etmiş, ümumi daxili məhsul üç dəfədən çox artmışdır.

Genişmiqyaslı islahatlar nəticəsində Azərbaycanda münbit sərmayə iqlimi yaradılmışdır. Dünya Bankının "Doing Business" hesabatında Azərbaycan 190 ölkə arasında 28-ci yerdə qərarlaşıb. Azərbaycan iqtisadiyyatına 280 milyard ABŞ dolları həcmində sərmayə yatırılıb ki, bunun da yarısı xarici sərmayədir.

Bizim strateji valyuta ehtiyatlarımız xarici dövlət borcumuzdan 6 dəfə çoxdur.

Azərbaycanın xarici borcu ölkənin ümumi daxili məhsulunun, sadəcə, 17,3 faizini təşkil edir. Biz 2030-cu ilin sonuna qədər bu rəqəmi 10 faizə endirməyi planlaşdırırıq.

Ötən 18 il ərzində Azərbaycanda yoxsulluq səviyyəsi 49 faizdən 6 faizə enib. Ölkədə işsizlik təqribən 6 faiz səviyyəsindədir.

Azərbaycanın nailiyyətləri beynəlxalq qurumlar tərəfindən yüksək qiymətləndirilir. Davos Dünya İqtisadi Forumunun hesabatına əsasən, Azərbaycan hökumətin uzunmüddətli strategiyası üzrə dünyada 10-cu yerdə, ölkə rəhbərliyinin islahatlara sadiqliyi sahəsində isə 5-ci yerdə qərarlaşıb. Yenə də Davos hesabatına əsasən, Azərbaycan əhalinin elektrik enerjisinə əlçatanlıq əmsalına görə dünyada 2-ci, dəmir yolu xidmətlərinin səmərəliliyinə görə 11-ci, hava nəqliyyatı xidmətlərinin səmərəliliyinə görə 12-ci, dəniz limanları xidmətlərinin səmərəliliyinə görə 25-ci və yol infrastrukturunun keyfiyyəti baxımından 27-ci yerdədir.

COVID-19-a gəlincə, Azərbaycan cari ilin yanvar ayının ortalarından peyvəndlənmə kampaniyasına başlamışdır. Ölkədə yetkin əhalinin 60 faizdən çoxuna iki doza peyvənd vurulmuşdur.

Bu günə qədər ölkədə COVID-dən əziyyət çəkmiş insanlara və biznes subyektlərinə təqribən 3 milyard ABŞ dolları həcmində sosial-iqtisadi dəstək paketi təqdim edilmişdir. 2022-ci ildə həmin məqsədlərə dövlət büdcəsindən 1,6 milyard ABŞ dolları həcmində maliyyə dəstəyi paketi ayrılacaqdır.

Azərbaycan pandemiya ilə mübarizə sahəsində qlobal səylərin səfərbər edilməsi üçün mühüm addımlar atır. Biz "peyvənd millətçiliyi"nin qəti şəkildə əleyhinə olduğumuzu daim vurğulayırıq.

Bu il Qoşulmama Hərəkatının sədri qismində Azərbaycanın təşəbbüsü ilə BMT-nin İnsan Hüquqları Şurası və BMT Baş Assambleyasında bütün ölkələr üçün peyvəndlərdən istifadə məqsədilə bərabər imkanların təmin olunmasına dair qətnamələr qəbul edilib.

Bundan əlavə, Azərbaycan koronavirusla mübarizəni dəstəkləmək məqsədilə 80-ə yaxın ölkəyə birbaşa və Ümumdünya Səhiyyə Təşkilatının xətti ilə maliyyə və humanitar yardımı etmişdir.

Hörmətli həmkarlar, 2020-ci ildə Azərbaycan ərazilərinin Ermənistan tərəfindən 30 ilə yaxın davam edən işğalına son qoydu. 44 günlük Vətən müharibəsi Ermənistanın məğlubiyyəti və 2020-ci il noyabrın 10-da kapitulyasiya aktını imzalamasına məcbur edilməsi ilə nəticələndi. Azərbaycan özü öz ərazi bütövlüyünü bərpa etdi. Azərbaycan özü BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamənin icrasını təmin etdi.

İşğal dövründə həmin ərazilərdə bütün şəhər və kəndlər, o cümlədən mədəni və dini irs abidələri Ermənistan tərəfindən yerləyeksan edilib. Bütün müsəlmanlara qarşı təhqir və nifrət zəminində Ermənistan bizim məscidləri dağıtmış və təhqir etmiş, o cümlədən onlardan donuz və inək tövləsi kimi istifadə etmişdir. İşğal dövründə həmin ərazilərdə 67 məsciddən 65-i tamamilə dağıdılmış, digər iki məscidə isə ciddi zərər dəymişdir. Qəbiristanlıqlar da vandalizmə məruz qalmışdır.

Ərazilərin azad olunmasından dərhal sonra biz genişmiqyaslı yenidənqurma işlərinə başlamışıq ki, artıq onların ilkin nəticələri var. Azərbaycan yalnız özünün maliyyə resurslarına arxalanaraq, sıfırdan yeni şəhər və kəndlər salır. Bu il bu məqsədlərə dövlət büdcəsindən 1,3 milyard ABŞ dolları ayrılmışdır. 2022-ci ildə də bu işlərə ən azı eyni həcmdə vəsait ayrılacaqdır.

Mən azad olunmuş Qarabağı və Şərqi Zəngəzuru yaşıl enerji zonası elan etmişəm. Azad olunmuş ərazilərin təsdiqlənmiş potensialı 7200 meqavat günəş və 2000 meqavat külək enerjisi təşkil edir.

İqtisadi Əməkdaşlıq Təşkilatının sonuncu Zirvə toplantısında mən həmkarlarıma Zəngəzur dəhlizi haqqında məlumat vermişdim. Bu gün deyə bilərəm ki, Zəngəzur dəhlizi reallığa çevrilir. Bu yeni nəqliyyat infrastrukturu "Şərq-Qərb" və "Şimal-Cənub" dəhlizlərinin önəmli hissəsinə çevriləcək. Əminəm ki, İƏT-ə üzv ölkələr bu dəhlizdən istifadə edəcəklər.

Diqqətinizə görə sağ olun.

* * *

Zirvə toplantısında çıxış edən **Pakistan Prezidenti Arif ALVİ** də Azərbaycanın Vətən müharibəsindəki Qələbəsi münasibətilə təbriklərini çatdıraraq dedi:

- Bu fürsətdən istifadə edib Azərbaycan torpaqlarının işğaldan azad edilməsi və ərazi bütövlüyünün bərpası münasibətilə Prezident Əliyevi bir daha təbrik etmək istərdim. Onun bu işə töhfəsini çox yüksək qiymətləndirirəm.

* * *

Daha sonra İqtisadi Əməkdaşlıq Təşkilatının baş katibi Xosrov Naziri, İran Prezidenti İbrahim Rəisi, Qırğız Respublikasının Prezidenti Sadır Japarov, Tacikistan Prezidenti Emoməli Rəhmon, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev və Qazaxıstanın Baş naziri Askar Mamin təşkilat çərçivəsində əməkdaşlığın genişləndirilməsinin, iqtisadi əlaqələrin daha da möhkəmləndirilməsinin vacibliyini vurğuladılar, yeni çağırışlar müstəvisində ortaya çıxan təhlükələrə qarşı birgə mübarizənin zərurətindən danışdılar.

# İƏT-ə üzv dövlətlərlə münasibətlərimiz dostluğa və qarşılıqlı hörmətə əsaslanır

## Azərbaycan Pakistanın tutduğu qəti və prinsipial mövqeyi yüksək qiymətləndirir



Noyabrın 28-də Aşqabadda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Pakistan İslam Respublikasının Prezidenti Arif Alvi ilə görüşü olub.

AZƏRTAC xəbər verir ki, görüşdə iki ölkə arasındakı əlaqələrdən məmnunluq ifadə olundu. Artıq keçmişdə qalmış Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü ilə əlaqədar Pakistanın tutduğu qəti və prinsipial mövqeyi xüsusi qeyd edildi.

Söhbət zamanı ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin inkişaf etdirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı, xüsusilə burada hökumətlərarası komissiyanın rolu vurğulandı. Yaxın zamanlarda komissiyanın növbəti iclasının keçiriləcəyi bildirildi. Həmçinin son dövrlərdə iki ölkə arasında həyata keçirilən yüksəksəviyyəli səfərlərin əhəmiyyəti qeyd olundu. Eyni zamanda ölkələrimiz arasında beynəlxalq təşkilatlar çərçivəsində birgə əməkdaşlıqla bağlı fikir mübadiləsi aparıldı. Dünyada artan islamofobiya meylləri ilə bağlı narahatlıq ifadə edildi.

Görüşdə ölkələrimiz arasında insanlararası təmasların artırılmasının və turizm, biznes dairələri, mədəniyyət, elm və digər sahələrdə əməkdaşlığın daha da möhkəmləndirilməsinin vacibliyi qeyd edildi.

Pakistan Prezidenti tərəfindən bu ölkədə həyata keçirilən layihələrə görə Heydər Əliyev Fonduna bir daha təşəkkür ifadə olundu.

## İqtisadi-ticari münasibətlər genişləndirilir



Noyabrın 28-də Aşqabadda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon ilə görüşü olub.

AZƏRTAC xəbər verir ki, görüşdə ölkələrimiz arasında siyasi əlaqələrin məmnunluq doğurduğu qeyd edilib. İqtisadi-ticari münasibətlərin genişləndirilməsi, nəqliyyat imkanlarının nəzərdən keçirilməsi, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın daha da möhkəmləndirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

## Azərbaycan-Türkiyə münasibətləri strateji müttəfiqlik xarakteri daşıyır



Noyabrın 28-də Aşqabadda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşü olub.

AZƏRTAC xəbər verir ki, görüşdə iki ölkə arasındakı dostluq və qardaşlıq münasibətlərinin strateji müttəfiqlik xarakteri daşıdığı bir daha qeyd edildi. Söhbət zamanı İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində aparılan müzakirələrə toxunuldu, ötən dövr ərzində Türkiyənin təşkilata sədrliyi yüksək qiymətləndirildi.

Eyni zamanda ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin daha da inkişaf etdirilməsi, həmçinin postmünaqişə dövründə Cənubi Qafqazda gedən proseslər və mövcud vəziyyət barədə ətraflı fikir mübadiləsi aparıldı.

Prezidentlər həmçinin enerji və nəqliyyat məsələlərini müzakirə etdilər.

# Azərbaycan İranla əlaqələrə çox böyük önəm verir

AZƏRTAC xəbər verir ki, noyabrın 28-də Aşqabadda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisi ilə görüşü olub.









**Prezident İlham ƏLİYEV:** Salaməleyküm.

**Prezident Seyid İbrahim RƏİSİ:** Salaməleyküm. Necəsiniz?

**Prezident İlham ƏLİYEV:** Sağ olun, çox yaxşıyam.

**Prezident Seyid İbrahim RƏİSİ:** Əhvalınız yaxşıdır, necəsiniz?

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun, yaxşıyam. Şadam Sizi görməyimə.

**Prezident Seyid İbrahim RƏİSİ:** Mən də Sizinlə İƏT dövlət başçılarının Sammitində görüşümdən çox xoşhalam. İƏT-ə üzv ölkələrin dövlət başçılarının sammiti bizim üçün çox yaxşı bir fürsət oldu ki, Sizinlə də görüş imkanı yarandı. Sizin rəsmi şəxslərin, həm Baş nazirin müavininin, həm də xarici işlər nazirinin İranın xarici işlər nazirinin müavini ilə çox yaxşı təmasları oldu, Baş nazirin müavininin Tehrana çox uğurlu səfəri baş tutdu. Mənə verilən məlumata görə, bu görüşlərdə çox müsbət müzakirələr aparılıb. Mən əminəm ki, belə əlaqələr, təmaslar, müzakirələr iki ölkənin münasibətlərinin inkişafına töhfələr verəcək. Ölkələrimiz arasında münasibətlərdə qarşıya çıxan məsələlər belə təmaslar və səfərlər çərçivəsində öz həllini tapa bilər.

Azərbaycan Respublikası ilə münasibətlərimiz təkcə qonşuluq münasibətləri deyildir, bizim ürəklərimizin münasibətidir, iki ölkənin xalqlarının ürəkləri bir döyünür. Bizim tarix və sivilizasiya birliyimiz vardır. Bütün bunlar bizi daha da möhkəm birləşdirir. Biz heç vaxt imkan verməməliyik ki, digərləri bizim münasibətlərimizə müdaxilə etsinlər. Biz öz məsələlərimizi özümüz həll etməliyik, münasibətlərimizi irəliyə aparmaq, qarşılıqlı faydalı əməkdaşlığı daha da dərinləşdirmək üçün birgə işləməliyik. İndiyə qədər olan təcrübə də bunu göstərir ki, biz həmişə öz məsələlərimizi özümüz müzakirə edəndə onların bir çoxunun həllinə nail olmuşuq və qarşıdakı maneələri dəf etmişik. Mən bunu Sizə dəqiqliklə və əminliklə söyləyirəm ki, Azərbaycan Respublikasının müstəqilliyini ilk tanıyan və dəstəkləyən ölkələrdən biri İran İslam Respublikası olub.

Qarabağ məsələsinə münasibətdə də İran İslam Respublikasının mövqeyi şəffaf və birmənalı idi. İranda İslam inqilabının ali rəhbərindən tutmuş, dövlət strukturlarındakı bütün məmurların hamısının mövqeyi bundan ibarət idi ki, Azərbaycan Respublikasının ərazi bütövlüyünə xələl gətirilməməlidir və Azərbaycan Respublikasının ərazi bütövlüyü təmin olunmalıdır. Biz əminik ki, Azərbaycan Respublikasının Baş nazirinin müavininin və Azərbaycan Respublikasının xarici işlər nazirinin iranlı həmkarları ilə apardıqları danışıqlar, müzakirələr ölkələrimizin münasibətlərini daha da dərinləşdirəcək, irəliyə aparacaq və əlaqələrimiz möhkəmlənəcək. Buyurun, biz Sizin xidmətinizdəyik.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun, hörmətli cənab Prezident, mən Sizi səmimiyyətlə salamlayıram. Çox şadam ki, görüş üçün belə gözəl fürsət yaranıb. Bu, bizim Sizinlə birinci görüşümüzdür. Əminəm ki, bu görüş İran-Azərbaycan əlaqələrinin inkişafına çox güclü təkan verəcəkdir.

**Prezident Seyid İbrahim RƏİSİ:** Mütləq elə olacaqdır.

**Prezident İlham ƏLİYEV:** İran İslam Respublikası ilə əlaqələrə biz çox böyük önəm veririk. Bizim xalqlarımız qardaş xalqlardır. Əsrlərboyu bir yerdə yaşamışıq. Qohumluq əlaqələri də kifayət qədər genişdir. Xalqlarımızı ortaq tarix, ortaq mədəniyyət birləşdirir. Bu, çox gözəl zəmindir. Biz bu zəmin üzərində ikitərəfli əlaqələrin müasir tarixini yazırıq.

* * *

Görüşdə ölkələrimiz arasında münasibətlərin yüksək səviyyədə olduğu qeyd edildi, mehriban qonşuluq və dostluq əlaqələrinin mövcudluğu bildirildi.

Söhbət zamanı Azərbaycan ilə İran arasında “Şimal-Cənub” nəqliyyat dəhlizi, həmçinin Zəngəzur nəqliyyat dəhlizi çərçivəsində əməkdaşlıq məsələləri müzakirə olundu. Zəngəzur dəhlizinin reallaşması nəticəsində İranın da bundan faydalanacağı və bu nəqliyyat qovşağından istifadə edə biləcəyi imkanları vurğulandı.

Görüşdə Azərbaycanın İkinci Qarabağ müharibəsində qazandığı tarixi Qələbədən sonra regionda geosiyasi vəziyyətin dəyişdiyi bildirildi, bölgə ölkələrinin regional məsələlərin həllində iştirakının vacibliyi diqqətə çatdırıldı.

Eyni zamanda ölkələrimiz, habelə Azərbaycan, Rusiya və İran arasında enerji qovşağının yaradılması məsələləri müzakirə edildi. Həmçinin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, iqtisadi-ticari əlaqələr ətrafında geniş fikir mübadiləsi aparıldı.

Söhbət zamanı İran-Azərbaycan əlaqələrinin tarixi xarakter daşıdığı və xalqlarımız arasında dostluq münasibətlərinin mövcud olduğu bir daha vurğulandı.

Sonda Azərbaycan və İran prezidentlərinin iştirakı ilə “İran İslam Respublikasının ərazisindən təbii qazın tranzit şərtlərini müəyyənləşdirən Saziş” imzalandı.

* * *

Sazişin imzalanmasından sonra dövlət başçıları İranın kütləvi informasiya vasitələrinə müsahibə verdilər.

**Prezident İlham ƏLİYEV:** Çox yaxşı söhbət etdik. Dost kimi, qardaş kimi İran-Azərbaycan əlaqələri haqqında fikir mübadiləsi apardıq. Qərara gəldik ki, bundan sonra İran-Azərbaycan əlaqələri bütün sahələrdə yüksələn xətlə inkişaf edəcək. Xalqlarımız qardaş xalqlardır, ölkələrimiz qardaş ölkələrdir və bu gün müzakirə olunan məsələlər bir daha onu göstərir ki, İran-Azərbaycan əlaqələri çox yüksək səviyyədədir.

**Müxbir:** Bir sənəd imzalandı, o barədə nə deyərdiniz?

**Prezident İlham ƏLİYEV:** Sənəd imzalandı, bunun da çox böyük əhəmiyyəti var. Bu, tarixi sənəddir. Bir daha İran-Azərbaycan əlaqələrinin nə qədər dərin olmasından xəbər verir. Azərbaycan Türkmənistan qazını İran üzərindən alacaq. Bu, üçtərəfli əməkdaşlıq üçün çox gözəl zəmindir və bizim niyyətimizi göstərir. İmzalanmış bu sənədin iqtisadi və enerji təhlükəsizliyi baxımından da çox böyük önəmi var. Sağ olun.

**Müxbir:** Cənab Prezident, yorulmayasınız. Bu gün müsəlman ölkəsi Azərbaycanla Sizin danışıqlarınız baş tutub. Danışıqlar barədə nə deyə bilərsiniz?

**Prezident Seyid İbrahim RƏİSİ:** Azərbaycanla münasibətlərimiz mədəni, mehriban və səmimidir, bizim əlaqələrimizin tarixi çox qədimdir. Bu əlaqələrdə heç bir anlaşılmazlığın olması gərək deyil. Bu gün Azərbaycan Respublikasının möhtərəm Prezidenti ilə yaxşı görüşümüz oldu və iki ölkə arasındakı maraq doğuran məsələlər müzakirə edildi. Bu gün Azərbaycan, İran və Türkmənistan arasında imzalanan qaz sazişi ölkələrimizin əlaqələrinin, iki və üç ölkə arasındakı münasibətlərin inkişafına xidmət edəcək. Bu sahədə ciddi və çoxsaylı addımların atılması zəruridir və iki ölkənin iradəsi sayəsində ölkələrimiz arasındakı əlaqələr, o cümlədən iqtisadiyyat, ticarət, tranzit, mədəni sahələrdə əməkdaşlıq iki ölkə arasındakı əlaqələrin genişlənməsinə yönəlməlidir. Əlaqələrimizin tarixi qədimdir, bundan sonra da genişlənməli və inkişaf etməlidir.

**Müxbir:** Təşəkkür edirəm.

# “Azərbaycan bütün bu məsələləri dəfələrlə irəli sürüb və Rusiya bunu həmişə dəstəkləyib”

Noyabrın 28-də Rusiyanın “Rossiya-1” telekanalında efirə gedən “Moskva.Kreml.Putin.” verilişində Rusiya Federasiyasında işgüzar səfərdə olarkən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevdən Soçi Hava Limanında bu veriliş üçün alınan müsahibə yayımlanıb.




AZƏRTAC müsahibəni təqdim edir.

**Prezident İlham ƏLİYEV:** Biz Azərbaycanda bunu çox müsbət qiymətləndiririk. Mən bunu bu gün görüşdə də demişəm. Rusiya Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşması üçün çox mühüm rol oynayır. Görüşün yekunlarına əsasən qəbul etdiyimiz nəqliyyat şəbəkələrinin açılması, delimitasiya üzrə komissiyanın işə hazırlaşması üçün atılan addımlar barədə Birgə Bəyanat buna dəlalət edir. Azərbaycan bütün bu məsələləri dəfələrlə irəli sürüb və Rusiya bunu həmişə dəstəkləyib. Buna görə bugünkü görüş də çox böyük əhəmiyyət kəsb edir.

# İqtisadi Əməkdaşlıq Təşkilatından İlham Əliyevə tam dəstək

## Beynəlxalq qurumun üzv dövlətləri Azərbaycan Prezidentinin Zəfərini böyük nailiyyət kimi qiymətləndirdilər, Qarabağ və Şərqi Zəngəzurun quruculuq işlərində birgə iştirakı bəyan etdilər




Əvvəli 1-ci səh.

1992-ci il noyabrın 28-də İƏT Nazirlər Şurasının İslamabadda keçirilən növbədənkənar iclası zamanı təşkilata üzv olan Azərbaycan 29 ildir bu qurumla fəal əməkdaşlıq edir. Belə ki, üzv dövlətlər arasında iqtisadi əməkdaşlığın gücləndirilməsi və regiondaxili ticarətin artırılması məqsədilə Azərbaycan tərəfindən 10 müxtəlif saziş, o cümlədən “İƏT üzv dövlətləri arasında Ticarət Əməkdaşlığına dair Çərçivə Saziş”i, “İƏT regionunda Tranzit Nəqliyyatı haqqında Saziş”, “İƏT regionunda investisiyaların təşviqi və qorunması haqqında Saziş” imzalanıb.

Azərbaycan 2006 və 2012-ci illərdə İƏT-in Zirvə toplantılarına evsahibliyi edib və bu tədbirlərdə qəbul olunmuş sənədlərdə üzv ölkələr arasında bir sıra sosial-iqtisadi, eləcə də siyasi əlaqələrin əsas prinsipləri, regional münasibətlərin prioritetləri və istiqamətləri öz əksini tapıb.

Təşkilatın əsas məqsədləri iqtisadi artıma nail olunması, üzv dövlətlərin davamlı iqtisadi inkişafının təmin edilməsi, regiondaxili ticarətin təşviqi, üzvlərin iqtisadiyyatının dünya iqtisadiyyatına tədricən inteqrasiyası, nəqliyyat və kommunikasiya sisteminin inkişaf etdirilməsi, iqtisadiyyatın liberallaşdırılması, İƏT regionunun maddi sərvətlərinin səmərəli istifadəsindən ibarətdir.

### Yeni reallıqlar əməkdaşlığın daha da genişləndirilməsini şərtləndirir

Noyabrın 28-də keçirilən Aşqabad toplantısı maraqlı məqamlarla yadda qaldı. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bildirdi ki, artıq ortaq hədəfləri müəyyənləşdirmək, ticarət həcmini artırmaq, iqtisadi əlaqələri fəallaşdırmaq üçün yaxşı fürsət yaranıb. Xəzərdən keçən “Şərq-Qərb” orta dəhlizini və Bakı-Tbilisi-Qars dəmir yolu xəttini bu kontekstdəki səylərin ən əyani təzahürü adlandıran Türkiyə Prezidenti Zəngəzur dəhlizinin də mühüm əhəmiyyətindən danışdı.

Azərbaycanın Vətən müharibəsindəki Qələbəsinin əhəmiyyətindən söz açan Rəcəb Tayyib Ərdoğan dedi ki, Azərbaycanın işğal altındakı torpaqlarını azad etməsi bölgədə davamlı sülhün və sabitliyin təmin olunmasının da qapılarını açıb. Azərbaycanın bölgədə əhalinin rifahının artırılması üçün ardıcıl həyata keçirdiyi layihələr təqdirəlayiqdir.

Azərbaycan Prezidenti isə bir daha bölgədə yaranan yeni reallıqların və birgə əməkdaşlığın daha da genişləndirilməsinin konturlarını göstərdi.

İlham Əliyev dedi ki, Azərbaycan İƏT-in fəal üzvüdür və quruma üzv olan dövlətlərlə münasibətlər dostluq, qarşılıqlı hörmətə əsaslanır. Azərbaycan həmçinin beynəlxalq platformalarda, o cümlədən İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində İƏT-ə üzv dövlətlərlə səmərəli əməkdaşlıq edir.

Prezident son 18 il ərzində Azərbaycan iqtisadiyyatının sürətli artım tempi, iqtisadiyyata yatırılan investisiyalar, strateji valyuta ehtiyatları, beynəlxalq qurumların bununla bağlı hazırladıqları hesabatlar bardə ətraflı məlumat verdi. Həmçinin qlobal pandemiya ilə mübarizədə Azərbaycanın gördüyü işlərdən danışdı, ortaya qoyduğu mövqeyi bir daha bəyan etdi.

Qalib Komandan 44 günlük Vətən müharibəsindəki şanlı Zəfəri dəyərləndirərək bildirdi ki, ərazilərin azad olunmasından dərhal sonra Azərbaycan genişmiqyaslı yenidənqurma işlərinə başlayıb. Artıq onların ilkin nəticələri var. Azərbaycan yalnız özünün maliyyə resurslarına arxalanaraq, sıfırdan yeni şəhər və kəndlər salır.

İlham Əliyev bir daha xatırlatma edərək İqtisadi Əməkdaşlıq Təşkilatının sonuncu Zirvə toplantısında həmkarlarına Zəngəzur dəhlizi haqqında verdiyi məlumatı diqqətə çatdırdı: “Bu gün deyə bilərəm ki, Zəngəzur dəhlizi reallığa çevrilir. Bu yeni nəqliyyat infrastrukturu “Şərq-Qərb” və “Şimal-Cənub” dəhlizlərinin önəmli hissəsinə çevriləcək. Əminəm ki, İƏT-ə üzv ölkələr bu dəhlizdən istifadə edəcəklər”.

Soçi görüşündən sonra İlham Əliyevin İƏT tribunasından da Zəngəzur dəhlizinin artıq reallığa çevrilməsini bəyan etməsi, yeni nəqliyyat infrastrukturunun “Şərq-Qərb” və “Şimal-Cənub” dəhlizlərinin önəmli hissəsinə çevriləcəyini və İƏT-ə üzv ölkələrin də bu dəhlizdən istifadə edəcəkləri təqdirdə böyük fayda götürəcəklərini təsdiqləyən gerçəklikdir. Çünki Azərbaycan son illər faktiki olaraq Avrasiyanın əsas və etibarlı nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilib. Zəngəzur dəhlizinin reallaşması isə regionun nəqliyyat sektorunda yeni imkanlar yaradacaq.

### KTMT-dən məğlub Ermənistana növbəti zərbə

Aşqabad Zirvə Görüşündə qəbul edilən yekun Bəyannamədə mühüm məqamlar öz əksini tapdı. Sənəddə təşkilata üzv dövlətlərin Azərbaycan xalqı və hökumətinə 30 illik işğala son qoyulması ilə bağlı ünvanlanan təbrik məktubu diqqət çəkdi.

Çünki Azərbaycana təbrik ünvanlayan ölkələrdən üçü Ermənistanın da təmsil olunduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) üzvüdür. Yəni KTMT üzvləri Azərbaycanın qələbəsini, ərazi bütövlüyünü dəstəkəyirlər. Bu da, əlbəttə ki, İlham Əliyevin qətiyyətli və uzaqgörən siyasətinə, diplomatik məharətinə verilən yüksək dəyər, Azərbaycan dövlətinin beynəlxalq hüququn norma və prinsiplərinə söykənən ədalətli mövqeyinin dəstəklənməsidir.

Aşqabad Bəyannaməsində yer alan ən önəmli məqamlardan biri də İƏT-ə üzv ölkələrə Azərbaycanın azad edilmiş ərazilərinin qurulması və yenidənqurma layihələrinə investisiya yatırmaq çağırışıdır. Bu çağırış eyni zamanda İƏT-lə yanaşı, KTMT üzvü olan ölkələrin də Azərbaycan ərazilərinin yenidən qurulması prosesində fəal iştirak edəcəklərini, həyata keçirilən və keçirilməsi nəzərdə tutulan layihələrə investisiya yatıracaqlarını ifadə edir.

### Türkmənistan qazının İran üzərindən Azərbaycana nəql edilməsi

Digər mühüm məqam isə Türkmənistan qazının İran üzərindən Azərbaycana nəql edilməsi ilə bağlı əldə edilən razılaşmadır.

Noyabrın 28-də İran, Azərbaycan və Türkmənistan arasında qaz mübadiləsinə dair üçtərəfli saziş imzalanıb.

Qaz nəqlinin ölçüləri isə kifayət qədər böyükdür - ildə 1,5-dən 2 milyard kubmetr. Fərq üçün göstərə bilərik ki, Azərbaycan bu il Avropaya təxmini ölçülərə görə 5-5,5 milyard kubmetr qaz nəql edəcək. Türkmənistan qazından isə Bakı, Tehran və Aşqabad, həmçinin Türkiyə ayrı-ayrılıqda öz səmərələrini götürəcəklər.

Əlbəttə ki, bütün bunlar İlham Əliyevin qətiyyətli və uzaqgörən siyasətinə, diplomatik məharətinə verilən yüksək dəyər və Azərbaycan dövlətinin beynəlxalq hüququn norma və prinsiplərinə söykənən ədalətli mövqeyinin dəstəklənməsidir.

İqtisadi Əməkdaşlıq Təşkilatı İlham Əliyevin həyata keçirdiyi bütün qlobal miqyaslı layihələrə tam dəstək verir. Beynəlxalq qurumun üzv dövlətləri Azərbaycan Prezidentinin Zəfərini böyük nailiyyət kimi qiymətləndirir, Qarabağ və Şərqi Zəngəzurun quruculuğunda birlikdə iştirakı bəyan edirlər.

***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***

# “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

“Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 9, maddə 684; 2011, № 2, maddə 70; 2014, № 1, maddə 3; 2015, № 11, maddə 1266; 2016, № 1, maddə 41, № 11, maddə 1766; 2017, № 2, maddə 145, № 5, maddə 691, № 7, maddələr 1277, 1300, № 12 (I kitab), maddə 2202; 2018, № 7 (I kitab), maddələr 1381, 1409, № 11, maddə 2208; 2019, № 5, maddə 798, № 7, maddə 1190, № 8, maddə 1382, № 11, maddə 1684, № 12, maddə 1881; 2020, № 5, maddə 508, № 6, maddələr 662, 669, № 7, maddələr 824, 830, № 11, maddələr 1329, 1335, № 12 (I kitab), maddə 1420; 2021, № 2, maddə 108, № 6 (I kitab), maddə 547) aşağıdakı dəyişikliklər edilsin:

1. 20.3-cü maddəyə aşağıdakı məzmunda ikinci və üçüncü cümlələr əlavə edilsin:

“Peşə təhsili müəssisələrində yüksək texniki peşə təhsili səviyyəsi üzrə tədris müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada kredit sistemi ilə təşkil olunur. Peşə təhsilini başa vuran məzunlara müvafiq qaydada təhsil haqqında dövlət sənədi - diplom və ya sertifikat verilir.”.

2. Aşağıdakı məzmunda 20.3-1-ci və 20.3-2-ci maddələr əlavə edilsin:

“20.3-1. Yüksək texniki peşə təhsili səviyyəsi üzrə peşə təhsili haqqında dövlət sənədi ali təhsil müəssisəsinə daxil olmaq hüququ yaradır və növbəti təhsil pilləsində ali təhsil almaq üçün əsas sayılır.

20.3-2. Yüksək texniki peşə təhsili səviyyəsi üzrə ixtisas proqramlarının müvafiq ixtisaslar üzrə ali təhsil proqramlarına uyğunluğu təmin edilir və bu təhsil səviyyəsini müvəffəqiyyətlə başa vuran məzunların - subbakalavrların topladıqları kreditlər bakalavriat səviyyəsinin uyğun ixtisaslarında ali təhsil müəssisələri tərəfindən nəzərə alınır.”.

3. 21.3-cü maddənin ikinci cümləsi üçüncü cümlə hesab olunsun və aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Orta ixtisas təhsili müəssisələrində tədris müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada kredit sistemi ilə təşkil olunur.”.

4. 21.5-ci maddədə “yüksək nəticələrlə” sözləri “müvəffəqiyyətlə” sözü ilə, “müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada uyğun ixtisaslar üzrə ali təhsil müəssisələrində” sözləri “bakalavriat səviyyəsinin uyğun ixtisaslarında ali təhsil müəssisələri tərəfindən” sözləri ilə əvəz edilsin.

5. Aşağıdakı məzmunda 22.6-1-ci maddə əlavə edilsin:

“22.6-1. Ali təhsil müəssisələrində bakalavriat (əsas (baza ali) tibb təhsili) və magistratura (rezidentura) təhsil səviyyələri üzrə tədris müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada kredit sistemi ilə təşkil olunur.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 noyabr 2021-ci il*

# “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 5 noyabr tarixli 398-VIQD nömrəli Qanununun tətbiqi və “Təhsil haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 5 noyabr tarixli 398-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. “Təhsil haqqında” Azərbaycan Respublikası Qanununun 20.3-cü və 21.3-cü maddələrinin ikinci cümlələrində, 22.6-1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 20.3-cü və 21.3-cü maddələrinin ikinci cümlələrində, 22.6-1-ci maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. “Təhsil haqqında” Azərbaycan Respublikası Qanununun 20.3-cü maddəsinin ikinci cümləsinə uyğun olaraq, peşə təhsili müəssisələrində yüksək texniki peşə təhsili səviyyəsi üzrə tədrisin kredit sistemi ilə təşkili qaydasını üç ay müddətində təsdiq etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 5 noyabr tarixli 398-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

3. “Təhsil haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 9, maddə 685; 2012, № 3, maddə 197, № 4, maddə 289, № 6, maddə 532; 2016, № 1, maddə 76, № 11, maddələr 1804, 1828, № 12, maddə 2086; 2017, № 7, maddə 1360, № 10, maddə 1800, № 12 (I kitab), maddə 2313; 2018, № 2, maddə 216, № 12 (I kitab), maddə 2545; 2019, № 5, maddə 848, № 7, maddə 1229, № 8, maddə 1398; 2020, № 5, maddə 549, № 7, maddə 868, № 11, maddə 1362, № 12 (I kitab), maddə 1469; 2021, № 6 (I kitab), maddə 571) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bənddə “21.2-1-ci maddəsinin ikinci cümləsində” sözləri “20.3-cü, 21.2-1-ci və 21.3-cü maddələrinin ikinci cümlələrində” sözləri ilə əvəz edilsin və həmin səbəndə “22.5-1-ci,” sözlərindən sonra “22.6-1-ci,” sözləri əlavə edilsin;

3.2. 2.2-ci bənddən “, 21.5-ci” sözləri çıxarılsın və həmin bənddə “21.2-1-ci maddəsinin ikinci cümləsində” sözləri “20.3-cü, 21.2-1-ci və 21.3-cü maddələrinin ikinci cümlələrində, 22.6-1-ci” sözləri ilə, “maddəsində, 26.1-1-ci” sözləri “, 26.1-1-ci” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 noyabr 2021-ci il*

# “Peşə təhsili haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

“Peşə təhsili haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1152; 2019, № 5, maddə 799, № 6, maddə 986, № 11, maddə 1685; 2020, № 5, maddələr 508, 514, № 7, maddələr 831, 851, № 11, maddələr 1323, 1335, № 12 (I kitab), maddə 1421; 2021, № 2, maddə 109, № 6 (I kitab), maddə 548, № 8, maddə 895) aşağıdakı dəyişikliklər edilsin:

1. 9.6.4-cü maddədə “təhsili almaq hüququ verilir.” sözləri “təhsili;” sözü ilə əvəz edilsin.

2. Aşağıdakı məzmunda 9.6.5-ci, 9.12-ci və 14.4-1-ci maddələr əlavə edilsin:

“9.6.5. yüksək texniki peşə təhsili ilə yanaşı, tam orta təhsil almaq hüququ verilir.”;

“9.12. Peşə təhsili müəssisələrində yüksək texniki peşə təhsili səviyyəsini müvəffəqiyyətlə başa vuran məzunların - subbakalavrların topladıqları kreditlərin bakalavriat səviyyəsinin uyğun ixtisaslarında ali təhsil müəssisələri tərəfindən nəzərə alınması “Təhsil haqqında” Azərbaycan Respublikası Qanununun 20.3-2-ci maddəsinə uyğun olaraq həyata keçirilir.”;

“14.4-1. Yüksək texniki peşə səviyyəsi üzrə peşə təhsili haqqında dövlət sənədi ali təhsil müəssisəsinə daxil olmaq hüququ yaradır və növbəti təhsil pilləsində ali təhsil almaq üçün əsas sayılır.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 noyabr 2021-ci il*

# “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

“Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 740; 2002, № 12, maddə 706; 2003, № 1, maddə 23, № 8, maddə 428, № 12 (I kitab), maddələr 676, 698; 2005, № 1, maddə 1, № 6, maddə 462, № 8, maddə 684, № 10, maddələr 873, 905, № 12, maddə 1083; 2006, № 3, maddələr 223, 225, № 6, maddə 481, № 12, maddələr 1015, 1029; 2007, № 2, maddə 80, № 12, maddə 1203; 2008, № 3, maddə 158, № 6, maddə 462, № 7, maddə 602, № 12, maddə 1047; 2009, № 1, maddə 5, № 2, maddə 56, № 3, maddə 160, № 7, maddə 519, № 12, maddə 947; 2010, № 4, maddə 276, № 6, maddə 485, № 10, maddə 840, № 11, maddə 939; 2011, № 1, maddə 12, № 4, maddələr 245, 264, № 11, maddə 985, № 12, maddə 1100; 2012, № 1, maddə 4, № 6, maddələr 508, 518, № 7, maddə 646, № 10, maddə 947, № 12, maddələr 1216, 1227, 1229; 2013, № 3, maddə 213, № 5, maddə 474, № 11, maddələr 1269, 1279, 1299, 1301, 1308, № 12, maddələr 1485, 1504; 2014, № 1, maddə 6, № 5, maddə 468, № 6, maddələr 603, 605, № 7, maddələr 774, 780, № 11, maddələr 1345, 1370; 2015, № 12, maddə 1432; 2016, № 1, maddələr 15, 36, № 4, maddə 630, № 5, maddə 849, № 6, maddə 1014, № 10, maddə 1605, № 11, maddələr 1753, 1776, 1780, 1790, № 12, maddələr 2006, 2051; 2017, № 3, maddələr 337, 341, № 5, maddə 742, № 6, maddə 1028, № 7, maddə 1308, № 8, maddə 1506, № 12 (I kitab), maddə 2265; 2018, № 3, maddə 405, № 4, maddələr 639, 647, № 6, maddələr 1186, 1194, № 7 (I kitab), maddələr 1415, 1444, № 8, maddə 1675, № 12 (I kitab), maddə 2489; 2019, № 1, maddə 45, № 4, maddələr 571, 596, № 5, maddə 797, № 7, maddələr 1176, 1181, 1190, 1192, № 8, maddələr 1360, 1363, 1371, № 11, maddələr 1681, 1694; 2020, № 5, maddələr 521, 524, № 6, maddə 665, № 7, maddələr 824, 828, 837, 851, 853, № 11, maddə 1327, № 12 (I kitab), maddə 1423; 2021, № 2, maddə 117, № 6 (I kitab), maddə 554, № 7, maddələr 711, 714, 718; Azərbaycan Respublikasının 2021-ci il 30 sentyabr tarixli 383-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1. 27.4-cü maddəyə birinci halda “çıxarışın” sözündən sonra “və daşınmaz əmlaka dair texniki sənədlərin (pasport və plan ölçü)” sözləri əlavə edilsin.

2. Aşağıdakı məzmunda 27.6-cı maddə əlavə edilsin:

“27.6. “Torpaq islahatı haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, ləğv edilmiş sovxoz və kolxozların özəlləşdirilən torpaqlarından pay almış, lakin bu torpaqlar üzərində mülkiyyət hüququ rəsmiləşdirilməmiş şəxslərin mülkiyyət hüquqlarının dövlət qeydiyyatına alınması barədə daşınmaz əmlakın dövlət reyestrindən çıxarışın və texniki sənədlərin (pasport və plan ölçü) verilməsinə görə dövlət rüsumu tutulmur.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 noyabr 2021-ci il*

# İ.F.İskəndərovun Rusiya Federasiyasının Yekaterinburq şəhərində Azərbaycan Respublikasının baş konsulu vəzifəsindən geri çağırılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

İlqar Fazil oğlu İskəndərov Rusiya Federasiyasının Yekaterinburq şəhərində Azərbaycan Respublikasının baş konsulu vəzifəsindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 noyabr 2021-ci il*

# Operativ Qərargahın genişləndirilmiş iclası keçirilib





Noyabrın 29-da Azərbaycan Respublikasının Baş naziri, COVID-19 pandemiyasına qarşı mübarizə üzrə Operativ Qərargahın rəhbəri Əli Əsədovun sədrliyi ilə Operativ Qərargahın genişləndirilmiş iclası keçirilib.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda pandemiya ilə bağlı hazırkı vəziyyət - yoluxmanın miqyası, xəstələrin müalicəsi, peyvəndlənmənin sürəti və miqyası, xüsusi karantin rejiminin tələblərinə əməl edilməsinə nəzarət üzrə monitorinqlərin nəticələrinə dair məsələlər müzakirə olunub. Qarşıdan gələn Yeni il şənlikləri zamanı xüsusi karantin rejiminin qaydalarına əməl edilməsinə nəzarətin gücləndirilməsinin məqsədəuyğun olduğu vurğulanıb.

İclasda, habelə omikron ştamı və ona qarşı profilaktik tədbirlər müzakirə olunub, müvafiq hazırlıq işlərinə dair tapşırıqlar verilib.

# *Tahir BUDAQOV:* "Zəngəzur dəhlizinin açılması qarşılıqlı faydalı əməkdaşlıq üçün daha geniş imkanlar formalaşdıracaq"

Xəbər verdiyimiz kimi, Qazaxıstanın paytaxtı Nur-Sultanda "Nur Otan" Partiyasının İctimai Siyasət İnstitutu tərəfindən təşkil edilən "Qazaxıstan siyasi-partiya sisteminin təkamülü: çağırışlar, nailiyyətlər və perspektivlər" Beynəlxalq Forumu keçirilir.





AZƏRTAC xəbər verir ki, Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyəti tədbirdə iştirak edir.

Forum iştirakçılarını salamlayan "Nur Otan" Partiyası sədrinin birinci müavini Baurıjan Baybek görüşün Qazaxıstanın müstəqilliyinin 30 illiyi ərəfəsində keçirildiyini vurğulayıb. O, Qazaxıstanın 30 illik inkişafının əsas nailiyyətləri sırasında sülh və təhlükəsizliyin təmin edilməsini, nüvə arsenalından imtina olunmasını, Semipalatin poliqonunun bağlanmasını, yeni paytaxtın tikintisini və qədim Türküstanın inkişafını, region dövlətləri ilə mehriban qonşuluq münasibətlərini və 15 min kilometr dövlət sərhədinin delimitasiyasını, bazar iqtisadiyyatına keçid üzrə əsaslı islahatları və milli fondun yaradılmasını, sosial və nəqliyyat infrastrukturuna irimiqyaslı investisiyaları, əhalinin sayının artmasını, eləcə də bir çox digər məsələləri qeyd edib.

Onun sözlərinə görə, bütün bunlar səmərəli fəaliyyət göstərən dövlət ictimai-siyasi institutları, inkişaf etmiş insan kapitalı, qazaxıstanlıların həyat səviyyəsinin yaxşılaşdırılması, həmçinin müstəqillik illərində dominant siyasi qüvvə olan çoxpartiyalı sistem - "Nur Otan" Partiyası sayəsində mümkün olub. 2019-cu ildən partiya-siyasi sistemin inkişafı dövlət başçısı Kasım-Jomart Tokayevin həyata keçirdiyi siyasət nəticəsində davam edir.

Hazırkı qlobal problemlərin bütün dövlətlərdən sıx qarşılıqlı fəaliyyət və koordinasiya tələb etdiyini, hakim partiyalar arasında əməkdaşlığın xüsusi əhəmiyyətini vurğulayan Baurıjan Baybek forumun yalnız partiyaların deyil, həm də dövlətlərin və xalqların dostluğunun, gələcək əməkdaşlığının möhkəmlənməsinə töhfəsini verəcəyinə əminliyini bildirib.

Qazaxıstan Prezidenti Administrasiyası rəhbərinin birinci müavini Dauren Abayev deyib ki, partiya sisteminin təkamülünün əsas mərhələlərindən biri bu yaxınlarda "Nur Otan" lideri Nursultan Nazarbayevin hakim partiyanın sədri səlahiyyətlərinin Prezident Kasım-Jomart Tokayevə verilməsi haqqında qərarı olub.

Plenar iclasda çıxış edən Yeni Azərbaycan Partiyası Sədrinin müavini Tahir Budaqov bildirib ki, forum siyasi partiyalar arasında münasibətlərin inkişafına, fikir mübadiləsinə və bu sahədə zəngin təcrübəyə mühüm töhfə verəcək.

Azərbaycan ilə Qazaxıstan arasında münasibətlərin müxtəlif sahələri əhatə etdiyini, dostluq, qardaşlıq və qarşılıqlı faydalı əməkdaşlıq prinsiplərinə əsaslandığını, Ümummilli Lider Heydər Əliyevin və elbası Nursultan Nazarbayevin Azərbaycan-Qazaxıstan münasibətlərində etimadın qurulmasına və inkişaf etdirilməsinə, Yeni Azərbaycan Partiyası ilə "Nur Otan" Partiyası arasında səmərəli və qarşılıqlı faydalı münasibətlərin yaradılmasına böyük töhfə verdiklərini vurğulayan T.Budaqov bu gün də Azərbaycan və Qazaxıstan prezidentləri İlham Əliyevin və Kasım-Jomart Tokayevin şəxsi dostluq əlaqələrinin, məqsədyönlü siyasətinin ölkələrimiz arasında dostluq, qardaşlıq və tərəfdaşlıq münasibətlərinin uğurlu inkişafını təmin edən aparıcı amil olduğunu bildirib.

"Ölkələrimiz arasında istər ikitərəfli, istərsə də çoxvektorlu münasibətlər yüksək dinamikaya malikdir, onların inkişafı davamlı xarakter daşıyır və imzalanmış ikitərəfli sənədlər əlaqələrimizin keyfiyyətcə yeni səviyyəyə yüksəldilməsi üçün əlverişli siyasi-hüquqi zəmin yaradıb. 2021-ci il noyabrın 12-də İstanbul şəhərində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşündə səsləndirilən fikirlər dost və qardaş ölkələr, o cümlədən Azərbaycan ilə Qazaxıstan arasında münasibətlərin yüksək səviyyədə olduğunu göstərdi və dövlətlərimizin qarşısında yeni perspektivlər açdı", - deyə YAP Sədrinin müavini qeyd edib.

O deyib ki, bununla yanaşı, Azərbaycanın Vətən müharibəsində tarixi Qələbəsi həm Cənubi Qafqaz regionunda, həm də bütövlükdə Avrasiyada yeni geostrateji reallıqların formalaşmasına gətirib çıxarıb. Yeni yaradılmış əməkdaşlıq platforması nəinki regionun xalqları və dövlətlərinə, həm də bir çox ölkələrə, o cümlədən regional və beynəlxalq güc mərkəzlərinə, həmçinin dost Azərbaycana tərəfdaş olan ölkələrə mühüm dividendlər vəd edir.

YAP Sədrinin müavini bildirib ki, Zəngəzur dəhlizinin açılması, nəqliyyat-kommunikasiya əlaqələrinin bərpası qarşılıqlı faydalı əməkdaşlıq üçün daha geniş imkanların formalaşmasına imkan verəcək. Şübhəsiz ki, bu, əhəmiyyətli iqtisadi potensiala və tranzit imkanlarına malik Qazaxıstan üçün də faydalı, səmərəli və əhəmiyyətli olacaq.

Azərbaycan-Qazaxıstan münasibətlərinin inkişafından bəhs edən Tahir Budaqov hər iki ölkənin hakim partiyaları - Yeni Azərbaycan Partiyası ilə "Nur Otan" Partiyası arasında müntəzəm təmasların çox mühüm rol oynadığını vurğulayıb.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin ideyaları və dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə inkişaf edən Yeni Azərbaycan Partiyasının fəaliyyətinin bəzi aspektləri barədə məlumat verən Tahir Budaqov YAP ilə birləşmək istəyən 6 siyasi partiyanın müraciətinin müsbət cavablandırılmasının, partiyanın strukturunda ilk dəfə Veteranlar Şurası yaradılmasının Yeni Azərbaycan Partiyasının fəaliyyətində dinamizmə gətirib çıxaracağını diqqətə çatdırıb.

Bu gün partiya üzvlərinin böyük hissəsini gənclərin təşkil etdiyini və yeni üzvlərin mütləq əksəriyyətinin gənclər olduğunu vurğulayan T.Budaqov Yeni Azərbaycan Partiyasının gənclər üçün imkanların yaradılmasına, onlarda milli şüurun inkişafına və vətənpərvərlik ruhunun yüksəldilməsinə həmişə xüsusi diqqət yetirdiyini, bu prosesin bu gün də davam etdirildiyini deyib. Bildirib ki, Yeni Azərbaycan Partiyası Azərbaycanın inzibati-coğrafi sərhədlərindən kənarda çox mühüm missiya yerinə yetirir - beynəlxalq münasibətləri formalaşdıraraq inkişaf etdirir.

Diqqətə çatdırılıb ki, regionun ən böyük siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasının digər ölkələrin siyasi partiyaları və partiya təşkilatları ilə səmərəli münasibətləri ölkəmizin beynəlxalq əlaqələrinin daha da möhkəmlənməsinə mühüm töhfədir.

Sonda Tahir Budaqov bildirib: "Beynəlxalq forum partiyalarımız arasında münasibətlərin inkişafı üçün mühüm platforma olacaq. Forumun işinə və onun bütün iştirakçılarına bir daha uğurlar arzulayıram. Fürsətdən istifadə edərək Sizi qarşıdan gələn Birinci Prezident Günü və ölkənin müstəqilliyinin 30 illiyi münasibətilə təbrik edir, dost Qazaxıstan xalqına sülh, əmin-amanlıq və firavanlıq arzulayıram".

Digər çıxış edənlər Qazaxıstanın partiya-siyasi sisteminin formalaşmasında "Nur Otan" Partiyasının rolunu qiymətləndirib, demokratiya və ümumi dəyərlərin inkişafında irəliləyişlə bağlı təəssüratlarını bölüşüblər.

Forum işini noyabrın 30-da davam etdirəcək.

# Yeni Azərbaycan Partiyası ilə "Nur Otan" Partiyası arasında əməkdaşlığın möhkəmləndirilməsi məsələləri müzakirə olunub



Qazaxıstanın "Nur Otan" Partiyası sədrinin birinci müavini Baurıjan Baybek "Qazaxıstanın partiya-siyasi sisteminin təkamülü: çağırışlar, nailiyyətlər və perspektivlər" Beynəlxalq Forumu ərəfəsində Azərbaycan və Avropa siyasi təşkilatlarının nümayəndələri ilə bir sıra görüşlər keçirib.

AZƏRTAC xəbər verir ki, Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovla görüşdə partiyalararası əməkdaşlığın daha da möhkəmləndirilməsi məsələləri müzakirə olunub.

Görüş zamanı tərəflər qeyd ediblər ki, Qazaxıstanın Birinci Prezidenti - elbası, "Nur Otan" Partiyasının sədri Nursultan Nazarbayev və Azərbaycanın sabiq Prezidenti, Yeni Azərbaycan Partiyasının qurucusu Heydər Əliyev hələ müstəqillik əldə etməzdən əvvəl iki qardaş ölkənin keyfiyyətcə yeni əlaqələrinin təməlini qoyublar. Məhz onların sayəsində artıq suveren Qazaxıstan ilə Azərbaycan arasında möhkəm qarşılıqlı münasibətlər yaranıb.

Qeyd etmək lazımdır ki, bu gün Qazaxıstanda 100 mindən çox etnik azərbaycanlı yaşayır. Onların arasında uğur qazanmış və tanınmış soydaşlarımız da az deyil. Məsələn, "Memlekettiktilqekyrmet" İctimai Birliyinin sədri, alim və ictimai xadim Əsli Osman, Olimpiya çempionu, ağır atletika üzrə dünya çempionu Nicat Rəhimov və sair.

Həmin gün Baurıjan Baybekov Avropa Şurası Parlament Assambleyasında (AŞ PA) Avropa mühafizəkarlarının katibi Tom Van Dayk, Böyük Britaniya Mühafizəkar Partiyasının nümayəndəsi, Lordlar Palatasının üzvü Ceyms Uorton və beynəlxalq siyasi məsləhətçilər Assosiasiyasının Direktorlar Şurasının üzvü Riçard Merfi ilə də görüşüb.

Görüşdə "Nur Otan" Partiyasının İctimai Siyasət İnstitutu tərəfindən təşkil edilən partiya-siyasi sistemlərin, müasir elektoral trendlərin aktual inkişaf məsələləri, həmçinin qarşıdan gələn "Qazaxıstanın siyasi-partiya sisteminin təkamülü: çağırışlar, nailiyyətlər və perspektivlər" Beynəlxalq Forumunun gündəliyi müzakirə olunub.

Qeyd edək ki, iki gün davam edəcək forumda Rusiya, Çin, ABŞ, Türkiyə, Böyük Britaniya, Belçika və digər ölkələrin xarici və yerli ekspertləri, siyasi partiyaların, beynəlxalq təşkilatların və diplomatik korpusun nümayəndələri iştirak edəcəklər.

# Bərdə-Ağdam avtomobil yolunun tikintisi davam etdirilir









Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan yol infrastrukturu layihələrindən biri olan Bərdə-Ağdam avtomobil yolunun tikintisi sürətlə davam etdirilir.

AZƏRTAC xəbər verir ki, başlanğıcını Bərdə şəhərindən götürən Bərdə-Ağdam avtomobil yolunun uzunluğu 45 kilometr təşkil edəcək. Dövlət başçısının tapşırığına əsasən, Bərdə-Ağdam avtomobil yolu Qarabağın inkişaf planı nəzərə alınmaqla 4 hərəkət zolaqlı olmaqla I texniki dərəcəyə uyğun olaraq inşa edilir.

Hazırda Bərdə-Ağdam avtomobil yolunun 6-45-ci kilometrlik hissəsində torpaq işlərinin icrası davam etdirilir. Belə ki, xüsusi texnikalardan istifadə olunmaqla yararsız qrunt qazılaraq çıxarılır, genişləndirmə işləri aparılmaqla 26,5 metr enində yeni yol yatağının inşası istiqamətində addımlar atılır. Yol yatağı hazır olan hissələrdə yol əsasının tikintisi işləri aparılır.

İş həcmi və layihənin qısa müddət ərzində yekunlaşdırılması tapşırığı nəzərə alınaraq tikintini Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin "54 N-li Yol İstismarı" MMC ilə subpodratçı şirkət olaraq "Körpü-Bina-Tikinti" MMC birgə icra edir.

Yeni inşa edilən yol boyunca layihəyə uyğun suların ötürülməsini təmin etmək məqsədilə 79 dairəvi suötürücü boru, 5 düzbucaqlı su keçidi, həmçinin zəruri olan yerlərdə 5 yeraltı keçidin tikintisi də davam etdirilir. Yol üzərində 2 yeni avtomobil körpüsünün və 1 yol ötürücünün tikintisi isə yekunlaşmaq üzrədir.

Belə ki, Bərdə-Ağdam avtomobil yolunun 25 və 40-cı kilometrlik hissəsində yerləşən 18.2 metr uzunluğa malik 1 aşırımlı körpü və 32,2 metrlik yol ötürücü üçün svay qazma işləri və dayaqların inşası aparılıb. Uzunluğu 91,3 metr təşkil edən körpünün hazır olan dayaqları üzərinə isə aşırım tirləri quraşdırılıb.

I texniki dərəcəli avtomobil yolu boyunca hərəkətin təhlükəsizliyini təmin etmək məqsədilə 8 nöqtədə geriyə dönmə hissələrinin yaradılması, 24 yerdə isə avtobus dayanacaqlarının inşası da həyata keçiriləcək.

Yolun tikintisinin qısa müddət ərzində icra edilməsini təmin etmək məqsədilə ərazidə yeni düşərgə inşa edilib. Düşərgədə asfalt-beton zavodu, maşın-mexanizmlərin saxlanılması və xidməti üçün xüsusi ərazi, həmçinin işçilər üçün hər bir şəraiti olan ofis, yeməkxana və dincəlmək üçün yerlər qurulub.

Qeyd edək ki, Bərdə-Ağdam avtomobil yolu işğaldan azad edilmiş Ağdam şəhərinə qədər inşa edilir. Avtomobil yolunun ilk 14 kilometrlik hissəsi Bərdə şəhəri və rayonun bir neçə yaşayış məntəqəsinin daxilindən keçir. Ümumilikdə isə yol Bərdə və Ağdam şəhərləri də daxil olmaqla sözügedən rayonların 20-dən çox yaşayış məntəqəsini əhatə edəcək.

Bütün yollar Qarabağa aparır...

# Minaatan və artilleriya bölmələrinin döyüş atışlı taktiki təlimləri keçirilib

Bu ilin döyüş hazırlığı planına uyğun olaraq Azərbaycan Ordusunda minaatan və artilleriya bölmələri ilə döyüş atışlı taktiki təlimlər keçirilib.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, hərbi hissələrin çöl çıxışları dövründə keçirilən döyüş atışlı taktiki təlimlərdə bölmələrin komanda müşahidə məntəqəsinin açılması və atəş mövqeyini tutması tapşırıqları icra olunub.

Vətən müharibəsində əldə olunan təcrübələr nəzərə alınaraq keçirilən döyüş atışlı taktiki təlimlərdə əsas məqsəd atəş vasitələrindən düzgün istifadə etməklə tapşırıqların vaxtında və dəqiq icra olunması üçün şəxsi heyətin praktiki vərdişlərinin artırılması, eləcə də komandir heyətinin bölmələri idarəetmə bacarıqlarının təkmilləşdirilməsidir.

Minaatan və artilleriya vasitələri tələb olunan vaxt çərçivəsində atəş vəziyyətinə gətirilib, planlı və plandankənar hədəflərə döyüş atışları yerinə yetirilib.

Qarşıya qoyulan tapşırıqlar müvəffəqiyyətlə icra olunub.

# *Sahibə QAFAROVA:* "Prezident İlham Əliyevin irəli sürdüyü qlobal təşəbbüslər beynəlxalq aləmdə rəğbət və dəstək qazanıb"

Noyabrın 28-də İspaniyanın paytaxtı Madrid şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsünə uyğun olaraq Qoşulmama Hərəkatının Parlamentlər Şəbəkəsinin təsis iclası keçirilib.







Əlliyə yaxın ölkədən 200-dək nümayəndənin iştirak etdiyi təsis iclasını Azərbaycan Milli Məclisinin Sədri Sahibə Qafarova açıb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, açılış çıxışında iclas iştirakçılarını salamlayan Sahibə Qafarova deyib: "Biz bu gün 60 il ərzində araşdırılmamış qalan bir ölçünün - üzv ölkələr arasında əməkdaşlığın parlament ölçüsünün əsasını qoyuruq. Altmış il əvvəl bu forumu yaradan Qoşulmama Hərəkatının təsisçilərinin məqsədi Bandunq prinsiplərinə tam uyğun olaraq, bütün xalqların dinc yanaşı yaşamasına və davamlı inkişafına töhfə vermək idi. Onların uzaqgörənliyi və məqsədyönlülüyü beynəlxalq ictimaiyyətin həmfikir üzvlərinin birləşməsinə və üzv dövlətlərin sayına görə dünyada ikinci ən böyük beynəlxalq təsisatın yaranmasına səbəb olub".

Milli Məclisin Sədri qeyd edib ki, hazırda bəşəriyyət son dərəcə çətin günlərdən keçir. Ayrı-seçkiliyin, irqçiliyin və ksenofobiyanın, beynəlxalq hüquqa etinasızlıqla müşayiət olunan siyasi gərginlik və böhranların artması, hələ də davam edən COVID-19 pandemiyası və onun sosial-iqtisadi mühitə mənfi təsirləri, iqlim dəyişikliyi və digər qlobal miqyaslı çağırışlar bütün dünyada səylərin multikulturalizm, beynəlxalq əməkdaşlıq və həmrəylik ruhunda səfərbər olunmasını zəruri edir.

İclasda Sahibə Qafarova COVID-19 pandemiyasına qarşı mübarizə sahəsində Qoşulmama Hərəkatı adından qurumun sədri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin irəli sürdüyü uğurlu qlobal təşəbbüsləri xatırladıb, həmin təşəbbüslərin beynəlxalq aləmdə rəğbət və dəstək qazandığını qeyd edib.

Bildirilib ki, COVID-19 böhranı ilə əlaqədar Qoşulmama Hərəkatı Təmas Qrupunun Zirvə Toplantısının təşkili, pandemiya ilə mübarizədə təşkilata üzv ölkələrin əsas humanitar və tibbi ehtiyaclarına dair vahid məlumat bazasının yaradılması, koronavirusla bağlı vəziyyətin müzakirəsi üçün BMT Baş Assambleyasının Xüsusi Sessiyasının çağırılması, həmçinin BMT-nin İnsan Hüquqları Şurası tərəfindən bütün ölkələr üçün COVID-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi haqqında qətnamənin qəbul edilməsi görülən tədbirlərdən yalnız bir neçə nümunədir. Sahibə Qafarova qeyd edib ki, cari il noyabrın 17-də Qoşulmama Hərəkatının təşəbbüsü ilə BMT Baş Assambleyasının üçüncü komitəsi səs çoxluğu ilə COVID-19-a qarşı vaksinlərin ədalətsiz paylanmasına dair qətnaməni qəbul edib.

S.Qafarova vurğulayıb ki, COVID-19 pandemiyasının nəticələri üzləşdiyimiz çağırışların çox sürətlə və dəfələrlə arta bildiyini bir daha nümayiş etdirdi. Qarşılaşdığımız vəziyyət ölkələrimizin icra və qanunvericilik hakimiyyəti qolları arasında həmrəylik və əməkdaşlıq ruhunu qorumağın vacibliyini önə çıxarıb. Parlamentlər COVID-19 pandemiyası yayılandan etibarən onun əhaliyə mənfi təsirlərini aradan qaldırmaq üçün qanunlar qəbul ediblər, beləliklə də hökumətin müvafiq cavab tədbirləri görə bilməsi təmin olunub.




Milli Məclisin Sədri hazırkı taleyüklü beynəlxalq vəziyyətdə Qoşulmama Hərəkatına üzv dövlətlərin parlamentarilərinin öz ölkələrindəki icra hakimiyyətlərinin səylərinə beynəlxalq səviyyədə töhfə vermələrinin vacibliyini qeyd edib. O, Qoşulmama Hərəkatının prinsip və dəyərlərini möhkəmləndirməyin və təşviq etməyin zəruriliyini vurğulayıb. Sahibə Qafarova tədbir iştirakçılarının diqqətinə çatdırıb ki, təşkilatın 2019-cu il oktyabrın 25-26-da Bakıda keçirilmiş Zirvə görüşündə dövlət və hökumət başçıları Qoşulmama Hərəkatına üzv dövlətlərin parlamentariləri ilə qarşılıqlı fəaliyyəti və əməkdaşlığı genişləndirmək və dərinləşdirmək barədə qərar qəbul ediblər. Azərbaycan bu anlayışlara əsaslanan sədrliyi dövründə hərəkatın fundamental prinsiplərinə tam və səmərəli riayət olunmasında parlamentarilərin mühüm rol oynaya biləcəyini qəbul edərək Qoşulmama Hərəkatının Parlamentlər Şəbəkəsinin yaradılması təşəbbüsü ilə çıxış edib.

Azərbaycan parlamentinin rəhbəri bildirib ki, bu gün təsis olunan Parlamentlər Şəbəkəsi Qoşulmama Hərəkatının ideya və prinsipləri barədə məlumatların qurumun üzv dövlətləri və xalqları arasında yayılmasına və təbliğinə töhfə verəcək. Bununla yanaşı, təşkilat üzv dövlətlərin parlamentləri arasında əməkdaşlıq platforması rolunu oynaya bilər. Parlamentlər Şəbəkəsi sülh, təhlükəsizlik, insan hüquqları və inkişafla bağlı parlament təcrübəsinin mübadiləsinə də imkan yaradacaq, qurumun böyük tədbirlərində bəyannamə sənədlərinə uyğun olaraq Qoşulmama Hərəkatına üzv dövlətlərin vəzifə və öhdəliklərinin gerçəkləşdirilməsinə parlament dəstəyi verəcək. Bu təsisat hamımızı narahat edən məsələlərin həllinə parlament töhfəsini verməkdə forum rolunu oynayacaq. Çoxtərəfliliyin yayılması üçün Parlamentlər Şəbəkəsi əlavə hərəkətverici qüvvə olacaq. Tədbirdə Sahibə Qafarova vurğulayıb ki, bu şəbəkə qeyd olunan dəyərlərə və missiyalara xidmət etməklə yanaşı, digər beynəlxalq parlament strukturları ilə, o cümlədən Parlamentlərarası İttifaqla davamlı əlaqələr yaradacaq. Qeyd olunub ki, Parlamentlər Şəbəkəsinin növbəti tədbiri gələn il Bakıda keçiriləcək.

Çıxışının yekununda Sahibə Qafarova Qoşulmama Hərəkatının Parlamentlər Şəbəkəsinin prosedur sənədləri və iş üsulları haqqında məlumat verib, iclasın işinə uğurlar arzulayıb.

Sonra təsis iclası Milli Məclisin Sədri Sahibə Qafarovanın moderatorluğu ilə davam edib.

İclasda çıxış edən Parlamentlərarası İttifaqın sədri Duarte Poçeko deyib: "Biz təcrübələrimizi bölüşməli, ikitərəfli əlaqələrimizi daha da genişləndirməliyik. Qlobal problemləri birlikdə dəyərləndirməli və onların həlli yollarını birlikdə tapmalıyıq. Bu baxımdan Qoşulmama Hərəkatının Parlamentlər Şəbəkəsinin yaradılması əlavə bir imkandır. Bu, dialoq, əməkdaşlıq, demokratiyanın gücləndirilməsi üçün yeni platformadır".

Parlamentlərarası İttifaqın Baş katibi Martin Çunkonq isə çıxışında deyib ki, Parlamentlər Şəbəkəsi bəşəriyyətdə sülhün və sabitliyin bərqərar olmasına töhfəsini verəcək. Xüsusilə bütün dünyanın COVID-19 pandemiyası ilə üz-üzə qaldığı bir vaxtda qanunverici orqanlar arasında dialoqun intensivləşdirilməsinə, parlament diplomatiyasının gücündən istifadə edərək ortaq qərarlar qəbul olunmasına xüsusi ehtiyac var. Bu baxımdan o, Parlamentlər Şəbəkəsinin yaradılmasının əhəmiyyətini xüsusi qeyd edib.

Türkiyə Böyük Millət Məclisinin (TBMM) Sədri Mustafa Şentop çıxış edərək artıq 60 ildir mövcud olan və üzvlərinin sayı 120-yə çatan Qoşulmama Hərəkatının beynəlxalq ədalətin, sülhün təmin edilməsi baxımından çox böyük potensiala malik olduğunu vurğulayıb. TBMM-in Sədri Azərbaycanın sədrliyi dövründə Qoşulmama Hərəkatının prinsiplərinin təbliği istiqamətində atılan addımların təşkilatı daha da gücləndirəcəyinə inandığını vurğulayıb. Mustafa Şentop davam etməkdə olan COVID-19 pandemiyasının dünyada hökm sürən ədalətsizlikləri bir daha gözlər önünə sərdiyini bildirib və yeni təsis olunan Parlamentlər Şəbəkəsinin əməkdaşlığı daha da dərinləşdirəcəyinə inandığını söyləyib.

Pakistan Milli Assambleyasının sədri Əsəd Qeysər hazırda bütün dünya, o cümlədən demokratik dəyərlərin bir sıra təhdidlərlə üz-üzə qaldığını, bu qlobal problemlərin həlli üçün parlamentlərarası dialoqun genişləndirilməsinin xüsusi əhəmiyyətə malik olduğunu qeyd edib. Deyib ki, Qoşulmama Hərəkatının yeni təsis edilən Parlamentlər Şəbəkəsi bəşəriyyəti təhdid edən çağırışların həlli istiqamətində ən önəmli platformalardan biri olacaq.

Daha sonra İndoneziya Nümayəndələr Şurasının sədri Puan Maharani, Namibiya Milli Assambleyasının sədri Peter Katjavivi, Nepal Nümayəndələr Palatasının sədri Aqni Prasad Sapkota, Mərakeş Krallığı Parlamentinin sədri Enaam Mayara, İran parlamentinin vitse-spikeri Əli Nikzad, Yəmən Respublikasının vitse spikeri Məhəmməd Əli Əl-Şadadi, Misir Parlamentinin Xarici əlaqələr komitəsinin rəhbəri Kərim Abdelkərim Dərviş, Hindistan Parlamentinin üzvü Sanjay Jaisval, Rusiya Federasiya Şurasının sədr müavini Konstantin Kosaçev, TÜRKPA-nın Baş katibi Mehmet Sureyya Er, Ərəb Parlamentinin sədri Adel bin Əbdülrəhman əl-Asumi, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasınını baş katibi Asəf Hacıyev və Kuba Milli Assambleyası Xarici Əlaqələr komitəsinin rəhbəri Yolanda Ferrer Qomez çıxış edərək Qoşulmama Hərəkatının Parlamentlər Şəbəkəsinin təsis olunmasının vacibliyini vurğulayıb, təşkilata uğurlar arzulayıblar.

İclasın sonunda Qoşulmama Hərəkatının Parlamentlər Şəbəkəsinin təsis edilməsinə dair Madrid Bəyannaməsi qəbul olunub.

## Milli Məclisin Sədri Sahibə Qafarova Pakistan Milli Assambleyasının sədri Əsəd Qeysərlə görüşüb

İspaniyada işgüzar səfərdə olan Milli Məclisin Sədri Sahibə Qafarova noyabrın 28-də Pakistan Milli Assambleyasının sədri Əsəd Qeysərlə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Sahibə Qafarova Pakistan parlamentinin rəhbərini səmimiyyətlə salamlayaraq ölkələrimiz arasında mövcud olan strateji tərəfdaşlığın böyük əhəmiyyət daşıdığını qeyd edib. Azərbaycan və Pakistanın dost və qardaş ölkələr olaraq hər zaman bir-birini dəstəklədiyini söyləyən Milli Məclisin Sədri yüksəksəviyyəli münasibətlərin qanunverici orqanlar arasında da əməkdaşlığın genişləndirilməsinə zəmin yaratdığını qeyd edib.

O, bu ilin yayında Pakistan Milli Assambleyasının sədri Əsəd Qeysərin ölkəmizə rəsmi səfərinin əlamətdar hadisələrlə müşayiət olunduğunu xatırladaraq səfər çərçivəsində Azərbaycan Milli Məclisi ilə Pakistan Milli Assambleyası arasında imzalanan Anlaşma Memorandumunun, həmçinin Azərbaycan, Türkiyə və Pakistan parlament sədrlərinin Birinci Üçtərəfli Görüşündə qəbul edilən Bakı Bəyannaməsinin tarixi əhəmiyyətə malik olduğunu, 3 qardaş ölkənin - Azərbaycan, Türkiyə və Pakistan parlament sədrlərinin ölkəmizin mədəniyyət paytaxtı olan Şuşaya və işğaldan azad olunmuş Füzuliyə səfərlərinin böyük rəmzi məna daşıdığını vurğulayıb.

Spiker Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin yaradılmasına dair Azərbaycanın təşəbbüsünü dəstəklədiklərinə görə Pakistan Milli Assambleyasının sədri Əsəd Qeysərə razılığını bildirib.

Görüşdə Əsəd Qeysər Azərbaycanla hərtərəfli əməkdaşlığın inkişafında maraqlı olduqlarını vurğulayıb. O qeyd edib ki, Pakistanın mövqeyi dəyişməzdir, ölkəsi hər zaman Azərbaycanın haqlı mövqeyini, suverenliyini və ərazi bütövlüyünü dəstəkləyib, bundan sonra da dəstəkləyəcək.

Pakistan Milli Assambleyasının sədri postmüharibə dövründə Azərbaycanın bölgədə əmin-amanlığın yaranması istiqamətində mühüm addımlar atdığını, eyni zamanda, işğaldan azad olunmuş ərazilərində irimiqyaslı bərpa və quruculuq işləri apardığını təqdir etdiklərini bildirib. O, Şuşaya və Füzuliyə səfər zamanı gördüklərindən çox təsirləndiyini qeyd edib.

Əsəd Qeysər ölkələrimiz arasında əlaqələrin hazırkı səviyyəsinin məmnunluq doğurduğunu, hərtərəfli əməkdaşlığın perspektivdə genişləndirilməsi üçün böyük potensial olduğunu diqqətə çatdırıb, parlamentlərarası əlaqələrimizin yüksələn xətlə inkişaf etdiyini bildirib.

Söhbət zamanı ikitərəfli münasibətlərin, parlamentlərarası əlaqələrin inkişaf perspektivləri barədə fikir mübadiləsi aparılıb, əlaqələrimizin dərinləşməsinin xalqlarımızın mənafeyinə xidmət edəcəyinə inam ifadə olunub.

## Ərəb Parlamenti Azərbaycan Milli Məclisi ilə əməkdaşlığa böyük önəm verir



Parlamentlərarası İttifaqın 143-cü Assambleyasında və assambleya çərçivəsində Qoşulmama Hərəkatının Parlamentlər Şəbəkəsinin təsis iclasında iştirak etmək üçün İspaniyanın paytaxtı Madrid şəhərində səfərdə olan Milli Məclisin Sədri Sahibə Qafarova noyabrın 28-də Ərəb Parlamentinin sədri Adel bin Əbdülrəhman əl-Asumi ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, ötən il Vətən müharibəsində əldə etdiyimiz Qələbə və Qoşulmama Hərəkatının Parlamentlər Şəbəkəsinin təsis olunması münasibətilə Milli Məclisin Sədrini təbrik edən Adel əl-Asumi rəhbərlik etdiyi təşkilatın Parlamentlər Şəbəkəsinə hər cür dəstəyi göstərəcəyini bildirib. Ərəb ölkələrinin Parlamentlər Şəbəkəsində təmsil olunacağını qeyd edən Ərəb Parlamentinin sədri Azərbaycan tərəfindən irəli sürülən bu təşəbbüsün çox vacib olduğunu diqqətə çatdırıb. O, Qoşulmama Hərəkatının Parlamentlər Şəbəkəsinin qlobal parlament institutuna çevriləcəyinə inamını ifadə edib.

Ərəb Parlamentinin Azərbaycan Milli Məclisi ilə əməkdaşlığa böyük önəm verdiyini bildirən sədr bu istiqamətdə atıla biləcək addımlardan danışıb.

Milli Məclisin Sədri Sahibə Qafarova Ərəb Parlamentinin sədrini salamlayaraq təbriklərə görə təşəkkürünü bildirib. Spiker Azərbaycan tərəfindən irəli sürülən bu təşəbbüsün əhəmiyyətini diqqətə çatdıraraq qeyd edib ki, ölkəmiz dünyada sülh və təhlükəsizliyin təmin olunması, qlobal problemlərə qarşı birgə mübarizə tədbirlərinin həyata keçirilməsi istiqamətində bir çox təşəbbüslər irəli sürüb. Dünyada qlobal iqtisadi problemlərin, pandemiyanın, ksenofobiyanın mövcud olduğu indiki dövrdə beynəlxalq əməkdaşlığa çox böyük ehtiyac var. Ona görə də Qoşulmama Hərəkatının Parlamentlər Şəbəkəsinin yaradılması çox vacibdir və bu platforma parlamentarilər arasında geniş əməkdaşlıq imkanları yaradacaq.

Görüşdə, həmçinin Azərbaycanın 44 günlük Vətən müharibəsində əldə etdiyi Qələbə və regionda yeni yaranmış vəziyyət haqqında qarşı tərəfə məlumat verən spiker Sahibə Qafarova bildirib ki, ölkəmiz ötən il beynəlxalq səviyyədə tanınmış ərazilərini Ermənistanın 30 il davam edən işğalından azad edərək öz ərazi bütövlüyünü bərpa edib. Hazırda Azərbaycan işğaldan azad olunmuş ərazilərimizdə genişmiqyaslı bərpa və quruculuq işləri həyata keçirir. Bu işlər bizim 1 milyon məcburi köçkünümüzün öz yurdlarına qayıtmasını təmin edəcək.

Sahibə Qafarova xatırladıb ki, ötən il noyabrın 10-da Azərbaycan, Ermənistan və Rusiya liderləri tərəfindən imzalanmış üçtərəfli bəyanat Ermənistan və Azərbaycan arasında münaqişəyə son qoyub. İndi suverenliyin və ərazi bütövlüyünün qarşılıqlı şəkildə tanınması prinsipi üzrə sülh sazişi üzərində işə və sərhədlərin delimitasiyası və demarkasiyası prosesinə başlamaq lazımdır. O, noyabrın 26-da Azərbaycan və Ermənistan liderlərinin görüşünün keçirildiyini və bu görüşün müsbət nəticələr verəcəyinə inamını ifadə edib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

# Xarici işlər naziri Ceyhun Bayramov iranlı həmkarı ilə görüşüb



Noyabrın 27-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov İƏT Xarici İşlər Nazirləri Şurasının Aşqabadda keçirilən iclası çərçivəsində İran İslam Respublikasının xarici işlər naziri Hüseyn Əmir Abdullahian ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazirlər cari il BMT Baş Assambleyasının 76-cı sessiyası çərçivəsində Nyu Yorkda baş tutan görüşləri, habelə çoxsaylı telefon danışıqları zamanı əldə olunan razılaşmaların icrası istiqamətində aparılan konstruktiv işləri alqışlayıblar.

Azərbaycan-İran iqtisadi, ticarət və humanitar sahələr üzrə Dövlət Komissiyasının həmsədrlərinin cari il noyabrın 21-də Tehranda keçirilən görüşündən məmnunluq ifadə edilib.

Nazirlər həmçinin bölgədəki cari vəziyyət, o cümlədən üç ölkə liderinin Soçi görüşü və 26 noyabr tarixində imzalanmış bəyanat, ümumilikdə üçtərəfli bəyanatların icrası məsələləri, eləcə də bölgədə 3+3 formatında əməkdaşlıq platformasının vacibliyi ilə bağlı fikir mübadiləsi aparıblar.

Tərəflər həmçinin digər mühüm regional məsələlər, o cümlədən Əfqanıstanda vəziyyət və onun ölkədaxili və ətraf bölgəyə təsiri, eyni zamanda, İranın nüvə proqramı və bu xüsusda Birgə Hərtərəfli Fəaliyyət Planı (JCPOA) üzrə Vyanada aparılan danışıqlar ətrafında fikir mübadiləsi aparıblar.

Görüşdə nazirlər iki ölkənin beynəlxalq təşkilatları çərçivəsində əməkdaşlığı və qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

# Azərbaycanın və Səudiyyə Ərəbistanının Xarici İşlər nazirlikləri arasında məsləhətləşmələr keçirilib

Noyabrın 29-da Əl-Riyad şəhərində Azərbaycan Respublikasının və Səudiyyə Ərəbistanı Krallığının Xarici İşlər nazirlikləri arasında məsləhətləşmələrin birinci raundu keçirilib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, məsləhətləşmələrdə Səudiyyə Ərəbistanı tərəfini xarici işlər nazirinin müavini Valid bin Əbdülkərim Əl-Xureyci, Azərbaycan tərəfini isə xarici işlər nazirinin müavini Fariz Rzayev təmsil ediblər.

Görüşdə iki ölkə arasında münasibətlərin hazırkı vəziyyəti, habelə ikitərəfli əlaqələrin siyasi, iqtisadi, humanitar və digər sahələrdə inkişafı yolları müzakirə olunub. Tərəflər həmçinin qarşılıqlı maraq doğuran regional və qlobal xarakterli məsələlərə dair fikir mübadiləsi aparıblar.

Azərbaycan tərəfi bölgədə münaqişəsonrası mövcud vəziyyət, o cümlədən azad olunmuş ərazilərdə bərpa, quruculuq, reinteqrasiya işləri barədə məlumat təqdim edib.

# Beynəlxalq ictimaiyyət Prezident İlham Əliyevin təşəbbüslərini dəstəkləməkdə davam edir

## Qoşulmama Hərəkatının Parlamentlər Şəbəkəsi təsis edilib

İspaniyanın paytaxtı Madrid şəhərində davam edən Parlamentlərarası İttifaqın 143-cü Assambleyası çərçivəsində noyabrın 28-də Qoşulmama Hərəkatının (QH) sədri qismində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü əsasında Hərəkatın Parlamentlər Şəbəkəsinin təsis iclası keçirilib.




Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, iclasa Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarova sədrlik edib.

Qoşulmama Hərəkatına üzv dövlətlərin parlamentlərinin sədrləri, sədr müavinləri və deputatlarının iştirakı ilə keçirilmiş iclasda təşkilatın tarixində yeni səhifə açan və üzv dövlətlər arasında parlamentlərarası ölçünün inkişafına xidmət edəcək Qoşulmama Hərəkatının Parlamentlər Şəbəkəsi təsis edilib.

Qeyd edək ki, Azərbaycan Prezidenti, Qoşulmama Hərəkatının sədri İlham Əliyev 2021-ci il iyulun 13-də QH-nin xarici işlər nazirlərinin konfransında çıxışı zamanı Azərbaycanın QH-yə üzv dövlətlərin əməkdaşlığının parlamentlərarası istiqamətini inkişaf etdirmək niyyətində olduğunu vurğulamışdı. Həmçinin dövlət başçısı oktyabrın 11-də Hərəkatın yaradılmasının 60 illiyinə həsr olunmuş Belqrad yubiley konfransında bu mövzuya toxunaraq Azərbaycanın təşkilata üzv dövlətlərin parlamentariləri arasında əməkdaşlığın inkişafı ilə bağlı addımlar atdığını bildirmişdi.

Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin təsis olunması beynəlxalq ictimaiyyətin Prezident İlham Əliyevin təşəbbüslərinə verdiyi dəstəyin daha bir təzahürüdür.

Hərəkatın fundamental dəyər və prinsiplərinin təşviqinə, təşkilata üzv dövlətlər tərəfindən qəbul edilmiş qərarlara parlament dəstəyinin təmin olunmasına, habelə Qoşulmama Hərəkatına üzv dövlətlər üçün ümumi maraq kəsb edən məsələlərin həllinə parlamentlərin töhfə verməsinə imkan yaradacaq bu Şəbəkə yaranmaqda olan qlobal risk və təhdidlərə qarşı mübarizədə yeni çoxtərəfli əməkdaşlıq platforması rolunu oynayacaq.

Tədbirdə çıxış edən Qoşulmama Hərəkatına üzv dövlətlərin nümayəndə heyətlərinin rəhbərləri təşkilatın sədri qismində Azərbaycan Respublikasının bu əhəmiyyətli təşəbbüsünü yüksək qiymətləndirib və Şəbəkənin fəaliyyətində aktiv iştirak edəcəklərini vurğulayıblar.

İclasın yekununda Madrid Bəyannaməsi yekdilliklə qəbul edilib. Bəyannamədə təsis edilmiş Parlament Şəbəkəsinin Hərəkatın fəaliyyətinə verəcəyi töhfə və həyata keçirəcəyi funksiyalar vurğulanır, Azərbaycanın təşkilata səmərəli sədrliyi alqışlanır, habelə Şəbəkənin növbəti iclasının 2022-ci ildə ölkəmizdə keçiriləcəyi bildirilir.

# Azərbaycan Türkmənistan qazını İran üzərindən alacaq

## Bu barədə imzalanan saziş üçtərəfli əməkdaşlıq üçün möhkəm zəmin yaradır

İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) növbəti - XV Zirvə Toplantısı bu il noyabrın 28-də Türkmənistanın paytaxtı Aşqabad şəhərində keçirilmişdir. Prezident İlham Əliyev bu toplantıda iştirak etmişdir.



Tədbirdəki çıxışında dövlətimizin başçısı Azərbaycan iqtisadiyyatının son 18 il ərzindəki sürətli inkişafından, Vətən müharibəsindəki şanlı qələbəmizdən, ölkədə aparılan hərtərəfli islahatlardan, koronavirus pandemiyası ilə mübarizədən və digər vacib məsələlərdən bəhs etmişdir. Prezidentimiz Aşqabadda eləcə də Zirvə Toplantısında iştirak edən bir sıra dövlətlərin başçıları ilə görüşmüşdür.

Əvvəla xatırladaq ki, hökumətlərarası regional təşkilat olan İqtisadi Əməkdaşlıq Təşkilatının əsas məqsədi üzv dövlətlərin və bütövlükdə bölgənin davamlı iqtisadi inkişafına töhfə verməkdən ibarətdir. 1964-cü ildə Türkiyə, Pakistan və İran tərəfindən "Regional İnkişaf üçün Əməkdaşlıq" kimi yaradılan təşkilat 1985-ci ildə İƏT olaraq yenidən qurulmuşdur. Hazırda İƏT-in 10 üzvü var: Azərbaycan, Türkiyə, Pakistan, Əfqanıstan, İran, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Türkmənistan və Tacikistan. Azərbaycan təşkilata 1992-ci ildə üzv olmuşdur. İƏT-in katibliyi Tehranda yerləşir. Baş katib Xusrav Noziridir (Tacikistan).

İqtisadi Əməkdaşlıq Təşkilatının XV Zirvə Toplantısına evsahibliyi edən Türkmənistanın Prezidenti Qurbanqulu Berdiməhəmmədov təşkilatın üzv ölkələr arasında siyasi, iqtisadi və digər sahələrdə əlaqələrin möhkəmlənməsinə yeni töhfə verəcəyini vurğuladı. Ayrı-ayrı dövlətlərin toplantıda iştirak edən başçılarının görüşləri də məhz bu məqsədə xidmət etmişdir. Aşqabadda Azərbaycan və İran prezidentlərinin də görüşü olmuşdur. İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisi demişdir: "Sizinlə İƏT dövlət başçılarının sammitində görüşümdən çox xoşhalam. İƏT-ə üzv ölkələrin dövlət başçılarının sammiti bizim üçün çox yaxşı bir fürsət oldu ki, Sizinlə də görüş imkanı yarandı. Sizin rəsmi şəxslərin, həm Baş nazirin müavininin, həm də xarici işlər nazirinin İranın xarici işlər nazirinin müavini ilə çox yaxşı təmasları oldu, Baş nazirin müavininin Tehrana çox uğurlu səfəri baş tutdu. Mənə verilən məlumata görə, bu görüşlərdə çox müsbət müzakirələr aparılıb. Mən əminəm ki, belə əlaqələr, təmaslar, müzakirələr iki ölkənin münasibətlərinin inkişafına töhfələr verəcək. Ölkələrimiz arasında münasibətlərdə qarşıya çıxan məsələlər belə təmaslar və səfərlər çərçivəsində öz həllini tapa bilər. Azərbaycan Respublikası ilə münasibətlərimiz təkcə qonşuluq münasibətləri deyildir, bizim ürəklərimizin münasibətidir, iki ölkənin xalqlarının ürəkləri bir döyünür. Bizim tarix və sivilizasiya birliyimiz vardır. Bütün bunlar bizi daha da möhkəm birləşdirir. Biz heç vaxt imkan verməməliyik ki, digərləri bizim münasibətlərimizə müdaxilə etsinlər".

Dövlət başçısı İran Prezidentini salamlayaraq bildirmişdir: "Çox şadam ki, görüş üçün belə gözəl fürsət yaranıb. Bu, bizim Sizinlə birinci görüşümüzdür. Əminəm ki, bu görüş İran-Azərbaycan əlaqələrinin inkişafına çox güclü təkan verəcəkdir. İran İslam Respublikası ilə əlaqələrə biz çox böyük önəm veririk. Bizim xalqlarımız qardaş xalqlardır. Əsrlərboyu bir yerdə yaşamışıq. Qohumluq əlaqələri də kifayət qədər genişdir. Xalqlarımızı ortaq tarix, ortaq mədəniyyət birləşdirir. Bu, çox gözəl zəmindir. Biz bu zəmin üzərində ikitərəfli əlaqələrin müasir tarixini yazırıq".

Söhbət zamanı Azərbaycan ilə İran arasında "Şimal-Cənub" nəqliyyat dəhlizi, həmçinin Zəngəzur nəqliyyat dəhlizi çərçivəsində əməkdaşlıq məsələləri müzakirə olunmuşdur. Zəngəzur dəhlizinin reallaşması nəticəsində İranın da bundan faydalanacağı və bu nəqliyyat qovşağından istifadə edə biləcəyi imkanları vurğulanmışdır. Eyni zamanda, ölkələrimiz, habelə Azərbaycan, Rusiya və İran arasında enerji qovşağının yaradılması məsələləri müzakirə edilmişdir. Həmçinin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, iqtisadi-ticari əlaqələr ətrafında geniş fikir mübadiləsi aparılmışdır. Söhbət zamanı İran-Azərbaycan əlaqələrinin tarixi xarakter daşıdığı və xalqlarımız arasında dostluq münasibətlərinin mövcud olduğu bir daha vurğulanmışdır.

Həmin gün Azərbaycan və İran prezidentlərinin iştirakı ilə "İran İslam Respublikasının ərazisindən təbii qazın tranzit şərtlərini müəyyənləşdirən Saziş"in imzalanması deyilənlərin daha bir təsdiqinə və təntənəsinə çevrildi. Sazişin imzalanmasından sonra dövlət başçılarının İranın kütləvi informasiya vasitələrinə verdiyi müsahibədə Prezident İlham Əliyev bunun böyük əhəmiyyəti olduğunu vurgulamışdır: "Bu, tarixi sənəddir. Bir daha İran-Azərbaycan əlaqələrinin nə qədər dərin olmasından xəbər verir. Azərbaycan Türkmənistan qazını İran üzərindən alacaq. Bu, üçtərəfli əməkdaşlıq üçün çox gözəl zəmindir və bizim niyyətimizi göstərir. İmzalanmış bu sənədin iqtisadi və enerji təhlükəsizliyi baxımından da çox böyük önəmi var".

İran Prezidenti Seyid İbrahim Rəisi də sənədin vacibliyini qeyd etmişdir: "Bu gün Azərbaycan, İran və Türkmənistan arasında imzalanan qaz sazişi ölkələrimizin əlaqələrinin, iki və üç ölkə arasındakı münasibətlərin inkişafına xidmət edəcək. Bu sahədə ciddi və çoxsaylı addımların atılması zəruridir və iki ölkənin iradəsi sayəsində ölkələrimiz arasındakı əlaqələr, o cümlədən iqtisadiyyat, ticarət, tranzit, mədəni sahələrdə əməkdaşlıq iki ölkə arasındakı əlaqələrin genişlənməsinə yönəlməlidir. Əlaqələrimizin tarixi qədimdir, bundan sonra da genişlənməli və inkişaf etməlidir".

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# «30 il kor olmuşuq, indi gözümüz açılır»

## Ermənilər Zəngəzur dəhlizini özlərinin xilas yolu olaraq görürlər

Vətən müharibəsindən sonra Azərbaycanın regionda yaratdığı yeni reallıqlar, sülh və əməkdaşlıq üçün irəli sürdüyü təkliflər artıq dünya dövlətləri, beynəlxalq ictimaiyyət tərəfindən də təqdir edilir.

Elə bunun nəticəsidir ki, Zəngəzur dəhlizinin açılmasına, sərhədlərin müəyyən edilməsinə dair Azərbaycanın təkliflərinə çoxsaylı ölkələr, o cümlədən Cənubi Qafqazda nüfuz sahibi olan dövlətlər tərəfindən tam dəstək ifadə olunur.

Ermənistan buna əvvəllər müqavimət göstərməyə çalışsa da dünya dövlətlərinin yanaşması onların Azərbaycanı dəstəklədiyini, Ermənistanın yalnız qaldığını göstərir. Bu səbəbdən Zəngəzur dəhlizi, digər istiqamətlər üzrə kommunikasiyaların bərpası ilə bağlı İrəvan mövqeyini dəyişməyə məcburdur.

Noyabrın 26-da Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistan baş nazirinin üçətərəfli Soçi görüşü də İrəvanda böyük reaksiyaya səbəb olub. Ermənilərin sosial şəbəkələrdəki statusları, şərhləri göstərir ki, onlar ölkələrinin məhvə doğru getməsi, İlham Əliyevin və Azərbaycanın üstünlüyünün artması barədə ortaq rəydədirlər. Bu fonda kommunikasiyaların bərpasının Azərbaycan və Ermənistan arasında əlaqələrin normallaşmasına xidmət etməklə yanaşı, iki ölkə üzərindən ticarət və nəqliyyat daşımalarını əhəmiyyətli dərəcədə artıracağını da anlamağa başlayıblar.

Erməni siyasi ekspert Qeqam Livonisyan deyib ki, Soçidəki üçtərəfli görüşdə qəbul edilən qərarlar Ermənistanın xilası olacaq: "Bir neçə gündür Zəngəzurdayıq. İnsanlarla söhbətləri, Soçidəki görüş ətrafındakı mövcud xəbərləri nəzərə alaraq deyə bilərik ki, Zəngəzur bu anda regionun geosiyasi mərkəzidir. Dəhlizin açılmasını ermənilər çox böyük səbirsizliklə gözləyirlər. Bu dəhliz sayəsində iqtisadi tərəqqinin şahidi olacağıq".

"İravnuk" qəzeti yazır ki, Soçidə dövlət başçılarının iştirakı ilə keçirilən görüşdən sonra Ermənistanda qarşıdurmanın davam etməsini istəyən və Zəngəzur dəhlizinin işə salınmasını "xəyanət" kimi qəbul edən siyasətçilər var: "Ən başlıca problem də məhz budur. İqtisadi baxımdan regionda problemlərin həlli yolları göz qabağında olsa da, siyasi intriqalar bu məsələləri həll etməyə imkan vermir".

Qeyd olunur ki, Zəngəzur dəhlizi həm iqtisadi, həm də siyasi baxımdan əhəmiyyət daşıyır: "İqtisadi baxımdan Zəngəzur dəhlizi Ermənistana lazımdır. Dəhliz investisiyaların cəlb olunmasına, yeni iş yerlərinin yaradılmasına, sənaye müəssisələrinin bərpasına imkan yaradacaq. Xüsusilə də Ermənistanın regional iqtisadiyyata inteqrasiyasına kömək edəcək".

Armen Minosyan adlı istifadəçinin "VKontakte" sosial şəbəkəsində Prezident İlham Əliyev və baş nazir Paşinyanın şəkillərini yanaşı paylaşaraq "Zəngəzur dəhlizini açmaqla Ermənistanı işıqlı günə çıxaran şəxsiyyətlər" yazması maraqlı rəylərlə qarşılanıb. Vazgen Papinyan adlı istifadəçinin bu fotoya şərhi çoxlu bəyənmə toplayıb: "İndi başa düşürük ki, illərimizi boşa vermişik. Sarkisyan-Koçaryan hakimiyyətdə olduqları müddətdə biz erməniləri dərin uçuruma yuvarladıblar. Yalançı vədlər, Qarabağ müharibəsinin yaratdığı problemlər bizi çox geri salıb. 30 il kor olmuşuq, indi gözümüz açılır, reallıqları görürük. Soçidəki görüş, Zəngəzur dəhlizinin açılması gələcəyimizi xilas edəcək, xoş gün görəcəyik".

"Facebook" sosial şəbəkəsində çoxlu sayda izləyicisi olan səhifələr "Soçidə üçtərəfli görüş" xəbərini paylaşaraq "Müharibədən sonra Azərbaycanın getdikcə daha da güclənməsi, Zəngəzur dəhlizinin açılması Ermənistan üçün nələr vəd edir" sualını ünvanlayıblar. Bir çox izləyici bu paylaşmanın altında rəylər yazaraq müstəqil şəkildə fikirlərini ifadə ediblər. Onların sırasında müəllim, həkim, iqtisadçı, mühəndis, biznesmen, idmançı rəylərinə belə rast gəlmək mümkündür. Məsələn, ixtisasca iqtisadçı olan Stepan Balosyan adlı biri yazır: "Acı həqiqət olsa da, demək lazımdır. Azərbaycan iqtisadi cəhətdən Ermənistandan çox öndədir. İnvestorlar Ermənistandan qaçdığı halda Azərbaycana pul qoymaq üçün axın edirlər. Bu da Azərbaycanı daha da gücləndirir və belə vəziyyət Zəngəzur dəhlizinin açılması ilə Ermənistan iqtisadiyyatına mütləq şəkildə öz müsbət təsirini göstərəcək".

Henrix Aramyan adlı biri isə çox maraqlı "tweet" yazıb: "Zəngəzur dəhlizinin açılması ilə nəhayət üzümüz güləcək, iqtisadiyyatımız dirçələcək".

Son günlərdə İrəvanda belə etiraflara daha çox rast gəlmək mümkündür. İndi anlamağa başlayıblar ki, Ermənistanın acınacaqlı vəziyyətə düşməsinin əsas səbəbləri 30 ilə yaxın davam edən işğalçılıq siyasəti və buna görə Azərbaycanın gördüyü adekvat tədbirlər idi.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***






# Gənclik






● Qarabağ Azərbaycandır!



# Azərbaycanda milli ruhda gənc nəsil yetişib

**Vətən müharibəsində qazandığımız Zəfərlə Azərbaycan gəncliyinin də həyatında yeni bir mərhələ başladı. Bir il əvvəl apardığımız savaşda və əldə etdiyimiz şanlı qələbədə ölkəmizin haqq işinə bacardığı töhfələri vermiş hər kəsin fədakar əməyi var. Amma bu, daha çox Ulu Öndər Heydər Əliyevin milli inkişaf kursunu gənclər siyasəti sahəsində də davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin respublikaya rəhbərliyi dövründə yetişmiş və formalaşmış gəncliyin qazandığı Zəfərdir.**

Vətən, dövlət bu gənclik üçün sadəcə söz deyil, sarsılmaz inamdır, arzulara çatmaq üçün mənəvi və maddi güc mənbəyidir, böyük bir dayaqdır. Daim vətəndaşlarının yanında olan, onların rifahı, xoşbəxtliyi üçün çalışan birlikdir, xüsusi bir təsisatdır. Hər şeydən əvvəl qürur mənbəyidir, Vətən evinin abadlığıdır, inkişafdır, dünyaya qovuşmaqdır, qlobal proseslərin güclü bir hissəsi olmaqdır. Azərbaycan gəncliyi bu dövlətdə, bu Vətəndə öz gələcəyini aydın görə bilir. Ona görə də respublikanın inkişafına töhfə verməyə, Vətən naminə misilsiz fədakarlıqlar göstərməyə hər zaman hazırdır. İşğal altındakı torpaqlarımız bu vətənpərvər gəncliyin gücü ilə azad edildi. Bununla da Azərbaycan gəncliyinin həyatında yeni bir dönəm başlandı.

Tarixi Qələbəmizdən sonra Şuşaya ilk səfəri zamanı Azərbaycan Prezidenti İlham Əliyev gənclərimizin Vətən müharibəsindəki qəhrəmanlığını nəzərdə tutaraq demişdir: "Mən çox şadam ki, son illər ərzində Azərbaycanda vətənpərvər, güclü, milli ruhda tərbiyə almış gənc nəsil yetişib. On yeddi ildir ki, mən Azərbaycanın rəhbəriyəm. Bu illər ərzində yetişən insanlar bu torpaqları azad etdilər. Bütün nəsillərdən olan vətəndaşlarımızın bu Qələbədə böyük zəhməti var, payı var. Ancaq onu da bildirməliyəm ki, əsas yükü, əsas vəzifəni gənc nəsil yerinə yetirdi".

## Vətənpərvərlik əzmi, Azərbaycançılıq ruhu

Vətən müharibəsi Azərbaycan gəncliyini dünyaya tanıtdı. Elə özümüz də son onilliklərdə cəmiyyətimizdə necə vətənpərvər, cəsur, qəhrəmanlıq ruhu ilə dolu, bir o qədər də savadlı, sağlam düşüncəli nəslin yetişdiyinə bir daha şahid olduq. Dövlət müstəqilliyimizin həyatımıza bəxş etdiyi ən böyük nailiyyətlərdən biri də onların milli ruhda tərbiyəsi, hərtərəfli inkişafı üçün yaranmış mühitdir.

Bu gün gənc nəsil cəmiyyət həyatının bütün sahələrində mühüm rol oynayır. Eyni zamanda nəsillərarası rabitə, ulularımızdan bizə miras qalmış milli-mənəvi dəyərlərimizə hörmət ruhu da uğurla davam etdirilir. Dövlət rəhbərimizin də bəyan etdiyi kimi, nəsillərarası münasibət, qırılmaz bağlılıq, təcrübə ilə dinamizmin, çevikliyin vəhdəti Azərbaycanı öz hədəflərinə daha da yaxınlaşdırır. Vətən müharibəsindəki qələbəmiz bunun tarixi sübutu, Lider uzaqgörənliyinin daha bir təcəssümüdür. Hazırda Azərbaycanda vətənpərvər, savadlı, milli-mənəvi dəyərlərimizə sevgi dolu gəncliyin formalaşmasında ölkəmizin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri, UNESCO və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın da mühüm rolu var. Öz fəaliyyəti ilə yaratdığı örnəklər Azərbaycan gəncliyinə düzgün istiqamət verir, onların sağlam mühitdə inkişaf imkanlarını daha da genişləndirir.

Azərbaycan gəncliyi səngərlərdə olduğu kimi, informasiya savaşında da böyük üstünlüyə malikdir. Mənfur düşmənlərimizin illərdən bəri dünyaya danışdıqları nağılların, yaratdıqları saxta miflərin ifşasında da mühüm rol oynayırlar. Bir neçə xarici dildə özünüifadə bacarıqları, müasir kommunikasiya vasitələri ilə fəal iş vərdişləri, geniş əlaqələr bu sahədə gənclərimizin imkanlarını genişləndirir.

## Sabaha baxış: gənclər üçün əsas istiqamət təhsildir

Gələcəyə doğru yolumuzda bizim əsas gücümüz qüdrətli Ordumuzda Vətənə xidmət edən qəhrəman əsgər və zabitlərimiz, eləcə də cəmiyyət həyatının digər sahələrində yüksək bilik və bacarıqları ilə Azərbaycana faydalı olmağa çalışan, müasir dünyamızın çağırışlarına sürətlə uyğunlaşmağı bacaran gəncliyimizdir. Ordunun qazandığı zəfəri daim bilik, quruculuq əzmi davam etdirir, möhkəmləndirir və əbədi edir. Azərbaycan Prezidentinin gənclərimizə ən əsas çağırışlarından biri də vətənpərvər olmaq, mümkün qədər çox biliklərə yiyələnmək, müasir dünyamızın çağırışlarına uyğunlaşmaq, amma bütün bunlarla yanaşı, milli köklərdən də heç zaman qopmamaq, Azərbaycanın maraqlarını qorumaqdır. Dövlət rəhbərimiz bu xüsusda demişdir: "Bu gün dünya o qədər sürətlə inkişaf edir, texnologiyalar o qədər sürətlə qabağa gedir ki, bilik, savad olmadan həyatda öz layiqli yerini tapmaq çox çətindir. Gənclər peşəkar olmalıdırlar... Bizim gənclərimiz milli ruhda, vətənpərvərlik ruhunda tərbiyə almalıdırlar. Əsrlərboyu bizim xalqımız başqa dövlətlərin, imperiyaların tərkibində yaşamışdır. Ancaq biz milli mənsubiyyətimizi, adət-ənənələrimizi qorumuşuq... Azərbaycan gəncləri mütləq milli ruhda tərbiyə almalıdırlar ki, gələcəkdə dövlət maraqlarını, xalqımızın milli maraqlarını layiqincə qoruya bilsinlər. Hesab edirəm ki, bu iki əsas amil hər bir gənc üçün çox vacibdir".

Azərbaycan gəncliyi ilə bağlı 2005-2009-cu və 2011-2015-ci illəri əhatə edən dövlət proqramlarının qəbulu, uğurla icrası Prezident İlham Əliyevin ölkəmizə rəhbərliyi dövrünün mühüm tarixi nailiyyətlərindəndir. Bu dövlət proqramlarının həyata keçirilməsi, bilikli, peşəkar, istedadlı gənclərimizin dəstəklənməsi üçün "Prezident Mükafatı"nın təsis edilməsi, mütəmadi şəkildə gənclər forumlarının və digər tədbirlərin təşkili, Azərbaycanda könüllülük hərəkatının geniş yayılması gənc nəslin hərtərəfli inkişafını stimullaşdırır.

Azərbaycan Prezidenti gənclərə böyük etimad göstərir. Mühüm dövlət vəzifələrində onları irəli çəkir, idarəetmədə geniş iştirak imkanları yaradır. Gənclərimiz beynəlxalq miqyaslı tədbirlərdə, eləcə də idman yarışlarında ölkəmizi ləyaqətlə təmsil edir, öz nailiyyətləri ilə Azərbaycanın adını daha da ucaldırlar. Prezident İlham Əliyevin 2015-ci ilin 26 yanvarında təsdiqlədiyi "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası", eləcə də 2017-ci ilin 15 sentyabrında qəbul olunmuş "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı da ölkə gəncliyinə göstərilən diqqət və qayğının bariz ifadəsidir.

Vətənə böyük Zəfər qazandırmış Azərbaycan gəncliyi bundan sonra da ölkəmizin möhtəşəm nailiyyətləri ilə tariximizin yeni şanlı səhifələrini yaradacaq.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

● Tarix yazan oğullar

# İdmançı Elnurun dastana dönən döyüş yolunun bəzi anları

**Hələ 1988-ci ildən başlayan Ermənistan-Azərbaycan münaqişəsi özünün bir neçə mərhələsini keçib. Öncə "daş-qalaq", sonra açıq-gizli terror hadisələri, soyqırımı olan ayrı-ayrı faciələr silsiləsi, nəhayət, dövlət sərhədlərimizin pozulması ilə başlayan savaşlar.**



1991-1993-cü illərdə Ermənistan Azərbaycanın ərazi bütövlüyünə təcavüz edəndə onların qarşısına əliyalın çıxan (adicə quş tüfəngini də əlimizdən almışdılar) igidlərimizi həmin savaşda məğlub edən şovinistlər elə düşünürdülər ki, bununla hər şey bitdi. Atalar yaxşı deyib: "Sən saydığını say..."

Hər müşkül işin çözülməsinə, düyünün açılmasına zaman və imkan lazımdır. Bunu 44 günlük Vətən müharibəsi əsaslı şəkildə təsdiqlədi. Havadarlarının siyasi, hərbi dəstəyi və maddi təminatı ilə özlərini "yenilməz" ordu kimi göstərən daşnakların hansı güc-qüvvəyə malik olmasını dünya öz gözləri ilə gördü: onların miflərini darmadağın etdik!

Bu qələbəni bizə qazandıran Ali Baş Komandanın hər əmrinə hazır olduqlarını özlərinin qısa, lakin şərəfli ömür yollarındakı vətənsevərlikləri ilə təsdiqləyən qazi və şəhidlərimiz düşmənə gərəkli cavabı verdilər. Qarabağın azadlığı uğrunda canlarından keçən belə igid oğullarımız hər zaman xalqımızın yaddaşında qalacaq. Dövlətimiz isə onların ailələrinə diqqət və qayğısını yüksək səviyyədə həyata keçirməkdədir.

Bəli, qalır belə igid oğulların tarixdə əbədi yaşamasına, o da qələm və söz əhlinin mənəvi, həm də vətəndaşlıq borcudur.

Belə oğullarımızdan biri də Elnur Nəcəf oğlu Mustafayevdir ki, 9 fevral 2002-ci ildə Bakı şəhərində anadan olmuşdu. Atası Kəlbəcərin Ağcakənd, anası isə qonşu Oruclu kəndindəndir. Elnurun ata babası Abbas Mustafayev Kəlbəcər elinin tanınmış söz ustadlarından biri olub. "Dəmirçi" təxəllüsü ilə yazıb-yaradan şairin bir neçə kitabı da işıq üzü görüb.

Elnur Mustafayevin ana babası Zakir Rüstəmov uzun illər Kəlbəcər rayon 18 nömrəli tam orta məktəbin direktoru, həmçinin ingilis dili müəllimi olub.

Valideynlərinin, qohumlarının erməni terrorçularının işğalı nəticəsində öz yurdlarından məcburi köçkün düşməsi Elnurun həyatında iz qoymaya bilməzdi. Uşaq vaxtlarından valideynlərindən, qohumlarından, xüsusilə də Füruzə nənəsinin dilindən düşməyən, işğalçı tapdağı altında qalan yurdu barədə xoş xatirələri dinləyərək böyüyürdü.

Bütün bunlar, həmçinin kiçik yaşlarından onun ailəsinə, vətəninə, dininə və mənəvi dəyərlərinə olan bağlarını daha da qüvvətləndirir, qəhrəmanlarımıza olan sevgisinin formalaşmasında xüsusi rol oynayırdı.

Elnur kiçik yaşlarından idmanın güləş növü ilə məşğul olmağa başlayıb. Güclü bədən quruluşu ona bu sahədə qısa zamanda uğurlar qazanmağa imkan verib. O, yerli, həmçinin xarici ölkələrdə (Türkiyə, İran, Rusiya, Gürcüstan) keçirilən beynəlxalq yarışlarda iştirak edərək yüksək nailiyyətlər qazanıb. İran İslam Respublikasında 2016-cı ilin Aprel döyüşləri şəhidlərinin xatirəsinə həsr edilmiş turnirdə 1-ci yerə layiq görülüb. O, evə gələrək böyük sevinc hissi ilə anasına deyib ki, "ana, mən bu medalı şəhidlərimizin şərəfinə döyüşüb qazandım...".

Elnur xasiyyətcə çox mehriban, gülərüz və dostcanlı idi. 18 yaşı tamam olduqdan sonra, 2020-ci il mayın 7-də hərbi xidmətə yollanıb. 27 sentyabr 2020-ci ildə xain düşmənin növbəti təxribatından sonra şanlı Azərbaycan Ordusu yağılara qarşı genişmiqyaslı əməliyyata başlayanda Elnur da ilk gündən müharibədə iştirak etdi. Cəsarət və şücaəti ilə seçilən Elnur Mustafayev Füzuli, Cəbrayıl, Xocavənd, Qubadlı, Şuşa istiqamətində gedən döyüşlərdə vətənpərvər igidlərlə çiyin-çiyinə olub. Ən ağır əməliyyatlardan cəsarətlə çıxıblar. Atası ilə telefon danışıqlarının birində içərisi düşmənlə dolu olan 2 maşını məhv etdiyini də deyib...

Sanki o, şəhid olacağını çox-çox əvvəldən hiss edirmiş. Atası deyir ki, hər fürsətdə ailəsini buna hazırlayırdı. 2020-ci il oktyabrın 30-da Qırmızı Bazar istiqamətindəki şiddətli döyüşlərə qatılır. Şəhid silahdaşının döyüş meydanında qalan nəşini çıxararkən xain düşmənin gülləsinə tuş gəlir. Şəhidlik zirvəsinə ucalan Elnur 31 oktyabr 2020-ci ildə böyük izdiham ilə Bakı şəhərinin Binəqədi rayonundakı Sulutəpə qəsəbəsində yerləşən Şəhidlər məzarlığında torpağa tapşırılır.

Elnur Mustafayev Azərbaycan Prezidentinin müvafiq sərəncamı ilə "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

Ata-anasının doğma Kəlbəcərə qayıtması uğrunda canından keçən Elnur Mustafayev kimi şərəfli ömür və döyüş yolu keçən şəhidlərimiz heç zaman unudulmayacaq. Axı, illərin həsrətinə son qoyan Zəfərimizin qazanılmasında onlar şirin candan keçdilər, xalqımızın alnıaçıq, üzüağ yaşaması, müstəqil dövlətimizin daha da inkişafı naminə...

*Məhəmməd NƏRİMANOĞLU,*
*"Azərbaycan"*

● Vətənpərvərlər

# Zəfərə gedən yol milli birlik və mənəvi gücdən başladı

## 44 günlük Vətən müharibəsi dövlətimizin hərb tarixinə, xalqımızın isə yaddaşına qızıl hərflərlə yazıldı




**2020-ci ilin payızı başqa bir abhava ilə başladı. İnsanlarda mübarizə əzmi, döyüş ruhu, qisas hissi baş qaldırdı. Ermənistanın ölkəmizə qarşı başladığı növbəti hərbi təcavüzünə cavab olaraq 27 sentyabrdan etibarən Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandanın rəhbərliyi altında torpaqlarımızın azad edilməsi məqsədilə Vətən müharibəsi başlandı.**

44 gün ərzində davam edən haqq savaşımızda böyük bir qəhrəmanlıq salnaməsi yazıldı. Həmin günlərdə bütün xalqımız ayaq üstə idi, kiçikdən böyüyə hər kəs vətən adına səfərbər olmuşdu, hər bir insan öz durduğu yeri sanki özünün səngəri bilirdi, insanlardan barıt qoxusu gəlirdi. Mərdə, qəhrəmana, vətənin dar günündə atlanaraq silaha qurşanıb yağıların üstünə şimşək kimi şığıyan, nərəsi ilə tufan qoparan igidlərə ümumxalq məhəbbəti, el hörməti tükənməz idi. Bütün bu milli birliyimizi yaradan isə mənəvi gücümüz idi. Xalqımız ordumuza mənəvi cəhətdən dayaq oldu. "Ordum varsa, yurdum var" ifadəsi vətən müdafiəçilərini döyüşə ruhlandırdı.

Həqiqətən də Zəfərə aparan haqq savaşımızda xalqımızla ordumuz bir vəhdət olaraq Müzəffər Ali Baş Komandanın "Dəmir yumruğ"unun ətrafında sıx birləşdilər. Bu birlik xalqımıza Böyük Qələbə sevincini yaşatdı.

Mən də uşaqlıqdan arzusunda olduğum bir yolun yolçusu oldum. Bu yol Qarabağa uzanan yol idi. Allahıma sonsuz şükürlər edirəm ki, bu yol ilə getməyi mənə də nəsib etdi. Füzulinin mənfur düşmən tərəfindən dağıdılmış ərazilərindən keçərək, Xocavəndin yamyaşıl və sıx meşələrlə örtülmüş qayalı dağlarını aşaraq Xocalının Sığnaq kəndindən keçib Daşaltıdan ötüb, əzəmətli dağların qoynunda uzanan tarixi Zəfər yolu ilə Şuşa şəhərinə çatmaq çox qürurlu və sevincli idi. Bu yol ilə gedərkən gözəl təbiət mənzərələrinin fonunda gözümün önündə bir mənzərə də canlanırdı. Bu mənzərə qəhrəman şəhidlərimizin, qazilərimizin döyüşlərdəki şücaəti idi. Çünki bu yerlərdə şəhidlərimizin ruhları dolaşır, bu dağlarda, daşlarda onların axıdılan qanları, ayaq izləri və Qarabağın havasında nəfəsləri var. Sanki Qarabağın dumanlı dağlarında dolaşan şəhid ruhları bizləri salamlayırdı. Qəhrəmanlıq xalqımızın qanına hopmuş ali bir hissdir. Bu hiss ilə dünyadan köç edənlər isə əbədi həyat qazananlardır. Bu anlamda əbədi həyat qazanan müqəddəs şəhidlərimizin əziz xatirəsi xalqımızın yaddaşında və qəlbində daim yaşayacaqdır.

Sonda onu da xatırladım ki, qələbəyə həsr etdiyim yazımın "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyi, Mənəvi Dəyərlərin Təbliği Fondunun dəstəyi ilə Vətən müharibəsinin birinci ildönümünə həsr olunmuş "Vətənim Azərbaycandır" adlı esse yazı müsabiqəsinin diplomuna layiq görüldüyü üçün də çox sevincliyəm.

*Yusif CƏFƏRBƏYLİ,*
*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin magistri, laçınlı*

● Şəhidlər ölməz, Vətən bölünməz




# 35 evdən ibarət olan kənd 35 şəhid verib

**Ötən il sentyabrın 27-dən başlayan döyüşlərdə hər gün geriləyən, dönüb arxaya qaçan erməni döyüşçülərindən fərqli olaraq, hər səhərimiz Müzəffər Ordumuzun əsgərlərinin əldə etdiyi uğur və qələbə xəbərləri ilə açılırdı. Döyüşən ordumuzun sıralarından şəhidlik zirvəsinə ucalan oğullarımız bizi inandırırdı ki, Qələbə bizimlədir. Belə də oldu...**

Qobustan rayonunun Bəklə kəndinin camaatı da Vətən üçün canından, qanından keçən igid oğulları ilə həmişə fəxr edəcək.

Bu kənd neçə-neçə elm adamı, yüksək rütbəli zabit, ədəbiyyat sevdalısı yetişdirib. Hələ 1941-1945-ci illərdə Bəklə igidləri sinələrini düşmən gülləsinə sipər ediblər. Birinci Qarabağ savaşlarında da bəkləlilər gözlərini qırpmadan düşmənin qarşısına çıxdılar. Qayıdanlar da olub, Gərayev Kənan Valeh oğlu kimi, şəhidliyə ucalanları da... Xatırladaq ki, Bəklə kəndi 1941-1945-ci illər müharibəsində, eləcə də Birinci və İkinci Qarabağ savaşlarında 35 şəhid verib.

Bəli, 35 evdən, ailədən ibarət kəndin 35 şəhid ünvanı var. Birinci Qarabağ savaşında Vətənin müdafiəsinə könüllü qalxan Kənan Gərayev düşmənə sarsıdıcı zərbə vurması ilə yadda qalsa da, sonda canını ana torpaq uğrunda qurban verənlərdən biri kimi yad edilir.

Əmisi oğlu Tural da 44 günlük Vətən müharibəsində onun izi ilə yola çıxıb və amansız düşməndən neçə-neçə Kənanların qisasını alıb. Tural Gərayev işğal edilmiş torpaqlarımızın azadlığı uğrunda 27 sentyabr 2020-ci il tarixindən Vətənimizin müdafiəsinə qoşulub. Füzuli uğrunda gedən döyüşlərdə kəşfiyyatçı kimi 4 erməni postunun alınmasında xidmətlərindən danışan döyüş dostları onunla qürur duyduqlarını deyirlər.

Təəssüf ki, qızğın döyüşlərin birində düşmən gülləsinə tuş gələn, bir övladı yadigar qalan Tural Gərayev də qəhrəmancasına şəhid olub.

Bəklə kənd camaatının təşəbbüsü, öz zəhmətləri və xərcləri ilə Birinci və İkinci Qarabağ savaşlarında şəhid olanların xatirəsinə bulaq salınıb.

Bu günlərdə xatirə bulağının açılışında təkcə bəkləlilər deyil, Şamaxıdan, Qobustandan, həmçinin respublikamızın müxtəlif guşələrindən şəhidlərin adını uca tutanlar iştirak ediblər.

*Alçina AMİLQIZI,*
*Şamaxı rayonu*

# "AZƏRBAYCAN" qəzetinin internet saytı yeniləndi

Qloballaşma prosesinin geniş vüsət aldığı dünyada dinamik inkişafı səciyyələndirən əsas göstəricilərdən biri də informasiya-kommunikasiya texnologiyalarının (İKT) tətbiq olunma dərəcəsidir. Müasir dünyanın ayrılmaz hissəsi olan Azərbaycanda da İKT-nin inkişafı prioritet sahələrdən biridir.




İnformasiya və kommunikasiya texnologiyalarının yüksək templərlə inkişafı insanların həyat tərzinə ciddi təsir göstərərək onun əhəmiyyətli dərəcədə dəyişməsinə gətirib çıxarır. İnsanların informasiyaya çıxış yolları artır, onların məlumat əldə etmək mənbələri ilə bağlı seçim imkanları genişlənir.

Ölkə həyatının bütün aparıcı sahələrinin texnoloji modernləşdirilməsinin həyata keçirilməsi, elmi potensialı dayanıqlı inkişafın əsas resurslarından birinə çevirən innovasiya sisteminin balanslaşdırılmış strukturunun formalaşdırılması istiqamətində ölkəmizdə böyük əhəmiyyətli işlər görülmüşdür. Bu istiqamətdə atılan mühüm addımlardan biri sürətli internetin tətbiqi dairəsinin genişləndirilməsi, eyni zamanda onun vasitəsi ilə informasiyaya çıxışın asan və təkmil hala gətirilməsidir.

Fəaliyyətində informasiya-kommunikasiya texnologiyalarının tətbiqindən geniş şəkildə istifadə edən "Azərbaycan" qəzeti bununla geniş oxucu auditoriyası ilə təmaslarını daha da yaxşılaşdırıb. Həmçinin oxucuların ən müxtəlif mövzular üzrə səhih məlumatlar əldə etməsinə geniş imkanlar yaradıb. Qəzetin internet saytının daha da təkmil hala gətirilərək çoxminli auditoriyaya təqdim edilməsi də bunun daha bir real təzahürüdür. Yüksək zövqlə, nəfis şəkildə hazırlanan saytımızdan oxucuların daha asan şəkildə istifadə etməsi üçün daim iş aparılır. Qəzetimizin saytı dövrün tələblərinə uyğun olaraq müntəzəm yenilənir. Bu günlərdə daha dinamik şəkilə gətirilib. Eyni zamanda, sayt sosial şəbəkələrə inteqrasiya olunub ki, bu da onun əhatə dairəsini genişləndirir.

"Azərbaycan" qəzetinin yeni saytında rubrikaların sayı artırılıb. Həm də müəyyən rubrikalar üzrə bölmələr əlavə olunub ki, bu da oxucuların istədikləri məlumatları sayt üzrə daha tez tapmasına yardımçı olur.

Axtarış, arxiv sistemi üzrə də dəyişikliklər edilib və onların tərtibi daha yüksək zövqlə həyata keçirilib. Saytda qəzetin 2018-ci ildən başlayaraq bütün nömrələrinin PDF formatda arxivi yerləşdirilib. Oxucular həmçinin qəzetin PDF səhifələrini 2 variantda izləyə bilərlər. Belə ki, PDF formatını indi "elektron qəzet" kimi də səhifələmək mümkündür.

İnformasiya texnologiyalarının inkişaf etdiyi dövrdə internet məkanında kiberhücumlar aktual problemlərdən biri olaraq qalmaqdadır. Ona görə də kiberhücumdan qorunmaq üçün ilk növbədə, proqram təminatını daim yeniləmək və ən son versiyadan istifadə etmək lazımdır. Yenilənən saytımızda bu məsələyə də xüsusi diqqət yetirilib və bu hücumlardan qorunmaq üçün innovativ texnologiyaların imkanlarından istifadə edilərək təhlükəsizlik sistemi daha da gücləndirilib.

Bir sözlə, "Azərbaycan" qəzetinin yenilənən internet saytında oxucular ən son informasiyalarla tanış olmaq imkanı əldə edə bilərlər. Saytda yerləşdirilən müxtəlif linklər vasitəsilə internet portallarına çıxış əldə etmək mümkündür. Artıq fərqli dizaynda oxucuların görüşünə gələn "Azərbaycan" qəzetinin internet səhifəsinin təkmilləşdirilməsi prosesi bundan sonra da davam etdiriləcək.

***"Azərbaycan"***

# Gəncədə Nizami Gəncəvi ili çərçivəsində keçirilən "I Kitab Sərgisi" işini başa çatdırmışdır

Gəncə Şəhər İcra Hakimiyyətinin, Gəncə Regional Mədəniyyət İdarəsinin və Gəncə İctimai İştirakçılıq Məclisinin dəstəyi, "Azərbaycan Nəşriyyatları" İctimai Birliyinin təşəbbüsü və təşkilatçılığı ilə keçirilən "I Gəncə Kitab Sərgisi" öz işini yekunlaşdırmışdır.



Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasının "Urban" Mərkəzində keçirilən sərgidə ölkənin 30-dan artıq nəşriyyatı və 10-dan çox kitab evi iştirak etmişdir. Satışa çıxarılan kitablara 50 faizədək endirim tətbiq olunmuşdur. 3 gün əzrində məşhur şair və yazıçıların iştirakı ilə təqdimatlar, imza mərasimləri, şeir gecələri, uşaqlar üçün nağıl saatları, rəssamların, müxtəlif sənət nümayəndələrinin əsərlərindən ibarət sərgi və bədii proqramlar keçirilmişdir.

Sərgidə öz kitabını təqdim etmək istəyən müəlliflər üçün nəzərdə tutulmuş "Öz kitabını sat" guşəsi də yer almışdı. Bundan başqa, işğaldan azad edilmiş ərazilərimizdə yaradılacaq kitabxana fondlarına dəstək məsədilə kitabların toplanması üçün Mədəniyyət Nazirliyi və Milli Kitabxananın birgə həyata keçirdiyi "Qarabağa kitabla gedirik" layihəsinin stendi quraşdırılmışdı. İştirakçılar sərginin nümayiş etdirildiyi dövrdə layihəyə dəstək verərək işğaldan azad edilmiş ərazilərimizdə yaradılacaq kitabxana fondları üçün müxtəlif nəşrlər hədiyyə etmişlər.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Medianın İnkişafı Agentliyi "Sərhədsiz Reportyorlar" təşkilatına məktub ünvanlayıb

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi "Sərhədsiz Reportyorlar" təşkilatına məktub ünvanlayıb.

MEDİA-dan AZƏRTAC-a bildiriblər ki, adıçəkilən təşkilatın rəsmi saytında (https://rsf.org/en/azerbaijan) iki jurnalistin Azərbaycanda qətlə yetirilməsi barədə məlumat yerləşdirilib, lakin hadisənin hansı səbəbdən baş verməsi və əsl mahiyyəti açıqlanmayıb. Bu halın qeyri-obyektiv nəticələrin meydana çıxmasına zəmin yaratdığı vurğulanan məktubda, həmçinin deyilir: "Qeyd edilən məlumat təhrif olunub və qərəzli şəkildə Azərbaycanın əleyhinə istifadə edilir. Ermənistanın 30 il ərzində işğal altında saxladığı ərazilərdə hazırkı vəziyyəti işıqlandıran azərbaycanlı jurnalistlərin həlak olmasının məsuliyyətini Azərbaycanın üzərinə qoymaq cəhdi yolverilməzdir və əsassız yanaşmaların formalaşmasına zəmin yaratmaqdan başqa bir şey deyil".

Məktubda o da vurğulanıb ki, 2021-ci il iyunun 4-də AZƏRTAC-ın müxbiri Məhərrəm İbrahimov və AzTV-nin operatoru Sirac Abışov Ermənistanın 30 illik işğalından azad olunmuş Azərbaycan ərazilərində öz vəzifə borclarını yerinə yetirərkən Kəlbəcər rayonunun Susuzluq kəndində ermənilərin yolun hərəkət istiqamətində yerləşdirdiyi minaya düşərək şəhid olmuşlar. Onlara olan dərin ehtiram və minnətdarlığın ifadəsi olaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "İşğaldan azad olunan ərazilərdə vəzifə borcunu yerinə yetirmiş bir qrup şəxsin 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında" sərəncam imzalamışdır.

Qeyd olunub ki, 2021-ci il iyunun 9-da Medianın İnkişafı Agentliyi tərəfindən baş vermiş hadisəyə dair "Sərhədsiz Reportyorlar"a bəyanat ünvanlanıb. Göndərilən bəyanatda insident barədə ətraflı məlumat verilmiş və hadisənin dəqiq və qərəzsiz işıqlandırılmasında beynəlxalq vətəndaş cəmiyyəti təşkilatlarının dəstəyinə müraciət edilib.

Agentliyin məktubunda həmçinin bildirilir: "Biz bir daha sizə müraciət edərək, iki nəfər jurnalistin müharibənin bitməsindən 7 ay sonra Ermənistanın törətdiyi müharibə cinayətinin qurbanı olduqlarını və erməni hərbçilərinin yerləşdirdikləri minaya düşərək həyatlarını itirdiklərini bildirir və bu faktı nəzərə almağınızda israr edirik".

Məktubda həmçinin xəbər və məruzələrin hazırlanması zamanı Medianın İnkişafı Agentliyi də daxil olmaqla, çoxsaylı mənbələrdən istifadə edilməsinin onların dəqiqliyi, obyektivliyi və etibarlılığının artırılması baxımından xüsusi əhəmiyyət daşıdığı və ixtilafa yol açan halların aradan qaldırılmasında müstəsna rol oynayacağı diqqətə çatdırılıb.

REPORTERS SANS FRONTIERES
POUR LA LIBERTE DE LA PRESSE

# Lüksemburq "Beynəlxalq Bazarı"nda Azərbaycan stendi diqqəti cəlb edib

Azərbaycan-Lüksemburq Ticarət Palatasının və bu ölkədə fəaliyyət göstərən "Qarabağ" Assosiasiyasının təşkilatçılığı ilə "Lüksemburq Beynəlxalq Bazarı"nda ölkəmiz böyük stendlə təmsil olunub.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın böyük bayrağı ucaldılan stendimiz ziyarətçilərin diqqətini daha çox cəlb edib.

Qala divarları formasında qurulmuş və milli ornamentlərlə bəzədilmiş stenddə ölkəmizin tarixi, mədəniyyəti, musiqisi, mətbəxi ilə bağlı nəşrlər nümayiş olunub və ziyarətçilərə hədiyyə edilib. Bu nəşrlər stendimizi ziyarət edən lüksemburqlulara və turistlərə ölkəmiz haqqında ətraflı məlumat almağa imkan verib. Gün ərzində Azərbaycanı təmsil edən stenddə qurulmuş böyük ekranda mədəniyyətimizi təşviq edən video yayımlanıb.

"Lüksemburq Beynəlxalq Bazarı"nda ziyarətçilərə "Made in Azerbaijan" brendi məhsulları, təravətli çaylar, meyvə şirələri, nar şirəsi, quru meyvələr təqdim olunub. Lüksemburqluların Milad bayramı ərəfəsində keçirilən bazardan yaxınları üçün hədiyyələr almaq imkanı olub.

Qeyd edək ki, ölkəmiz artıq yeddinci "Lüksemburq Beynəlxalq Bazarı"nda təmsil olunur. Multikulturalizm mühitində fəaliyyət göstərən bu bazar xeyriyyəçilik məqsədilə keçirilir, əldə edilən gəlir köməyə ehtiyacı olan ölkəyə verilir.

Azərbaycan stendi haqqında yerli RTL radiosunda da məlumat verilib.

● REPORTAJ

# Biləsuvarda keçirilən bu festival fərqli bir tədbir idi



Səhər saat 9 radələridir. Payızın küləkli, yağışlı-çiskinli havasından sonra doğan günəş öz zərrin şüalarını ətrafa səpələyir. Havanın belə ürəyəyatan olması insanlarda xoş ovqat, yüksək əhvali-ruhiyyə yaratmışdır.









Biləsuvar şəhərindən, rayonun qəsəbə və kəndlərindən adamlar axın-axın Heydər Əliyev parkına gəlirlər. Burada isə hər kəs öz işi ilə məşğuldur. Hamı birazdan başlanacaq tədbirdə milli mətbəximizin dadlı-ləzzətli nümunələrini təqdim etmək üçün hazırlıq görür. Kişilər samovara od salır, kabab çəkmək üçün manqaldakı kömürü yandırır, hindquşu ətini kəsib-doğrayaraq şişə çəkir, qadınlar isə yaydıqları yuxaları bişirmək üçün sacın altını qalayırlar. Rayon musiqi kollektivlərinin Qarabağ, Qələbə, vətənpərvərlik haqqında ifa etdikləri nəğmələr ətrafa yayılır. Bakıdan gələn bir neçə şirkət öz məhsullarını, eləcə də yerli qadınlar hazırladıqları salat və xörəkləri nümayiş etdirirlər. Məktəbyaşlı uşaqlara şirin içkilər, döş nişanları, şirniyyatlar, Amerika guşəsində isə qələmlər paylanır. "Aznar" QSC-nin məhsulları qonaqların diqqətini daha çox cəlb edir. Şirkətin nümayəndəsi İlqar Quliyev maraqlananlara məlumat verir ki, guşədəki şirələr, mürəbbələr, narşərablar hamısı Göyçayın meyvələrindən hazırlanıb.

Tədbirin başlanmasına müəyyən qədər vaxt qaldığını bildikdə festivalın keçirilməsi haqqında məlumat əldə etmək istədik. Bir xanımı işarə verdilər. Həmin xanım isə ərazi boyu çalışan adamlara göstərişlər verirdi. Özümüzü təqdim edərək festival haqqında məlumat almaq istədiyimizi bildirdik. "İndi açılış olacaq. Birazdan boş vaxt tapan kimi mən özüm sizə yaxınlaşaram", - dedi.

Bir neçə dəqiqədən sonra Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı Faiq Qürbətov və həmin xanım - Turizmə və Milli Mətbəxin İnkişafına Dəstək İctimai Birliyinin yaradıcısı Fəxrəndə Həsənzadə festivalı açaraq qonaqlara xoş istirahət arzuladılar. Açılışdan sonra F.Həsənzadə işlərinin çox olmasına baxmayaraq, bizə ətraflı məlumat verdi. Öyrəndik ki, Bakıdan festivala 50 həvəskar aşpaz gəlib.

Fəxrəndə xanım dedi ki, təşkilat 2017-ci ildə yaranmışdır və düz bir il öncə təsis etdiyi təşkilatın rəhbəri kimi Biləsuvar rayonuna gəlib, Vətən müharibəsində həlak olan şəhid ailələri, habelə qazilərlə görüşüb, onlara imkanı daxilində kömək etməyə çalışıb: "Burada olarkən rayon rəhbərliyi ilə söhbət zamanı Biləsuvarda yetişdirilən hindquşuların dadlı-ləzzətli olduğu barədə eşitdim. Rayon rəhbərliyinə təklif etdim ki, növbəti il noyabr ayının sonunda hindquşu festivalı keçirək. Rayon icra hakimiyyətinin başçısı da etiraz etmədi. Bu gün həmin tədbirimizi reallaşdırırıq. Bakıdan gələn həvəskar aşpazlar, habelə şirkətin nümayəndələri hindquşundan hazırlanmış müxtəlif xörəklər təqdim edirlər. Bildiyimiz kimi, digər yayonlarda da milli mətbəximizlə əlaqədar belə festivallar keçirilir. Biləsuvardakı bugünkü festival isə sırf hindquşundan hazırlanan yeməklərin nümayiş etdirilməsi məqsədilə təşkil olunub. Yeri gəlmişkən bildirim ki, tədbirimizə ABŞ-ın Azərbaycandakı səfirliyi sponsorluq edir".

Fəxrəndə xanım onu da vurğuladı ki, hər il noyabrın sonuncu həftəsinin cümə axşamı Amerikada Şükranlıq bayramı qeyd olunur və həmin bayramda 47 milyon hindquşu kəsilir.

Orta yaşlı bir qadın bizə yaxınlaşır. Fəxrəndə xanıma: "Çox yaxşı tədbirdir. Minnətdaram ki, məni də dəvət etmisiniz. Mən də Biləsuvardan olan şəhid ailələrinə, qazilərə təmənnasız xidmət etməyə həmişə hazıram", - deyir. Tanış oluruq. Məlum olur ki, İradə xanım Abdullayeva həkim-oftalmoloqdur.

Bu arada Bakıdan gələn evdar qadınlardan Yuliya Əsgərova və Rəna Səlimova Fəxrəndə xanıma hindquşu ətindən hazırlayıb gətirdikləri yeməklər barədə məlumat verirlər.

Saat 12 radələridir. Qonaqlar musiqi sədaları altında rəqs edir, şənlənir, deyibgülürlər. Yerli həvəskar aşpazların bişirdikləri hindquşu kababının qoxusu ətrafı bürüyüb. Festivala gələnlər kababdan götürüb parkdakı ağacların altında qoyulmuş masaların arxasında əyləşir, şirin söhbət edə-edə kababdan dadırlar.

İki azyaşlı oğlan uşağı diqqətimizi cəlb edir. Onlara yaxınlaşırıq. Ataları da yanlarındadır. Öyrənirik ki, Nəsimikənd sakini Elnur Kazımdır. Vətən müharibəsi iştirakçısıdır. Hər iki oğlunun gələcəkdə Azərbaycan Ordusunda xidmət etməsini görmək arzusundadır.

Parkın bir tərəfində nərd yarışı keçirilir. Başqa bir tərəfdə isə kənd adamları ev təsərrüfatlarında bəslədikləri hindquşlarını nümayiş etdirirlər.

Axşamacan davam edən festival onu göstərdi ki, başa çatmaqda olan 2021-ci ili uğurla yola salan biləsuvarlılar yaxşı işləməklə yanaşı, yaxşı istirahət etməyi də bacarırlar.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

# Mediasiya Şurası vətəndaşlarla kommunikasiya imkanlarını artırıb

Mediasiya Şurası daxil olan müraciətlərdə vətəndaş məmnunluğunu təmin etmək və eyni zamanda, bütün vasitələrlə Mediasiya Şurasına əlçatanlığı təmin etmək məqsədilə vətəndaşlarla kommunikasiya imkanlarını artırıb.

AZƏRTAC xəbər verir ki, Mediasiya Şurası qaynar xəttinə (1927) edilən müraciətlərin sayı həddindən artıq çox olduğu üçün bütün müraciətləri vaxtında cavablandıra bilməməsi ilə əlaqədar alternativ əlaqə vasitələrini vətəndaşların diqqətinə təqdim edir.

Mediasiya Şurası Çağrı Mərkəzi: 012 (1927)

Mobil nömrələr: +994 55 931-66-86, +994 55 931-66-87

E-poçt adresi:

Vətəndaş müraciətləri üçün: muraciet@mediasiya.gov.az

Mediatorların fəaliyyəti ilə bağlı şikayətlər üçün sədrə müraciət: sedr@mediasiya.gov.az

Mediatorların fəaliyyətinin qiymətləndirilməsi üçün: http://mediasiya.gov.az/faydali/sorgular

Sosial şəbəkələr:

Qeyd edilən səhifələrin mesaj bölümünə müraciət etməklə mediasiya prosesinə müraciət barədə məlumat və dəstək almaq olar.

Feysbuk: Mediasiya Şurası - https://www.facebook.com/mediationcouncilazerbaijan

İnstaqram: mediasiyasurasi - **www.instagram.com/mediasiyasurasi/**

Teleqram: Mediasiya Şurası Bot.

# ANAMA: "Ötən həftə 50 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib"

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə icra olunan minatəmizləmə əməliyyatları barədə həftəlik məlumatı açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildiriblər ki, noyabrın 22-dən 27-dək Tərtər, Ağdam, Füzuli, Şuşa, Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarının ərazilərində aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 1, tank əleyhinə 36 mina və 14 ədəd partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Həftə ərzində 50 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.












**“Şərq qapısı” qəzeti - 100**

# “Şərq qapısı” dünyası

Azərbaycanın digər regionlarında olduğu kimi, Naxçıvanda da ziyalılar XIX əsrin ikinci yarısından etibarən Azərbaycan, Rusiya və Şərq mətbuatında iştirak etmişlər. Naxçıvan ziyalılarının mətbuatla əlaqələrinin yaranması və genişlənməsi regionda milli maarifçilik hərəkatının inkişafına müsbət təsir göstərmişdir. Yerli ziyalıların təşəbbüsü ilə dünyanın müxtəlif yerlərindən alınan “Tərcüman” (Baxçasaray), “Həblülmətin” (Kəlküttə), “Süräyya”, “Pərvəriş” (Qahirə), “Əxtər” (Tehran), “Novoye obozreniye” (Peterburq), “Kavkaz” (Tiflis) və sair mətbuat orqanları Naxçıvan maarifçiləri arasında geniş şəkildə oxunub müzakirə olunmuşdur.

Naxçıvanda müxtəlif qəzetlərin xüsusi təmsilçilərinin müəyyənləşdirilməsi mətbuat orqanları ilə əməkdaşlığın və əlaqələrin yaranmasına və inkişaf etməsinə səbəb olmuşdur. Qurbanəli Şərifzadənin “Həblülmətin”, Əliməmməd Xəlilovun “Kavkaz”, Eynəli Sultanovun “Novoye obozreniye”, Məhəmməd Tağı Sidqinin, Paşa ağa Sultanovun “Tərcüman” qəzetlərinin bölgə üzrə daimi müvəkkili vəzifəsini daşımaları abunəçilərin sayca artması ilə bərabər, həm də adıçəkilən qəzetlərdə Naxçıvana dair xəbərlərin, məlumatların dərc olunmasına şərait yaratmışdır. Axtarışlar göstərir ki, “Əkinçi” qəzeti də Naxçıvanda alınıb oxunmuşdur. Mətbuatla əlaqələrin genişlənməsində Məhəmməd ağa Şahtaxtlının nəşr etdirdiyi “Şərqi-Rus” qəzeti mühüm rol oynamışdır. Cəlil Məmmədquluzadənin baş redaktoru olduğu “Molla Nəsrəddin” jurnalında da Naxçıvanın əhli-qələmləri fəal iştirak etmişlər.

Bütün bunlarla bərabər, Naxçıvanda ilk mətbuat orqanı XX əsrin ikinci onilliyində yaradılmışdır. Belə ki, 1 noyabr 1921-ci ildə Naxçıvan Sosialist Şura Cümhuriyyətinin Cavanlar İttifaqı Ölkə Komitəsinin orqanı olan “Cavanlar həyatı” qəzetinin nəşrə başlaması ilə burada qəzetçilik işinin təməli qoyulmuşdur. Bundan sonra Naxçıvanda “Füqəra səsi” adlı başqa bir qəzet də çap olunmuşdur. Cəmisi bir neçə sayı çap olunan həmin qəzetlərin indiyədək heç bir nüsxəsi qalmamış, yalnız haqlarında müəyyən məlumatlar dövrümüzə qədər gəlib çıxmışdır.

Naxçıvanda mükəmməl, əsaslı və davamlı şəkildə çap olunan mətbuat orqanı “Şərq qapısı” qəzetidir. “Şərq qapısı” bir əsr ərzində ardıcıl şəkildə fəaliyyət göstərib, özünün qəzetçilik və publisistika məktəbini yaratmış mətbuat orqanıdır. “Şərq qapısı” qəzeti 9 noyabr 1921-ci il tarixdən etibarən kiçik fasilələrlə bu günədək fəaliyyətini uğurla davam etdirməkdədir. Naxçıvan Xalq Komissarları Şurasının sədri Həmid Sultanovun köməyi ilə nəşrə başlamış “Şərq qapısı” qəzetinə keçən əsrin iyirminci illərində Naxçıvan Xalq Komissarı Həmid Mahmudov və nazirliyin digər məsul şəxsləri - Rzaqulu Axundov, Vahab Həsənzadə, Əli Həsənzadə, Həsən Əlizadə, Əlisəttar Qılmanov və Abbas Gülməmmədov qısa müddətdə bir-birilərini əvəz etməklə redaktorluq etmişlər. “Şərq qapısı” qəzeti 1926-1927-ci illərdə sonralar tanınmış yazıçı kimi çıxış edən Əvəz Sadığın redaktorluğu ilə nəşrini davam etdirmişdir.

“Şərq qapısı” qəzetinin inkişafında 1933-1934-cü illərdə Naxçıvanda yaşayıb, bu qəzetə redaktorluq etmiş gənc yazıçı Əli Vəliyevin mühüm rolu olmuşdur. Əli Vəliyevin redaktorluğu dövründə “Şərq qapısı” qəzetinin ictimai təsir imkanları daha da genişləndirilmiş, ədəbiyyat və mədəniyyət məsələlərinə diqqət artırılmışdır. Öz növbəsində “Şərq qapısı” qəzetindəki fəaliyyəti Əli Vəliyevə gənc bir yazıçı kimi həyatı və insanları daha yaxından tanımaq baxımından zəngin təcrübə bəxş etmişdir. Əli Vəliyev “Budağın xatirələri” romanında “Şərq qapısı”nın muxtar respublikadakı ədəbi qüvvələrin, yaradıcılıq mühitinin inkişafından söz açarkən aşağıdakıları yazmışdır: “Azərbaycan şura yazıçılarının birinci qurultayı qarşısında hər nömrədə material çap edirdik. Bircə nömrəsi buraxılan “Ədəbiyyat qəzeti”ndə (“Şərq qapısı” qəzetinin ədəbiyyat əlavəsi nəzərdə tutulur - İ.H.) bir çox yeni müəlliflərin əsərləri çap olunmuşdur. Siyasi şöbə rəisinin (həmin dövrdə Naxçıvan MTS-si siyasi şöbəsinin rəisi Mirzə İbrahimovun - İ.H.) ilk hekayəsi maraqlı idi. Qəzetdə təkcə Naxçıvan həyatı işıqlandırılmırdı. Bakıda nəşr olunan kitablar haqqında rəylər də var idi. Proletar Yazıçılar Cəmiyyətinin rəhbər işçilərinə müəyyən eyhamlar vuran baş məqalədə bəzi tənqidçilərin səhvləri də göstərilirdi”.

Xalq yazıçısı Mirzə İbrahimov da 1933-1934-cü illərdə Naxçıvanda çıxan “Sürət” adlı qəzetin redaktoru kimi fəaliyyət göstərmiş, Əli Vəliyevlə birlikdə burada ədəbi-ictimai mühitin inkişafı yollarında çalışmışdır. Naxçıvan Maşın-Traktor Stansiyasının orqanı olan “Sürət” qəzetindəki fəaliyyəti, paralel olaraq “Şərq qapısı” qəzeti ilə əməkdaşlığı Mirzə İbrahimov üçün böyük həyat məktəbi olmuşdur. Vaxtilə Mirzə İbrahimov dərin səmimiyyətlə etiraf etmişdi ki, “siyasi şöbədəki iş məni xalqın həyatı və mübarizəsi ilə canlı surətdə bağladı. Mənə elə şey verdi ki, onu heç bir kitabdan öyrənmək olmazdı. Mən canlı insanları, onların gərgin əmək, həyəcan və iztirablarla dolu gündəlik həyatını gördüm, o dövrdə kənddəki qızğın sinfi mübarizənin natural səhnələrini müşahidə etdim”.

Mirzə İbrahimovun “Həyat” pyesi onun Naxçıvanda çalışdığı dövrün zəngin hadisələri əsasında yazılmışdır. Əli Vəliyevin “Budağın xatirələri” romanında da Naxçıvan hadisələrindən istifadə olunmuşdur. Romandakı “Araz qırağında” fəslindən Əli Vəliyevin həyatı və fəaliyyətinin Naxçıvan dövrünə, “Şərq qapısı” qəzetinin redaktoru kimi fəaliyyətinə aid qiymətli məlumatları da öyrənmək olur.

Siyasi repressiya dövründə ölkədə baş verən ictimai-siyasi hadisələrin gərginliyi ilə əlaqədar olaraq “Şərq qapısı” qəzetinin kollektivi də ciddi təqiblərlə üzləşməli olmuşdur. Qanlı 1937-ci ildə “Şərq qapısı” qəzetinin redaktorları teztez dəyişdirilmiş, həmin vəzifədə çalışan Hüseyn Mahmudov, Şirəli Şirəliyev, Ə.Hacızadə, Xəlil Əmirov, Musa İsmayılov siyasi təqiblər və təzyiqlər nəticəsində işdən çıxarılmış, ağır cəzalara məhkum edilmişlər.

Böyük Vətən müharibəsi dövründə “Şərq qapısı” qəzetinə yazıçı-publisist Məhəmmədəli Tarverdiyevin baş redaktorluq etdiyi 1941-1945-ci illərdə qəzet müharibə illərinin arxa cəbhədəki və döyüş mövqelərindəki ritmini əks etdirmiş, səfərbərlik və vətənpərvərlik ruhunda təsirli yazılar çap etmişdir. Şair İslam Səfərlinin xatirələrindən, şeirlərindən aydın olur ki, müharibə dövründə “Şərq qapısı” qəzeti “cəbhə ilə xalq arasında körpü yaradan mətbuat orqanı kimi müharibə bölgələrinə, döyüş səngərlərinə qədər gedib çata bilmişdir. Müharibədən sonrakı dövrlərdə “Şərq qapısı” qəzeti tarixi yolunu davam etdirərək, Azərbaycanda gedən proseslərin zəminində Naxçıvan həqiqətlərini əks etdirmişdir. Müxtəlif illərdə “Şərq qapısı” qəzetinə baş redaktorluq etmiş Manaf Xudiyev (1953-1956), Fərman Tağıyev (1956-1960), Məmməd Bektaşi (1961-1962) və Hüseyn İbrahimov (1962-1965) dövrün ruhunu əks etdirməklə bərabər, regionda baş verən yeniləşmə hadisələrinin, ictimai meyillərin inkişafına da müəyyən diqqət yetirmişlər.

Rəsmi dövlət qəzeti olmasına baxmayaraq, “Şərq qapısı” qəzetində ədəbiyyat və incəsənət məsələlərinə, mədəniyyət tədbirlərinin işıqlandırılmasına həmişə xüsusi diqqət yetirilmişdir. Ədəbiyyat və incəsənət məsələlərinə geniş yer ayırmaq “Şərq qapısı” qəzetində təməldən gələn bir ənənə kimi daim daha da qüvvətləndirilmişdir. “Şərq qapısı” qəzeti Naxçıvan Vilayət Partiya Komitəsinin rəsmi mətbuat orqanı olmaqdan başqa, həm də “Ədəbiyyat və incəsənət” qəzetinin də funksiyalarını həyata keçirmişdir. Müharibədən sonrakı dövrdə, xüsusən də XX əsrin əllinci illərinin ikinci yarısından sonra “Şərq qapısı” qəzetində ədəbiyyat və incəsənət məsələlərinə diqqət daha da artırılmışdır. Bu, həm də bədii yaradıcılıqla məşğul olan Məmməd Bektaşinin və yazıçı Hüseyn İbrahimovun qəzetə redaktorluq etdiyi illərdə daha çox nəzərə çarpır. Ədəbiyyat məsələlərinin önə çıxması keçmiş sovet cəmiyyətində XX əsrin əllinci illərinin ortalarında “Xruşov dövrü” kimi səciyyələnən mərhələnin gətirdiyi “istiləşmədən” başqa, qəzetin redaktorlarının bədii yaradıcılıqla məşğul olduqları ən qaynar dövrünə təsadüf etməsi də əhəmiyyətli rol oynamışdır. Bundan başqa, Azərbaycanda ədəbiyyatda və mətbuatda “altmışıncılar” dalğasının yaranması da bütövlükdə ədəbi-mətbu sözə, o cümlədən “Şərq qapısı”nın ab-havasına müsbət təsir göstərmişdir. “Şərq qapısı” qəzetində çap olunmuş bir çox bədii-publisist yazılardakı milli mövqeyin, vətəndaş münasibətinin bəzi hallarda mərkəzin senzurasından uzaq olduğu üçün Azərbaycan rəsmi mətbuatında baş verən canlanmadan da irəli gəldiyi müşahidə edilir. Buna görə də qeyd etmək olar ki, “Şərq qapısı” qəzeti XX əsrin altmış-yetmişinci illərində daha peşəkar və demokratik bir dövrünü yaşamışdır.

Təcrübəli yazıçı Hüseyn İbrahimovun “Şərq qapısı” qəzetinə rəhbərlik etdiyi 1962-1965-ci illərdə qəzetdə “Sadə adamlar haqqında hekayələr” başlığı altında gedən bədii-publisist materiallar mətbuatda və ədəbiyyatda yenidən sadə insanlara, təkcə onun fəaliyyətinin ideoloji məqamlarına deyil, həm də adi əhvalatlarına, gündəlik yaşayış tərzinə, əmək cəbhəsindəki işinin romantikasına, mənəvi aləminə də qayıdışın əks-sədasına çevrilmişdir. Xüsusən altmış-yetmişinci illərdə “Şərq qapısı” qəzetində oçerk janrında yazıların genişlənməsi qəzetdə sadə insanların həyatı, mənəvi mühiti və fəaliyyətinə diqqətin artmasının göstəricisidir. “Şərq qapısı”nın oçerkləri jurnalistika baxımından olduğu kimi, bədiilik xüsusiyyətləri ilə də diqqəti cəlb edirdi. Bu oçerklər, sözün həqiqi mənasında, sadə əmək adamlarının fəaliyyətinə və yerli ziyalıların axtarışları və nailiyyətlərinə həsr edilmiş publisist hekayələr təsiri bağışlayır. Oçerk janrında yazılmış məqalələr sonrakı mərhələlərdə də yaradıcılıqla davam etdirilmişdir. Fikrimizcə, “Şərq qapısı” qəzetində oçerk mövzusunda elmi cəhətdən əhəmiyyətli bir dissertasiya, sanballı bir monoqrafiya yazmaq olar. Eyni zamanda “Şərq qapısı” qəzetində felyeton janrı mövzusu da ciddi elmi tədqiqatın mövzusu ola bilər. Müxtəlif illərdə “Şərq qapısı” qəzetində rəngarəng publisistika janrlarında məqalələrlə çıxış etmiş Məmmədəli Tarverdiyev, Sənubər Kərimova, Məmməd Məmmədov, Nurəddin Babayev, Aydın Tarverdiyev və başqalarının yüksək peşəkarlıq səviyyəsindəki jurnalistik fəaliyyəti, sözün həqiqi mənasında, publisistika sənətkarlığına əsl nümunə sayıla bilər.

Ümumiyyətlə, “Şərq qapısı” qəzetinin fəaliyyətində ideologiyanın təbliği ilə yanaşı, həm də ədəbiyyatda və mətbuatda ölkə həyatının, xalq amilinin, milli-mənəvi dəyərlərin, sadə insanların həyatının təsvirinə və təqdim edilməsinə xüsusi bir meyil olmuşdur. Bu mənada qəzetin partiya mətbuatı olmasına baxmayaraq, “Şərq qapısı” qəzetindəki xalq və ölkə maraqlarının ifadə olunmasına həmişə xüsusi diqqət yetirilmişdir. “Şərq qapısı” qəzeti ümumi siyasi təbliğatçılıq funksiyasından çox Naxçıvanın tarixinə, mədəniyyətinə, ədəbiyyatına və mənəviyyatın inkişafına uğurla xidmət göstərmişdir.

Xüsusən XX əsrin yetmişinci illərindən etibarən “Şərq qapısı” qəzetinin həyatında yeni tarixi dövr başlanmışdır. Əvvəla, görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycanı Sovetlər İttifaqının ən qabaqcıl respublikalarından biri səviyyəsinə çatdırması və ölkədə milli-mənəvi dəyərlərin inkişafına xüsusi diqqət yetirilməsi mövcud ideologiyaya da öz təsirini göstərmişdir. Bu zamandan etibarən bütövlükdə respublika mətbuatında, o cümlədən də “Şərq qapısı” qəzetində Azərbaycanın, o cümlədən Naxçıvan Muxtar Respublikasının çoxəsrlik tarixinin, ədəbiyyatının və milli mədəniyyətinin təbliği zamanın əsas sifarişinə çevrilmişdir. Bu tarixi mərhələdə “Şərq qapısı” qəzetində dil məsələlərinə, ədəbiyyat və incəsənətə, mənəviyyata və tarixə həsr olunmuş, vətənpərvərlik ruhunun qüvvətlənməsinə xidmət edən yazılar geniş yer tutmuşdur. Keçən əsrin yetmiş-səksəninci illərində “Şərq qapısı” qəzetinə redaktorluq etmiş Rəşid Qazıbəyov (1965-1970), Vahid Bağırov (1970-1975), Sənubər Kərimova (1975-1985), Akif Axundov (1986-1990) qəzetdə dövrün ruhuna uyğun ictimai-mədəni proseslərin əks etdirilməsini təmin etmiş, bu yolla tarixə qayıdış, milli-mənəvi özünüdərk istiqamətində geniş marifləndirilmə işləri aparmışlar.

Sonrakı dövrdə “Şərq qapısı” qəzetinin redaktoru olmuş Səxavət Kəngərli, Məmməd Məmmədov, Rabil Kətanov, Tural Səfərov yeni tarixi dövrün vəzifələrini və nailiyyətlərini işıqlandırmaq yollarında fəaliyyət göstərmişlər. Məmməd Məmmədovun “Şərq qapısı” qəzetindən başlanan jurnalistlik fəaliyyəti ölkə mətbuatı miqyasında müasir publisistika nümunələrinin yaradılması səviyyəsinə qədər inkişaf etmişdir. Məmməd Məmmədovun müstəqillik illərində “Şərq qapısı” və “Azərbaycan” qəzetlərində dərc olunmuş publisistik məqalələri yeni dövr ölkə publisistikasının ən yaxşı örnəklərindən olmuşdur. Hazırda “Şərq qapısı” qəzetinin baş redaktoru vəzifəsində çalışan Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti, filologiya üzrə fəlsəfə doktoru Mehriban Sultan jurnalistikanın tarixi təcrübəsi ilə müasirlik imkanlarını üzvü surətdə əks etdirən elmi və publisistik məqalələri ilə özünəməxsus qəzetçilik missiyasını məsuliyyətlə həyata keçirir. Cəlil Məmmədquluzadənin redaktoru olduğu “Yeni yol” qəzetinin, Naxçıvan Dövlət Universitetinin mətbuat xidməti və jurnalistika ənənələri əsasında formalaşmış Mehriban Sultanın “Müasir Naxçıvan” kitabında toplanan məqalələr yeni dövrün elmi publisistikasının mükəmməl nümunələrindəndir.

Muxtar Respublikanın ədəbi-mədəni mühitinin işıqlandırılmasında və istiqamətləndirilməsində “Şərq qapısı” qəzeti mühüm rol oynamışdır. Uzun illər ərzində “Şərq qapısı” qəzetində redaktorluq etdiyi dövrdə Xalq yazıçısı Hüseyn İbrahimov və “Ədəbiyyat və incəsənət” şöbəsinə uğurla rəhbərlik etmiş görkəmli şair Hüseyn Razi “Ədəbiyyat səhifələri” vasitəsilə muxtar respublika ədəbi-mühitini idarə etmişdir. Yeni nəsil yazıçı və şairlərin üzə çıxarılmasında və istiqamətləndirilməsində Xalq yazıçısı Hüseyn İbrahimovun, “Şərq qapısı” qəzetinin və vətəndaş şair Hüseyn Razinin müstəsna xidmətləri vardır. “Şərq qapısı” qəzetinin “Ədəbiyyat səhifəsi” muxtar respublikanın “Ədəbiyyat qəzeti” funksiyasını yerinə yetirmişdir. Yüksək tələbkarlıq şəraitində qəzetdə şeirləri və hekayələri “Ədəbiyyat səhifəsi”ndə yer alan gənc qələm sahibləri böyük ədəbiyyata vəsiqə almaq etimadı qazanmışlar. “Şərq qapısı”nın “Ədəbiyyat səhifəsi” muxtar respublikada böyük ədəbiyyat cəbhəsinin hərəkətverici qüvvəsi, ədəbi kompası vəzifəsini həyata keçirmişdir. Belə ki, “Ədəbiyyat səhifəsi”ndə bir neçə dəfə sanballı bədii yazılarla çıxış etmək səlahiyyəti qazana bilən istedadlı gənclər Azərbaycan Yazıçılar İttifaqına zəmanət almış hesab olunurdular. Uzun illər ərzində, sözün həqiqi mənasında, “Şərq qapısı” qəzeti ədəbi məktəbi yaradılmışdır. Naxçıvanda yaşayıb-yaratmış elmi-ədəbi qüvvələr “Şərq qapısı” qəzeti ədəbi məktəbində yetişib formalaşmışlar. “Şərq qapısı” qəzetində dərc olunmuş ədəbi icmallar, ədəbiyyatşünaslıq tədqiqatları, ədəbi-tənqidi məqalələr bu qəzet vasitəsilə ədəbi mühitin gedişatının dəyərləndirilməsinə və istiqamətləndirilməsinə xidmət etmişdir.

XX əsrin II yarısından bu günə qədər Naxçıvanda yaranmış ədəbiyyat ordusunun üzvləri olan yazıçı və şairlər - Müzəffər Nəsirli, Hüseyn İbrahimov, Hüseyn Razi, Əliyar Yusifli, Kəmalə Əkbər Məftun, Adil Qasımov, Həmid Arzulu, Elman Həbib, Muxtar Qasımzadə, Asim Yadigar, Xanəli Kərimli, Fərəc Fərəcov, Vaqif Məmmədov, Elxan Yurdoğlu, Nərgiz İsmayılova və başqaları “Şərq qapısı” məktəbini təmsil edirlər.

Naxçıvanda elmin bir çox sahələri - ədəbiyyatşünaslıq, tarix, arxeologiya, dilçilik, folklorşünaslıq kimi elmlərin sürətlə inkişaf etməsinə “Şərq qapısı” qəzeti böyük qapı açmışdır.

Xüsusən ədəbiyyatşünasların böyük bir nəsli “Şərq qapısı” zəminində yetişib formalaşmışdır. Akademik İsa Həbibbəyli, ustad Lətif Hüseynzadə, Yavuz Axundlu, İzzət Maqsudov, Məhərrəm Cəfərli, Hüseyn Həşimli, Yusif Səfərov, Əsgər Qədimov, Fərman Xəlilov kimi elmlər doktorları, İman Cəfərli, Hikmət Mehdiyev, Ramiz Qasımov, Elxan Yurdoğlu, Seyid Surə, Şəhla Şirəliyeva, Xumar Məmmədova, Seyfəddin Eyvazov, Mehriban Sultan, Aygün Orucova və başqaları kimi filologiya üzrə fəlsəfə doktorları əsas elmi tapıntılarını, mühüm elmi nəticələrini ilk dəfə “Şərq qapısı”nda dərc etdirərək elmi ictimaiyyətə tanıtmışlar.

Naxçıvan Muxtar Respublikasının rəsmi mətbuat orqanı olan “Şərq qapısı” qəzetinin adı və mövqeyi regional funksiyaları deyil, böyük strateji mənaları ifadə etdiyi üçün sovet dövlətinin ən yüksək dairələrini düşündürməli olmuşdur. XX əsrin əvvəllərində “Şərq qapısı” adı SSR-nin Şərq siyasətinə uyğun gəldiyinə görə məqbul sayılaraq qəbul edilmişdir. Əslində, qəzetə verilən ad bu mətbuat orqanını yaradanların uzaqgörən baxışlarının ifadəsi idi. “Şərq qapısı” adında Azərbaycanın qonşu ölkələrlə münasibətlərdə Naxçıvan Muxtar Respublikasının rolu və yeri məsələsi öz əksini tapmışdır.

Bundan başqa, “Şərq qapısı” sözü keçən əsrin əvvəllərində bolşeviklərin Ermənistan dövləti yaratmaq üçün Zəngəzuru zorla Azərbaycandan qoparmaqla ölkənin əsas ərazisindən təcrid edilmiş Naxçıvanın Şərq tərəfdən olan dayaqları mənasını da ifadə edirdi. Bu ad Sovetlər İttifaqının rəhbərliyindəki Naxçıvana Ermənistanın maraqları bucağından baxan qüvvələrə də cavabın ifadəsi idi. Bütün bunlardan başqa, həm də artıq XX əsrin səksəninci illərindən tədricən Naxçıvan Muxtar Respublikasının yaxın xarici türk-müsəlman dövlətləri ilə, həmin ölkələrdə yaşayan azərbaycanlı əhali ilə əlaqələrinin yaranması ehtimalı sovet rejiminin bu dövrdəki Şərq siyasəti ilə üst-üstə düşmürdü. Analoji proseslər Orta Asiya respublikalarında da mövcud idi. Ona görə də sovet hökumətinin Azərbaycanda və Özbəkistanda çıxan yerli qəzetlərin həm də rus dilində eyni adla çap edilməsi haqqındakı bəhanə xarakterli qərarına əsasən, “Şərq qapısı” qəzeti 30 oktyabr 1979-cu ildən “Sovet Naxçıvanı” adı ilə hər iki dildə nəşrini davam etdirməli olmuşdur.

Geniş məna daşıyan “Şərq qapısı” əvəzinə müəyyən olunmuş “Sovet Naxçıvanı” adı sosialist ideologiyasının təbliğinə xidmət edən format kimi mövcud regimin prinsiplərinə daha çox uyğun gəlirdi. Lakin adının dəyişməsinə baxmayaraq, qəzetin yaradıcı kollektivi “Şərq qapısı”nın ənənələrini qoruyub saxlamış və daha da inkişaf etdirmişdir. Rus dilində çıxan “Sovetskaya Naxçivan” qəzetindən isə yalnız ideoloji tribuna kimi yox, həm də Muxtar Respublikanın daha geniş miqyasda tanıdılması üçün istifadə edilmişdir. Muxtar respublika ziyalıları, “Şərq qapısı”nın kollektivi müxtəlif vasitələrlə doğma qəzetlərinin adının qaytarılması üçün səylər göstərmişlər. Həmin dövrdə “Sovetskaya Naxçivan” qəzetinin redaktoru olmuş Sənubər Kərimovanın Azərbaycan KP MK Naxçıvan Vilayət Komitəsinə göndərdiyi məktubda rusdilli jurnalist kadrlarının və zəruri maddi-texniki bazanın olmaması səbəbi ilə “Sovetskaya Naxçivan” qəzetinin çap edilməsinin qeyri-mümkünlüyü diqqət mərkəzinə çatdırılmışdır. Məktubda deyilirdi: “Naxçıvanda rus dilində hazırlıqlı qəzet işçiləri olmadığından kadr məsələlərində ciddi çətinliklərlə rastlaşırıq. Peşəkar tərcüməçilər olmadığından tərcüməçi ştatlarına rus dili müəllimlərini cəlb etmişik. Onlar isə tərcümə işini operativ və lazımi keyfiyyətdə yerinə yetirə bilmirlər. Bakıda yaşayan bir neçə tərcüməçiyə müraciət etmişik. Lakin razılıq verməmişlər... Habelə Bakıdan işə dəvət olunan yoldaşlara mənzil sahəsi ayrılması zəruridir.

Qəzetin rus variantı üçün Naxçıvan mətbəəsində maşın və mexanizmlər çatışmır. Dəfələrlə müraciət olunmasına baxmayaraq, mətbəə bu günədək lazımi texniki avadanlıqla təchiz olunmayıb. Sinkoqrafiya sexi işə salınmayıb. Peşəkar linotipçilər olmadığından yazma sexinə orta məktəb məzunları cəlb olunur.

Qeyd olunan çətinliklər qəzetin rus variantının vaxtında və keyfiyyətli çap edilməsini təhlükə altına alır”.

Beləliklə, ziyalıların səyləri ilə nəhayət, 1989-cu ildə “Şərq qapısı” qəzetinin adı yenidən bərpa olunmuş, “Şərq qapısı” ruhu davam etdirilmişdir.

“Şərq qapısı” qəzetinin nəşri tarixində 1990-cı ildə daha bir addım atılmışdır. Yaxın tariximizdən məlum olduğu kimi, 19 yanvar 1990-cı ildə SSRİ dövlətinin dəstəyi ilə Ermənistan SSR Naxçıvan Muxtar Respublikasını işğal etmək niyyətini həyata keçirmək məqsədilə muxtar respublikanın ərazilərinə genişmiqyaslı hərbi hücumlar təşkil etmişdir. Sovet dövlətinin rəhbərliyindən heç bir dəstək ala bilməyən yerli əhalinin tələbi ilə 20 yanvar 1990-cı ildə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının Ali Soveti həm də Bakıda baş vermiş qanlı hadisələrə etiraz əlaməti olaraq Naxçıvanın SSRİ-nın tərkibindən çıxması haqqında qərar qəbul etmişdir. “Şərq qapısı” qəzeti həmin qərarı çap etməklə müstəqil Naxçıvan Muxtar Respublikasının mətbuat orqanı funksiyasını həyata keçirmişdir. 1990-cı ilin yanvar-fevral aylarında “Şərq qapısı” qəzetinin 8 sayı “Bütün ölkələrin proletarları, birləşin” şüarı ilə deyil, “Birlik və demokratiya uğrunda” çağırışlı başlığı ilə çap olunmuşdur. Bu, təkcə “Şərq qapısı” qəzetinin yox, XX əsr sovet mətbuatının tarixində nadir hadisədir. Deməli, “Şərq qapısı” qəzeti sovet dövründə müstəqil qəzet kimi fəaliyyət göstərmiş ilk mətbuat orqanıdır.

“Şərq qapısı” qəzetinin senzura nəzarəti olmadan çıxan həmin tarixi saylarında Naxçıvan Muxtar Respublikasının konstitusiya hüquqlarının müdafiəsi, torpaqlarımızın işğaldan qorunmasını təşkil etmək üçün əhalinin səfərbər edilməsi, vətənpərvərlik çağırışlarının xalqa çatdırılması, çaşqınlıq, təxribat yaratmaq niyyətlərinə ayıq-sayıq baxış kimi məsələlər haqqında aktual məqalələr çap olunmuşdur. Eyni zamanda həmin dövrdə “Şərq qapısı” qəzeti Bakıda qanlı 20 Yanvar hadisələri zamanı Sovet ordusu tərəfindən susdurulmuş ölkə mətbuatının da funksiyalarını yerinə yetirərək, faciəli Azərbaycan həqiqətlərinin xalqa və qonşu ölkələr vasitəsilə dünya ictimaiyyətinə çatdırılmasına məsuliyyətlə xidmət etmişdir.

Siyasi rəhbərliyin təzyiqi ilə ölkə mətbuatında görkəmli dövlət xadimi Heydər Əliyevin fəaliyyətinin işıqlandırılmasına məhdudiyyətlərin qoyulduğu 1990-1993-cü illərdə “Şərq qapısı” qəzeti Ulu Öndərin ideallarının və tarixi, addımlarının hər anını cəmiyyətə təqdim etmişdir. Hələ Moskvada həyatının istefadan sonrakı məsuliyyətli dövrünü yaşadığı illərdə “Şərq qapısı” qəzeti xalqımızın Ümummilli Lideri Heydər Əliyevin “Teatr” jurnalında çap olunmuş müsahibəsini tərcümə edərək oxuculara çatdırmışdır. Fərdi təqaüdçü kimi Azərbaycana qayıtdıqdan sonra Heydər Əliyev ilk müsahibələrindən birini “Şərq qapısı” qəzetinə vermişdir. Hələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsinə seçilməmişdən qabaq Heydər Əliyevin xalqla görüşləri, müxtəlif tədbirlərdə iştirakı və çıxışları “Şərq qapısı” qəzetində özünə yer almışdır. Beləliklə, “Şərq qapısı” qəzeti Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin çoxcəhətli fəaliyyətinin şərəfli salnaməsini yaratmışdır. Görkəmli dövlət xadimi Heydər Əliyevin həyatı və fəaliyyətinin Naxçıvan dövrünün bütün məqamları “Şərq qapısı” qəzetində çap olunan məqalələrdə və nadir foto şəkillərdə qorunub saxlanılır. Ümummilli Lider Heydər Əliyev “Şərq qapısı” qəzetinin roluna və xidmətlərinə yüksək qiymət vermişdir. Onun 1990-cı ildə “Şərq qapısı” qəzetinə verdiyi ilk müsahibədə dediyi sözlər bu qəzetin çoxillik tarixinin pozulmaz naxışları kimi yaddaşlara yazılmışdır: “Mən “Şərq qapısı” qəzetinin təsiri ilə tərbiyələnmişəm. Hələ gənc ikən burada orta məktəbdə, pedaqoji texnikumda oxuyanda müxtəlif məsələləri öyrənmək üçün “Şərq qapısı”ndan çox istifadə etmişəm. O vaxtdan “Şərq qapısı” nüfuzlu qəzet kimi hafizəmdə qalıb”.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov “Şərq qapısı” qəzetinin ideya və peşəkarlıq baxımından nüfuzlu mətbuat orqanı kimi fəaliyyətini davam etdirməsi üçün geniş tədbirlər həyata keçirmiş, ardıcıl olaraq böyük diqqət və qayğısını göstərmişdir. Bunun nəticəsidir ki, “Şərq qapısı” qəzeti ən müasir poliqrafiya avadanlıqları ilə təchiz olunmuşdur. Ali Məclisin Sədrinin qayğısı sayəsində bu gün “Şərq qapısı” qəzeti ölkə üzrə özünə məxsus yüksək maddi-texniki bazaya malik mətbəəsi olan azsaylı mətbuat orqanlarından biridir. “Şərq qapısı” qəzetinin yaradıcı kollektivi peşəkar jurnalistika ilə məşğul olmaq üçün ən müasir imkanları olan nümunəvi mətbuat evində fəaliyyətlərini davam etdirirlər. Ölkə mətbuatının inkişafına daim böyük qayğı göstərən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamları ilə yüksək fəxri adlara layiq görülmüş mətbuat işçiləri arasında Naxçıvan Muxtar Respublikasının jurnalistləri, radio və televiziya işçiləri, o cümlədən “Şərq qapısı” qəzetinin əməkdaşları da vardır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Şərq qapısı” qəzetinin 100 illik yubileyinin qeyd olunması haqqında 1 iyun 2021-ci il tarixdə xüsusi sərəncam imzalaması birəsrlik şərəfli yol keçmiş bu qəzetin tarixi ənənələrinə verilmiş qiymətin və bundan sonrakı fəaliyyətinə göstərilən qayğının əməli ifadəsidir.

“Şərq qapısı” qəzetinin keçdiyi 100 illik məsuliyyətli və uğurlu yol Azərbaycan mətbuatının tarixi inkişafının şərəfli salnaməsidir.

“Şərq qapısı” qəzeti Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının tarixinin və müasir inkişafının güzgüsüdür.

“Şərq qapısı” dünyası müxtəlif inkişaf mərhələlərində bu qəzetin səmərəli fəaliyyəti yollarında yorulmadan çalışmış, xidmət göstərmiş mətbuat xadimlərinin, qəzetlə əməkdaşlıq etmiş yaradıcı qüvvələrin unudulmaz həyat və sənət dünyasıdır.

*“Şərq qapısı” əsl qəzetçiliyə və müstəqil dövlətçiliyə xidmət məktəbidir. Hələ tələbə ikən mənə ilk məqaləmin çap edilməsinin qeyri-adi sevincini yaşatmış, hər ay əlaçı tələbə təqaüdündən çox qonorar aldığım, elmi və ədəbi axtarışlarına geniş meydan açmış, uzun illər ərzində qələmi yerə qoymadan yazıb-yaratmaq vərdişləri qazanmağımda müstəsna rolu olan doğma qəzetimizin 100 yaşını minnətdarlıq duyğuları ilə ürəkdən təbrik edirəm.*

**İsa HƏBİBBƏYLİ,**
**AMEA-nın vitse-prezidenti, Milli Məclisin deputatı, akademik**

# Azərbaycan «peyvənd millətçiliyi»nin əleyhinədir

## Dünya əhalisi vaksinasiya ilə COVID-ə qarşı kütləvi immunitet qazanmayana qədər epidemioloji vəziyyət gərgin olaraq qalacaq

Epidemioloji vəziyyətin gərgin olaraq qalması dünyanın normala dönməsinin hələ də mümkün olmadığını göstərir. Ötən xeyli müddət ərzində koronavirus pandemiyası nəinki ram edilib, əksinə, gün keçdikcə daha da artaraq yoluxma sayını və arealını ağlasığmaz miqyasda böyüdüb.

Eyni zamanda mutasiyalara uğrayaraq yeni və daha təhlükəli variantları ilə insanlığı qorxu altında saxlamağa davam edir. Hazırda isə Afrikanın cənubunda aşkar edilən koronavirusun B.1.1.529 ştamı bütün ölkələr üçün yeni təhdidə çevrilib.

Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) yunan hərfi “Omikron” ilə işarə etdiyi ştam barədə bildirir ki, koronavirusun bu növünün “çoxlu sayda mutasiyaları var, onlardan bəziləri narahatlıq doğurur. Bundan əlavə, ilkin sübutlar bu ştamla yoluxma riskinin “yüksək” olduğunu göstərir”.

Yeni ştama qarşı ehtiyat tədbiri olaraq bir sıra ölkələr Cənubi Afrika Respublikası və Afrikanın cənubundakı digər dövlətlər üçün sərhədlərini bağlayıblar.

Ümumdünya Tibb Assosiasiyasının sədri Frank Ulrix Montqomeri isə xarici mediaya müsahibəsində kütləvi vaksinasiyanın koronavirusun mutasiyalarının və çox yoluxucu, son dərəcə təhlükəli ştamlarının yaranmasının qarşısını almağın vacib olduğunu söyləyib: “Virusun mutasiyaya uğramasına imkan vermək olmaz, Afrikanın cənubunda aşkar edilən yeni variant isə bunun niyə bu qədər vacib olduğuna dair “yaxşı nümunədir”. Biz hələ də onun təhlükəli olduğu barədə heç nə bilmirik, lakin görünür ki, o, sürətlə yayılır. “Delta” kimi yoluxucu və “Ebola” kimi təhlükəli bir variantın peyda ola biləcəyi məni çox narahat edir. Nə qədər az infeksiyaya yol versək, bir o qədər yaxşıdır”.

İtaliyanın səhiyyə nazirinin COVID-19 pandemiyası üzrə müşaviri, Ali Sağlamlıq İnstitutunun keçmiş prezidenti Valter Rikkardin fikrincə, mövcud peyvəndlərin “Omikron” ştamından qorunmanı təmin edəcəyi ehtimalı yüksəkdir.

Müşavir qeyd edib ki, “Omikron” variantı narahatlıq doğuran kimi təsnif edilib, lakin hər hansı bir nəticə çıxarmaq hələ tezdir: “Bir neçə amil artıq məlumdur. İşin mənfi tərəfi odur ki, bu variant böyük yayılma potensialına malikdir. Cənubi Afrikada iki həftə ərzində 1 faizdən 30 faizə yüksəlib. Yoluxuculuq baxımından hətta “delta” versiyasını da üstələyir”.

Rikkardi əlavə edib ki, “Omikron”la bağlı eyni zamanda müsbət amillər də var: “Buna misal kimi, “Omikron”a yoluxma zamanı xəstəliyin nisbətən yüngül keçməsini və mövcud testlərdən istifadə etməklə onun aşkarlanmasının effektivliyini qeyd edə bilərik. Cənubi Afrika tibbi rəhbərliyindən bu xəstəliyin yüksək şiddətə səbəb olmadığı barədə hesabatlar aldıq. İsraildən yeni gələn digər müsbət xəbər isə hazırda mövcud olan testlər vasitəsilə ona diaqnoz qoymağın davam etməsidir”.

## Ölkəmizdə yetkin əhalinin 60 faizdən çoxuna iki doza peyvənd vurulub

Azərbaycan koronavirusun üzə çıxdığı ilk gündən etibarən ona qarşı bütün sahələr üzrə effektiv mübarizə aparır. Respublikamız əhalinin kütləvi vaksinasiyasına başlayan ilk ölkələr sırasındadır. Azərbaycanda 2021-ci il yanvar ayının 18-dən tibb işçilərinin peyvəndlənməsi ilə start verilən bu proses uğurla davam etdirilir. Artıq ölkədə yetkin əhalinin 60 faizdən çoxuna iki doza peyvənd vurulub.

Ölkəmizdə COVID-19 infeksiyası əleyhinə “CoronoVac”, “AstraZeneca”, “Sputnik V” və “”Pfizer/Biontech” peyvəndlərindən istifadə edilir.

Azərbaycan dövləti koronavirusdan əziyyət çəkən əhaliyə daim sosial-iqtisadi sahədə də dəstək göstərir. Belə ki, bu günə qədər respublikamızda COVID-19-dan əziyyət çəkən insanlara və biznes subyektlərinə təqribən 3 milyard ABŞ dolları həcmində sosial-iqtisadi dəstək paketi təqdim edilib. 2022-ci ildə isə həmin məqsədlərə dövlət büdcəsindən 1,6 milyard ABŞ dolları həcmində maliyyə dəstəyi paketi ayrılacaq.

## Azərbaycan koronavirusla mübarizəni dəstəkləmək məqsədilə 80-ə yaxın ölkəyə yardım edib

Bu reallıqdır ki, dünyada bütün ölkələrin koronavirusa qarşı peyvəndə əlçatanlığı bərabər səviyyədə deyil.

Noyabrın 28-də Aşqabadda İqtisadi Əməkdaşlıq Təşkilatının XV Zirvə Toplantısı zamanı çıxışında Prezident İlham Əliyev bu məsələ ilə bağlı vurğuladı ki, Azərbaycan pandemiya ilə mübarizə sahəsində qlobal səylərin səfərbər edilməsi üçün mühüm addımlar atır: “Biz “peyvənd millətçiliyi”nin qəti şəkildə əleyhinə olduğumuzu daim vurğulayırıq”.

Qoşulmama Hərəkatının sədri qismində Azərbaycanın təşəbbüsü ilə BMT-nin İnsan Hüquqları Şurası və BMT Baş Assambleyasında bütün ölkələr üçün peyvəndlərdən istifadə məqsədilə bərabər imkanların təmin olunmasına dair qətnamələr qəbul edilib. Həmçinin Azərbaycan koronavirusla mübarizəni dəstəkləmək məqsədilə 80-ə yaxın ölkəyə birbaşa və eyni zamanda Ümumdünya Səhiyyə Təşkilatının xətti ilə maliyyə və humanitar yardım edib.

## Ehtiyatı əldən vermək olmaz

Tibb elmi də sübut edir ki, koronavirusun daha geniş yayılmasının qarşısının alınması, eləcə də təsirinin azaldılması istiqamətində aparılan mübarizədə vaksinasiyanın mühüm rolu var. Yalnız peyvənd sayəsində dünya əhalisi koronavirusa qarşı kütləvi immunitet qazandıqdan sonra COVID-19 bəlasından qurtula bilər.

Amma ÜST-ün baş direktoru Tedros Adanom Gebreyesus insanlarda COVID-19 peyvəndlərinin yanlış təhlükəsizlik hissi yaratmasından narahatlığını ifadə edib.

O söyləyib ki, bir çox ölkədə və icmalarda peyvəndlərin insanlarda yaratdığı yanlış təhlükəsizlik hissini görürük və bu, bizdə narahatıq doğurur. Peyvəndlər həyatı xilas edir, lakin yoluxmanın qarşısını tamamilə almır.

O, bütün dövlətləri koronavirusun yayılmasının qarşısını almaq üçün kompleks tədbirlər görməkdə davam etməyə çağırıb: “Tibbi maska taxmaq, sosial məsafə saxlamaq, əhalinin sıx olduğu yerlərdən uzaq durmaq tövsiyə olunur. Tədbirlər yalnız açıq havada və ya yaxşı havalandırılan yerlərdə keçirilməlidir. Bütün ölkələrdə insanlar peyvənd vurdurmaqla yanaşı, test olunmalı, eyni zamanda onların yeni müalicə variantlarına çıxışı olmalıdır”.

**Yasəmən MUSAYEVA,**
**“Azərbaycan”**




# İlk səsyazan qurğu

**Səsin əbədiləşdirilməsi üçün ixtira edilmiş səsyazan qurğu kəşf edilməmiş olsaydı, həyatımızda bir çox çətinliklərlə üzləşərdik. İstər incəsənət baxımından, istərsə də bir çox fəaliyyət sahələrində bu qurğunun rolu əvəzsizdir.**



Maraqlıdır ki, 2008-ci ilə qədər fonoqrafın yaradıcısının Tomas Edison olduğu bildirilirdi. Lakin həmin il fransalı Edouard-Leon Scott de Martinville tərəfindən qeydə alınmış 1860-cı ilə aid səs yazısı bu faktı dəyişdi. O, səsi yazmaq üçün neft lampasından istifadə edib. Səs dalğaları lampanın his və tüstüsü ilə örtülmüş kağıza köçürülüb. Bu səs 10 saniyəlik olmaqla bir fransız xalq mahnısının (Au Clair de la lune) sözlərindən ibarət olub.

Əslində, ixtiraçının bu tarixdən əvvələ aid qeydə aldığı 5 səs yazısı da mövcuddur, lakin bir çox tədqiqatlar aparılsa da bunları rəqəmsallaşdıraraq dinləmək mümkün olmayıb. Onun 1957-ci ildə patentini aldığı fonoqraf səsi yalnız yazaraq vizuallaşdıra bilirdi, yenidən dinləmək funksiyasına malik deyildi. Bu səbəblə ixtiraçı belə özünün qeydə aldığı səsi heç vaxt dinləyə bilməyib. Hazırda onun bu qurğusu Milli Amerika Tarixi Muzeyində sərgilənir.

Tomas Edisonun qrammofonu isə qeydə aldığı səsi yenidən dinləmə imkanına sahib çıxıb. 1877-ci ildə kəşfi ilə insanların həyatında yeni bir çağın başlanğıcını qoymuşdu. İlk yazılan səs "Marry had a little lamp" adlı uşaq mahnısı olub. Səslər qalay folqa üzərinə yazılırdı və yalnız bir neçə dəfə təkrar qulaq asmağa tab gətirə bilirdi, sonra isə sıradan çıxırdı. Buna baxmayaraq, bu qurğu cəmiyyətdə böyük bir sensasiya yarada bilmişdi. Artıq sonrakı illərdə Edisonun "danışan maşın"ından ilhamlanan digər ixtiraçılar fonoqrafı təkmilləşdirməyə çalışıblar.

Hazırda Milli Amerika Tarixi Muzeyində indiyə qədər qeydə alınmış 400-ə yaxın erkən səs yazıları yer alır. İxtiraçılar səsi saxlayacaq müxtəlif vasitələr axtarışında olduqları üçün bu qeydlər rezin, bal mumu, şüşə, qalay folqa və latun kimi materialların üzərinə yazılıb.

# Uzaqları görən göz

**Qalaktikanın öyrənilməsində başlıca komponentlərdən olan teleskop orta əsrlərdə kəşf edilmişdi. Bu ixtira planetimizin kosmosdakı yerini müəyyən etmək üçün xüsusi əhəmiyyətə malik olmuşdu. Hazırda astronomiyanın ən vacib tədqiqat vasitələri sırasında yer alan teleskoplarla kainatın ən ucqar nöqtələrindəki dəyişiklikləri belə araşdırıb meydana çıxarmaq mümkündür.**



İlk teleskopun yaranma sədası Hollandiyadan gəlib. 1608-ci ildə hazırlanan və patentləşdirilən icadın müəllifi eynək istehsalçısı Hans Lippersheydir. Bununla təsvirlər 3-4 dəfəyə qədər böyüdülə bilirdi. Bir hekayədə bəhs olunur ki, ixtiraçı bu fikrə iki uşağın linzaları tutub uzaqdakı küləyi görmək üçün istifadə etdikləri zaman gəlib.

Bu yenilikdən bir il sonra Qalileo Qaliley H.Lippersheyin ixtirasından xəbər tutaraq öz teleskopunu hazırlayıb. O, Hansın hazırladığı cihazı heç vaxt görməsə də, öz nümunəsi üzərində əhəmiyyətli təkmilləşdirmələrə nail olmuşdu. O, ərsəyə gətirdiyi teleskopla təsvirləri 20 dəfəyə qədər böyüdə bilmişdi. Teleskopu göyə doğru yönəldən ilk şəxs Qaliley idi. Bunun nəticəsində o, ayın krater səthlərini ayırd etməyə, fazalarını ətraflı şəkildə çəkməyə və hətta Süd Yolunu təsvir etməyə nail olmuşdu. Həmçinin Saturnun halqalarını, sonsuzluğa uzanan ulduzlar kainatını, günəş ləkələrini və Yupiterin dörd peykini də müəyyənləşdirmişdi.

İlk nəhəng reflektor teleskop 1789-cu ildə İngiltərədə William Herschel tərəfindən qurulub. Onun uzunluğu 12 metr olmuşdu. Ölçüsü uğurlu alınsa da, bır sıra problemləri özündə cəmləşdirən cihaz astronomik müşahidələr üçün əlverişli hesab edilməmişdi. 1800-cü illərdən etibarən isə daha uğurlu versiyalar təqdim olunmağa başlanmışdı.

# İlk lampalar nə vaxt meydana çıxıb

**Qaranlıq dünyamızı aydınladan çıraq yaşamımızın əvəzolunmazları sırasında ilk pillələrdə yer alır. Yəqin ki, anidən işıqsız qalanda yaranan təlaş və səbirsizlikdən daha yaxşı dərk edilir ki, işıqsız keçən dəqiqələr nə qədər solğun və mənasızdır. Bu kimi önəmli faktorlar bir daha işığın meydana çıxdığı dövrlərə və onun üzərində edilən inkişafa duyulan rəğbət hissini xatırladır.**



İlk lampalar təxminən eramızdan 70 min il əvvəl icad edilib. Bu çağların ibtidai lampaları boş qabların içərisinə heyvan yağları ilə isladılmış mamırları daxil etməklə yandırılıb. Sonralar yanma sürətini idarə etmək üçün fitillərdən istifadə edilib.

18-ci əsrdə yanacaq mənbəyini təşkil edən mərkəzi ocaq hissə metal altlıq şəklində hazırlandı. İşığın intensivliyini idarə etmək üçün lampalara kiçik şüşə bacalar əlavə edildi. İsveçli kimyaçı Ami Arqand 1783-cü ildə şüşə baca ilə əhatə olunmuş içi boş dairəvi fitilli neft lampasından istifadə prinsipini ilk dəfə inkişaf etdirdi. Həmin vaxtlarda zeytun yağı, arı mumu, balıq, küncüt, qoz yağı və bu kimi maddələr lampalara yanacaq kimi əlavə edilirdi.

Qaz və neft lampaları isə bu sahədə daha böyük irəliləyişə səbəb olub. Hətta bunlardan küçələrin işıqlandırılmasında da istifadə edilib. Ser Cozef Swann və Tomas Edisonun 1870-ci illərdə yaratdıqları elektrikli közərmə lampalar kommersiya cəhətdən digərlərindən ən uğurlusu hesab edilib.

Məşhur inancın əksinə olaraq ilk ampulu Tomas Edison yox, Henri Vudvord və Metyu Evan ixtira ediblər. Lakin onların bu icadlarını kommersiyalaşdırmaq üçün maliyyə vəsaiti olmadığı üçün ideyanı T.Edison təkmilləşdirərək patent hüququnu alıb.

# Yerin ilk modeli

**Yuvarlaq dünyanın üzərinə köçürüldüyü maket olan qlobus ilk dəfə meydana çıxdığı vaxt insanlara planetlə bağlı qaranlıq qalan bir sıra məqamları aydınlaşdırmışdı. Bu prosesə səbəb olan dünyanın ilk qlobusunun adı "Erdapfel" idi. Ən qədim qlobus statusunu daşıyan yerin bu kiçik modeli 1492-ci ilə və Martin Behaimə aiddir.**



Tanınmış coğrafiyaçı alim Portuqaliya və Afrikanın qərb sahillərinə səyahət etdikdən sonra doğma Nürnberqə qayıdır və burada şəhər şurasına qlobus hazırlamağı təklif etmişdi. Əslində, o, heç bir köməksiz də layihəni həyata keçirə bilərdi, lakin bu yolda ona peşəkarlar lazım idi. "Erdapfel"in konstruksiyası bugünkü qlobuslardan bir qədər zərifdir. O, gil topun ətrafında əmələ gələn və sonradan bərkimiş kətan zolaqlardan hazırlanıb. Yarımkürələr isə taxta çərçivə ətrafında birləşdirilib.

Yuvarlaq topun üzərinə dünyanı yerləşdirmək üçün illüstrasiya işlərini rəssam Hans Storch ilə Georg Glockendon görüblər. 2000-ə yaxın yer adlarının əlavə edilməsinə dair kartoqrafik məlumatları Behaim verib. O, bunun üçün Ptolemeyin coğrafiya tarixindən tutmuş Marko Polonun kəşfiyyatlarına qədər bir sıra mənbələrdən olan materiallara əsaslanmışdı. Qlobusda miniatür obyekt və fiqur formasında kiçik illüstrativ detallardan istifadə edilib. Bunlara bayraqlar, heyvanlar, qayıqlar və s. aiddir.

Modeldəki coğrafi obyektlərin yerləşdirilməsi günümüzün standartlarına görə qeyri-dəqiqdir. Belə ki, Amerika hələ kəşf olunmadığı üçün burada təsvir edilməmişdi. Avropa və Asiya qitələri arasında isə okean və mifik ada olan Saint Brendan yer alır. Məlumdur ki, bu ada ümumiyyətlə yer üzündə heç zaman mövcud olmayıb. Yaponiya isə olduqca nəhəngdir və indiki mövqeyindən kənardadır.

Qlobus hazır olduqdan sonra Nürnberq şəhər şurasına verilsə də, sonradan Behaimin ailəsinə qaytarılıb. Kürəyə laqeyd yanaşan ailə onu anbarda tozlandırıb. Nəhayət, qlobus 20-ci əsrin əvvəllərində Nürnberqdəki Alman Milli Muzeyinə borc kimi verilib. Belə bir mühüm əşyanın ölkədə qalmalı olduğunu düşünən Adolf Hitler onu muzey üçün satın alıb. O vaxtdan bəri Behaimin qlobusu olan "Erdapfel" kartoqrafiyanın ilk yuvarlaq nümunəsi kimi bu muzeydə yaşamağa davam edir.



# Daşlardan kağıza

**İnsan yarandığı gündən fikirlərini, gördüklərini, xəyalını, bir sözlə, hər nüansı qeyd edərək saxlamaq istəyib. Yazı bu yolda ən müvafiq ilkin vasitə idi. Lakin bunu reallaşdırmaq üçün qələmə ehtiyac sonsuz idi. Sivri daşlarla başlayan yazı mədəniyyəti müəyyən dövrlər ötdükcə mürəkkəbli və diyircəkli qələm, çap maşını və s. ilə inkişaf edib. Qələmin kəşfi yer üzündə olan bütün sahələrdə yeni səhifə açıb.**

İlk mürəkkəbli qələmə eramızın 600-cü illərinin əvvəlində İspaniyada rast gəlinir. Sevilyadan başlayan bu dalğa qısa müddət ərzində sürətlə çoxlu ərazilərə gedib çatır. Lələk vasitəsilə mürəkkəbə batırılaraq istifadə olunan qələm qısa yazıdan sonra sıradan çıxırmış. Bu zaman lələyin ucunu kəsmək və ya yenisindən istifadə etmək lazım gəlirmiş. Qələmlər quşların yalnız sol qanadından olan tüklərdən olmalıymış. Sağ qanad bunun üçün yararsız sayılırmış.

Diyircəkli qələmin kəşfi indiki qələm anlayışının əsasını qoyub. İlk icad Con Loudun adı ilə bağlıdır. O, ilk dəfə diyircəkli qələmin işləmə prinsipini 1888-ci ildə patentləşdirib. Bundan sonra bir çox yeni konstruksiyalarla yeni növlü qələmlər hazırlanıb. XX əsrin əvvəllərində Corc Parker və Van Veçt Reysberq özlərinə məxsus diyircəkli qələm istehsal etməyə başlayıblar. Hazırda C.Parkerin qurduğu şirkət brend qələmlər istehsal edir.

Dövrümüzün daha çox istifadə olunan diyircəkli qələmini isə 1931-ci ildə Argentinada yaşayan macar jurnalist Laslo Biro ixtira edib. Laslo bu icadı ilə ölkəsində o qədər məşhurlaşmışdı ki, burada qələmlər onun adı ilə - "birom" adlandırılmağa başlamışdı. Hətta onun doğum günü - 29 sentyabr Argentinada hər il "İxtiraçılar günü" kimi qeyd olunur.

İlk diyircəkli qələmlərin kütləvi istehsalı Britaniya Hərbi Hava Qüvvələrinin sifarişi ilə həyata keçirilib. Havada olarkən atmosfer təzyiqindən digər tipli qələmlərdə mürəkkəb uc hissəyə axmır, nəticədə yazmaq mümkün olmurdu. Diyircəkli qələm ingilis hərbi pilotları üçün əla vasitə sayılırdı.

Bu qələmlərin Azərbaycana gəlişi SSRİ dövrünə təsadüf edir. Belə ki, 1960-cı illərin sonlarından sovet respublikaları diyircəkli qələmlə tanış olmuşdular. Lakin bir müddət məktəblərdə ibtidai sinif şagirdlərinə bundan istifadəyə icazə verilməyib. Səbəb olaraq isə belə qələmlərin insanın əl yazısını inkişaf etdirməyə imkan verməməsi kimi göstərirdilər. Tədricən qələmlərin keyfiyyətli istehsalı nəticəsində məktəblərdə bu mif aradan qalxır.

***Aydan XƏLİLOVA, "Azərbaycan"***




## Havaölçən kompüterlər




Amerikalı alimlər havanın keyfiyyətini proqnozlaşdırmaq üçün süni intellektdən istifadə etməyə başlayıblar. Mənbələrin məlumatına görə, peyk və yerüstü stansiyalarla müqayisədə kompüterlər bu işin öhdəsindən daha yaxşı gəlir.

Mütəxəssislər araşdırmalar çərçivəsində havanın keyfiyyətini ətraflı təhlil etmək məqsədilə kompüter modelləşdirməsindən istifadə ediblər.

# Məsafədən enerji yükləmək mümkün olacaq

**Yaponiyanın telekommunikasiya şirkəti olan "SoftBank" yeni nəsil texnologiyanın testinə start verib. Kioto Universiteti, Kanadzava Texnologiya və Yaponiya Milli İnformasiya və Kommunikasiya Texnologiyaları institutları tərəfindən hazırlanan bu texnologiyanın köməyi ilə 5G stansiyalar elektron cihazlarını uzaqdan şarj edə biləcəklər.**



Bu yeni texnologiyanın hazırlanması çərçivəsində xüsusi naqilsiz ötürücülərdən istifadə ediləcək. Həmin ötürücülər 5G standartına sahib stansiyalar ilə birlikdə çalışacaqlar.

"SoftBank" həmçinin 200 min ədəd 4G baza stansiyasının təkmilləşdirilməsinə start verib. Həmin baza stansiyaları 5G dəstəyinə sahib olacaq. Məhz təkmilləşdirilmiş stansiyalar gələn ilin əvvəlindən başlayaraq uzaqdan smartfonları şarj etmək imkanı qazanacaq. Bunun üçün istifadəçi, sadəcə olaraq, baza stansiyasına yaxınlaşacaq. Proses ötürülən siqnalın gücü ilə məhdudlaşdırılıb. Səbəb siqnalın insan orqanizminə mənfi təsir göstərməsinin qarşısını almaqdır.

Şarj prosesi hazırda 10 metrlik məsafəyədək reallaşdırılır. Lakin yaxın gələcəkdə bu göstəricinin 100 metrə qədər çatdırılması nəzərdə tutulur. Bu texnologiya smart saatları, fitnes qolbaqları, qulaqlıqları və digər cihazları enerji ilə təmin edə biləcək.

Onu da qeyd edək ki, Yaponiyada hazırda bu texnologiyadan istifadə qadağandır. Çünki onun müxtəlif dövlət qurumları tərəfindən ötürülən siqnallara maneə yaratmaq təhlükəsi var. "SoftBank"dan isə bildiriblər ki, yeni texnologiya yalnız 2025-ci ildə bazarda təqdim ediləcək və o zamana qədər mövcud problemlər həll ediləcək.

# Üçü bir yerdə

**Surix şəhərindəki İsveçrə Federal Texnologiya İnstitutunun mütəxəssisləri günəş, su və hava enerjisi vasitəsilə yanacaq istehsal edən xüsusi sistem yaradıblar. Bu sistem atmosferdəki karbon qazı ilə suyu yığır və Günəş enerjisindən yararlanaraq onları yanacağa çevirir.**




Ekoloji cəhətdən təhlükəsiz texnologiyalar qlobal şəkildə yayılmadıqları üçün təmiz energetikaya keçid prosesi ləng gedir. Bu problemin həlli sintetik yanacaq növləri ola bilər. Bu cür yanacaq növləri tamamilə bərpa oluna bilən resurs rolunda çıxış edir və mövcud yanacaq növlərini tamamilə və ya qismən əvəzləmək imkanı yaradacaq.

Aparılmış tədqiqatlar çərçivəsində yeni yanacaq növünü istehsal edən sistemi də yaradıblar. Sintetik yanacaq növünün yandırılması zamanı atmosferə buraxılan karbonun miqdarı yanacağın istehsalı üçün yığılan karbonun miqdarını keçmir. Faktiki olaraq, atmosfer əvvəlki kimi daha çox çirklənmir.

Mütəxəssislərin yaratdıqları sistem 3 moduldan ibarətdir: Birinci modul havadakı karbon qazını və suyu yığır. İkinci modulda günəş enerjisi kimyəvi reaksiyaların işə salınması və sintez qazların (hidrogen və dəm qazı qarışığı) əldə edilməsi üçün istifadə olunur. Əldə olunan qaz ya ayrıca istifadə oluna, ya da üçüncü modulda kerosin ilə metanola çevrilə bilər.

Bu konsepsiyanın testi üçün mütəxəssislər binanın damına 5 kilovatt gücündə böyük olmayan sistem quraşdırıblar. Gün ərzində 7 saat çalışan bu sistem 32 millilitr metanol istehsal edib. Bu nəticənin hələlik zəif göstərici olmasına baxmayaraq, mütəxəssislər nəticədən məmnundurlar və vurğulayırlar ki, onlar hələlik yalnız konsepsiyanın çalışdığını sübut ediblər. Əslində isə sistemin miqyası kommersiya məqsədli istifadə üçün daha çox böyüdülə bilər.

# Yanacağı elektrikə çevirən mühərrik

**Amerikanın "Ford" şirkəti benzinlə çalışan avtomobili elektromobilə çevirə biləcək mühərrik yaradıb. Şirkətdən bildiriblər ki, "Eluminator e-crate" adını verdikləri mühərrik artıq "Mustang Mach-E GT" avtomobilinin təkmilləşdirilmiş yeni versiyasına quraşdırılıb. Mühərrikin imkanlarını sərgiləmək üçün "Ford" şirkəti 1978-ci il istehsalı olan bu avtomobili elektromobilə çevirib. Sözügedən mühərrik 281 at gücündədir.**



Maşına ümumi olaraq 480 at gücünə sahib iki ədəd mühərrik quraşdırılıb. Yeni elektromobilin salonu da yenilənib. Belə ki, avtomobilə elektrikli ön panel, yeni sükan və şaquli şəkildə yerləşdirilmiş multimedia ekran quraşdırılıb. Qeyd etmək lazımdır ki, "Ford"un son avtomobillərində məhz bu multimedia ekranından istifadə olunur. Hələlik "F-100" adlı təkmilləşdirilmiş versiya yalnız bir nümunədə yaradılıb və təəssüf ki, şirkət onun kütləvi istehsalını planlaşdırmır. "Eluminator e-crate" mühərrikinə gəldikdə isə, onun satışı həyata keçirilir.

Gələcəkdə benzinlə çalışan avtomobilləri elektromobillərə çevirməkdə yardımçı olacaq batareyalar, idarəetmə sistemləri və digər komponentlərin istehsalı planlaşdırılır.




# "Ağıllı" dəbilqə

**"Huawei" şirkəti "Helmetphone NeoSmart Helmet" adlı smart dəbilqə təqdim edib. Onun vasitəsilə istifadəçi telefon zənglərini reallaşdıra və yol gedən zaman insanları bu və ya başqa tərəfə dönməsi barədə məlumatlandıra bilər. Sözügedən dəbilqədən velosiped, skeyt, diyircəkli konkilər, moped və digər nəqliyyat vasitələrində səyahət zamanı istifadə etmək məqsədəuyğundur.**

"Huawei" şirkətinin yeni məhsulu "HarmonyOS" əməliyyat sistemi vasitəsilə çalışır və mobil telefona "Bluetooth" üzərindən qoşulur. Qurğuya inteqrasiya edilmiş səsgücləndiricilər və mikrofon vasitəsilə istifadəçi daxil olan zənglərə cavab verə və musiqi dinləyə bilər.

Smart dəbilqənin həm arxa, həm də ön hissəsində diod işıqlar quraşdırılıb. Bu işıqlar istifadəçinin ətrafdan rahatca görünməsinə imkan verir. Dəbilqə qravitasiya sürətlənməsi sensoru ilə birlikdə çalışır. Nəqliyyat vasitəsini idarə edən şəxs əyləci basan zaman diod işıqları yanır. Nəqliyyat vasitəsi hər hansı istiqamətə dönən zaman isə dəbilqə müvafiq siqnalı ətrafdakılara çatdırır.

Dəbilqənin bütün funksiyalarının ayarlanmasını və onun enerji səviyyəsinin izlənməsini xüsusi mobil tətbiqdə reallaşdırmaq olar.

Bu dəbilqə Çində artıq satışa çıxarılıb.

# "Meta"nın əlcəyi

**Amerikanın "Meta" şirkəti ən iddialı layihələrindən birini gerçəkləşdirib. Şirkət bu texnologiya üzərində 2014-cü ildən çalışır. Söhbət virtual aləmdəki obyektlərlə qarşılıqlı əlaqə zamanı istifadəçini əsl fiziki toxunuş duyğusu ilə təmin edən xüsusi əlcəklərdən gedir. Bu əlcəklər virtual mühitdəki qarşılıqlı əlaqənin ayrılmaz hissəsinə çevriləcəklər.**



"Sehrli" əlcəklər hava ilə doldurulmuş çoxlu sayda elementdən ibarətdir. Həmin elementlər ovucda və barmaqlar ətrafında yerləşir. Əlcəklərdən virtual mühitdəki fiziki toxunuş duyğularını təqdim etməklə yanaşı virtual reallıq idarəetmə sistemi kimi də istifadə oluna bilər. Bu halda virtual reallıq sistemi barmaq hərəkətlərini təyin edir.

Xüsusi sistem ətrafı analiz edir və əlcəyin hava ilə doldurulmuş ayrı-ayrı kameralarındakı təzyiqi dəyişir. Nəticədə virtual aləmdə əlin əsl toxunuş duyğuları yaranır. Məsələn, virtual obyektə barmaq ucları ilə toxunan zaman istifadəçi öz barmaqlarının uclarında həmin toxunuşu hiss edir. Vizual və audio effektlər ilə birlikdə bu sistem virtual obyektlərlə qarşılıqlı əlaqə təcrübəsini reallıqdakı təcrübə səviyyəsinə çatdırır.

Texnologiya hələ ki yalnız virtual obyektlərin konturlarını hiss etməyə imkan verir. Obyektlərin digər hissələrini isə istifadəçi öz beynində təsvirlər və səslər vasitəsilə canlandırmalı olur. Amma əlcəklər çox böyükdür və onları müəyyən ölçülərə qədər kiçiltmək, daha dəqiq desək, konkret istifadəçinin əli üçün adaptasiya etmək zərurəti meydana çıxıb. Əks halda virtual aləmdə real toxunuş hissinə nail olmaq mümkün olmayacaq.

***Ülkər XASPOLADOVA, "Azərbaycan"***

## "Bakı Sığorta" ASC-nin səhmdarlarının nəzərinə!

11 yanvar 2022-ci il saat 11:00-da "Bakı Sığorta" ASC-nin Bakı şəhəri, Nəsimi rayonu, Bülbül prospekti 62 ünvanında yerləşən baş ofisində cəmiyyətin səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

İclasın gündəliyi, əlavə məlumat, o cümlədən yığıncağın gündəliyi üzrə materiallarla tanış olmaq üçün "Bakı Sığorta" ASC-yə (Bakı şəhəri, Nəsimi rayonu, Bülbül prospekti 62 ünvanında yerləşən "Gülüstan Residence" Kompleksinin 2 saylı binasının 3-cü mərtəbəsində), həmçinin 969 telefon nömrəsi vasitəsilə müraciət edilə bilər.

*İdarə Heyəti*

## "Azərişıq" ASC Sumqayıt şəhəri ərazisində yerləşən 35/6 kV-luq "XİF" yarımstansiyasının 110/35/6 kV-luq 2x25 MVA gücündə yenidənqurulması və 220/110 kV-luq "Sənaye Qovşağı" - "XİF" yarımstansiyaları arasında 1,7 km uzunluğunda 110 kV-luq iki dövrəli kabel xəttinin çəkilməsi işlərinin satın alınması məqsədilə təkliflər sorğusu elan edir

Təkliflər sorğusunda iştirak etmək istəyənlər 500 (beş yüz) manat məbləğində iştirak haqqını aşağıda göstərilən bank hesabına köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Mirzəağa Əliyev küçəsi 130 ünvanından ala bilərlər.

**"Azərişıq" ASC**
**Hesab: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: "Kapital Bank"ın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesabı: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

İddiaçılar tərəfindən ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

Maraqlanan şəxslər (+994 12) 440-39-93; daxili (92-19) telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Əlaqələndirici şəxs - Namiq Heybətov **namiq.heybetov@azerishiq.az**

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 14 dekabr 2021-ci il saat 12:00-a qədər qəbul olunur. Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklifləri 15 dekabr 2021-ci il saat 12:00-da Mirzəağa Əliyev küçəsi 130 ünvanında "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

*Tender komissiyası*

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti dəftərxana ləvazimatlarının satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 07 dekabr 2021-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Neftçilər prospekti 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1132.**

*Tender komissiyası*

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti 1547 layihəli yeni tikilən gəmilərə nasosların satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 06 dekabr 2021-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Neftçilər prospekti 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1132.**

*Tender komissiyası*

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti struktur idarəsinə polad təbəqələrin satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 06 dekabr 2021-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Neftçilər prospekti 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1053.**

*Tender komissiyası*

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti struktur idarələrinə tələb olunan boya qatqılarının satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 10 dekabr 2021-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Neftçilər prospekti 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

*Tender komissiyası*


# OXUCULARIN NƏZƏRİNƏ!
# "AZƏRBAYCAN"

*qəzeti 2022-ci il üçün abunə yazılışı kampaniyasına başlayır!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" ASC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Kaspi" MMC* | (012) 432-39-55, (012) 510-82-24 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

1 illik
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

6 aylıq
62,40 (altmış iki manat qırx qəpik) manat

3 aylıq
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

## ABUNƏ YAZILMAĞA TƏLƏSİN!


Dünya gündəmi




# Avropa miqrant problemi qarşısında aciz qalıb

## Bu gün NATO ölkələrinin XİN başçıları böhranla bağlı müzakirələr aparacaqlar





Avstriyada polis növbəti qaçaqmalçılar şəbəkəsini ifşa edib. Yerli hüquq-mühafizə orqanlarının məlumatına görə, qanunsuz olaraq ölkəyə 700-dən çox miqrant gətirilib.

Onların əksəriyyəti Almaniyaya yolunu davam etdirib. Aşağı Avstriya bölgəsi Polis İdarəsinin nümayəndəsi Yohan Baumşlagerin dediyinə əsasən, bir neçə gün ərzində qaçqınların Suriya, Livan və Misirdən daşınmasını həyata keçirən 15 nəfər qaçaqmalçı saxlanılıb.

İstintaqın məlumatına görə, təxminən 300 nəfərə qədər şəxsi daşıyan 25 avtomobildən ibarət karvan Serbiya-Macarıstan sərhədindən yola düşdükdən sonra qaçaqmalçılıq əməliyyatının qarşısı alınıb. Onun marşrutu Slovakiya və Çexiyanın ərazisi ilə Aşağı Avstriyaya qədər olub. Orada polislər 14 nəqliyyat vasitəsini dayandırıblar.

Qeyd olunur ki, sürücülər Moldova, Ukrayna və Özbəkistanda işə götürülüb və onlara 3000 avro məbləğində aylıq əmək haqqı təklif ediblər.

Yüzlərlə miqrantın təxminən üçdəbiri Avstriyada sığınacaq istəyib. Saxlanılan 15 nəfər Almaniyaya yollanmağı özlərinin planlaşdırdıqlarını söyləyiblər. Qeyri-leqal miqrantların daha üçdəikisi güman ki, bu ölkəyə yola düşüb.

"DPA" Agentliyi xəbər verir ki, ilin əvvəlindən Avstriyada insan qaçaqmalçılığında şübhəli bilinən 330-dan çox adam saxlanılıb.

### Belarus qaçqınlar üçün hər cür yardım göstərməyə hazır olduğunu vəd edib

Belarus bəlaya düşmüş qaçqınlar üçün hər şey etməyə hazırdır. Bu barədə Prezident Aleksandr Lukaşenko Belarus-Polşa sərhədindəki "Bruzgi" keçid məntəqəsi yaxınlığında qaçqınlarla ünsiyyət zamanı bildirib: "Qərb təbliğatına inanaraq sizlərdən kimsə orada daha yaxşı həyat axtarır. Yəqin ki, orada həyat sizin gəldiyiniz torpaqdan daha yaxşıdır. Amma ən dəhşətlisi də odur ki, başa düşdüyüm kimi (görürəm ki, burada həddindən çox uşaq, təxminən, 300-400, o qədər də qadın var) siz, böyük adamlar övladlarınız üçün öz vətəninizdə perspektiv görmürsünüz. Sizin hər biriniz istərdiniz ki, övladlarınız layiqli təhsil alsınlar və layiqli iş görsünlər".

Aleksandr Lukaşenko Almaniyanın sabiq kansleri Angela Merkellə söhbətini xatırladaraq deyib ki, o, Avropa İttifaqı ilə birlikdə sərhədin yaxınlığında, Belarus ərazisində düşərgədə yaşayan insanların problemini həll etməyə çalışacaq. "Biz avropalılara söz verdik ki, arzu edənlərin öz vətənlərinə qayıtması üçün səylərimizi əsirgəməyəcəyik".

### Vəziyyət noyabrın əvvəlindən gərginləşib

NATO ölkələrinin XİN başçıları Polşa, Litva və Latviyanın Belarusla sərhədində yaranan miqrasiya böhranını müzakirə edəcəklər. Bu barədə Şimali Atlantika Alyansının baş katibi Yens Stoltenberq mətbuat konfransında bildirib. Alyans üzvü olan ölkələrin XİN başçılarının görüşü noyabrın 30-da və dekabrın 1-də Riqada keçiriləcək.

Ötən həftə Rusiya Prezidenti Vladimir Putin Avropa İttifaqının rəhbəri Şarl Mişellə telefon danışığında Belarus və Avropa İttifaqı ölkələrinin sərhədində miqrasiya böhranını müzakirə edib. Tərəflər Polşa təhlükəsizlik qüvvələri tərəfindən təzyiqli suyun, gözyaşardıcı qazın, işıq-səs qumbaralarının və digər xüsusi vasitələrin tətbiqi faktlarına da diqqət yetiriblər.

Miqrantlarla bağlı vəziyyət noyabrın əvvəlindən gərginləşib. Belarusda olan 5 minədək qaçqın meşə zolağında sərhədə gəlib. Miqrantlar iki ölkənin sərhədində tikanlı məftilləri kəsərək onları Avropa İttifaqının ərazisinə buraxmağı xahiş ediblər. Polşa bunun qarşısını sərt şəkildə alır və eyni zamanda miqrasiya böhranında Minski günahlandırır.

Qaçqınlar sərhəddəki çadır düşərgəsindən Belarus tərəfinin təqdim etdiyi logistika mərkəzinə köçüblər.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Cəbrayıl rayonunun Mehdili kəndi ərazisində bir nəfər minaya düşüb

Noyabrın 29-da Cəbrayıl rayonunun işğaldan azad edilmiş Mehdili kəndi ərazisində 1980-ci il təvəllüdlü Natiq Mamedovun təmir-tikinti işləri apararkən minaya düşərək xəsarət alması barədə rayon prokurorluğuna məlumat verilib.

Cəbrayıl Rayon Prokurorluğundan AZƏRTAC-a bildiriblər ki, prokurorluq əməkdaşları tərəfindən hadisə yerinə baxış keçirilib, məhkəmə-tibb ekspertizası təyin edilib, digər prosessual hərəkətlər yerinə yetirilib.

Aparılmış araşdırmalarla müəyyən edilib ki, Natiq Mamedovun həmin ərazidə minaya düşməsi nəticəsində sağ ayağı travmatik amputasiya olunub.

Faktla bağlı Cəbrayıl Rayon Prokurorluğunda araşdırma aparılır.


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti


**ALLAH RƏHMƏT ELƏSİN!**

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin rəhbərliyi və kollektivi Yuxarı Xanbulançay Hidroqovşağı İstismar İdarəsinin rəisi Allahyar Salayevə anası

**NƏNİ QÜDRƏT QIZININ**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 5590
Sifariş 2459
Qiyməti 40 qəpik